Xalqın qəzeti!

# Xalq qəzeti

№ 101 (31070) 11 iyun 2026-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan Türk dünyasını birləşdirən dostluq, qardaşlıq və tərəfdaşlıq körpüsüdür

**Ortaq tarixi və etnik köklərimiz, dillərimiz bizi bir ailə kimi birləşdirir. Azərbaycan Türkiyə ilə Mərkəzi Asiya arasında coğrafi, iqtisadi, nəqliyyat və digər sahələrdə körpü rolunu oynayır. Nəqliyyat və kommunikasiya əlaqələri Türk Dövlətləri Təşkilatı çərçivəsində strateji əhəmiyyətə malikdir.**

**Xəzərin ən böyük ticarət donanması, yaxın illərdə gücü ildə 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, 9 beynəlxalq hava limanı, regionun ən böyük yükdaşıma aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirib.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



## Portuqaliya Respublikasının Prezidenti Zati-aliləri cənab Antoniu Joze Sequruya

**Hörmətli cənab Prezident,**

Portuqaliya Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

İnanıram ki, qarşılıqlı hörmət üzərində qurulmuş Azərbaycan-Portuqaliya əlaqələrinin inkişafı və əməkdaşlığımızın möhkəmləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm can-sağlığı, xoşbəxtlik, dost Portuqaliya xalqına daim rifah və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyun 2026-cı il**

## Ulu öndərin xilaskarlıq missiyası böhranlı Gəncədən başlamışdı



Səhifə ⇨ 8

## Şərqlə Qərb arasında yerləşən strateji tərəfdaşlıq



Səhifə ⇨ 4

## Rusiyanın təhdid dili, Ermənistan üçün dirəniş anı



Səhifə ⇨ 5

## İranlı deputatın diplomatik hədyanı



Səhifə ⇨ 5

## İrəvanda seçki qalmaqalı böyüyür



Səhifə ⇨ 4

## Orta Dəhliz "Odlar yurdu"nu uzaq "gündoğar" ölkə ilə daha da yaxınlaşdırır



Səhifə ⇨ 9

## Cənubi Qafqazda formalaşan yeni geosiyasi balans



Səhifə ⇨ 3

## Bred Şermanın boş buraxılmış ipi



Səhifə ⇨ 6

## Qərb Azərbaycanın strateji dəyərini yenidən kəşf edir

Səhifə ⇨ 3



## Sosial şəbəkələrdə "yaş senzi"nin zəruriliyi

Səhifə ⇨ 5

## Silahlar yenə susdu – nə vaxtadək?



Səhifə ⇨ 15

## "Qoca qitə"nin strateji muxtariyyət arzusu niyə dalana dirənib?



Səhifə ⇨ 15

## Xəzər dayazlaşır, adalaşır, sahillər quraqlaşır



Səhifə ⇨ 10

# Bakı Şəhər İcra Hakimiyyətinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin 2.8-ci bəndinə uyğun olaraq Bakı Şəhər İcra Hakimiyyətinin strukturunun optimallaşdırılması və onun fəaliyyətində səmərəliliyin artırılması məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542 (Cild I); 2024, № 4, maddə 379, № 5 (I kitab), maddə 529; 2025, № 5, maddə 459, № 8, maddə 763, № 11, maddə 1037, № 12 (I kitab), maddələr 1137, 1147; 2026, № 1, maddə 32) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası şəhər, rayon və şəhər rayonu icra hakimiyyəti başçıları aparatlarının, icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və sahə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinin nümunəvi strukturu və ştat vahidlərinin sayı”nın 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

| **1** | **Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının nümunəvi strukturu və ştat vahidlərinin sayı** | |
|---|---|---|
| **1.12.** | **Yekun** | **155** |

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində:

2.1.1. aşağıdakı büdcə təşkilatlarının yaradılmasını təmin etsin:

2.1.1.1. Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan Mənzil-Kooperativ Təsərrüfatı İdarəsinin əsasında Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində Mənzil-Kooperativ Təsərrüfatı İdarəsi;

2.1.1.2. Bakı Şəhər İcra Hakimiyyəti başçısının yanında olan Bakı Şəhər Ticarət və Xidmət Departamentinin əsasında Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində Bakı Şəhər Ticarət və Xidmət Departamenti;

2.1.1.3. Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində olan Heydər Məscidi İdarəsinin əsasında Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində Heydər Məscidi İdarəsi;

2.1.2. Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində Bakı Şəhər Heyvanat Parkının “Bir sıra dövlət qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 599 nömrəli Fərmanının 4.3-cü bəndinə əsasən yaradılması nəzərdə tutulan Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində “Sahibsiz Heyvanlara Qayğı Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinə birləşmə yolu ilə yenidən təşkilini təmin etsin;

2.1.3. Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində “Diplomatik korpusa və xarici nümayəndəliklərə xidmət göstərən müdiriyyət “İnterservis”in Bakı Şəhər İcra Hakimiyyətinin fəaliyyət istiqamətləri nəzərə alınmaqla yenidən təşkilini təmin etsin;

2.1.4. Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində “Bakımənzilkommunlayihə” Layihə İnstitutunun ləğv edilməsi ilə bağlı zəruri tədbirlər görsün;

2.1.5. Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində olan “Yaşıl Teatr” Bakı Konsert Kompleksinin və Bakı Şəhər Bələdiyyə Teatrının bütün əmlakı ilə birlikdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyinə verilməsini təmin etsin;

2.1.6. bu Fərmanın 2.1.1 – 2.1.3-cü yarımbəndlərində nəzərdə tutulan qurumların balansında olan əmlakın həmin qurumların əsasında yaradılan yeni qurumların balansına verilməsi, habelə həmin qurumların maddi-texniki təminatı, əsasnamələrinin (nizamnamələrinin) təsdiqi, işçilərinin əməkhaqlarının (vəzifə maaşları, vəzifə maaşlarına əlavələr, mükafatlar və digər ödənişlər) məbləğlərinin və əməyin ödənilməsi sisteminin, eləcə də Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla işçilərinin say həddinin müəyyən edilməsi ilə bağlı tədbirlər görsün;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Bakı Şəhər İcra Hakimiyyəti:

3.1. strukturunun və ştat vahidlərinin bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş nümunəvi struktura və ştat vahidlərinə uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində “Bakı Şəhər Əsaslı Tikinti və Təmir” Məhdud Məsuliyyətli Cəmiyyətinin strukturunun və əməkhaqqı sisteminin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla zəruri tədbirlər görsün;

3.3. bu Fərmanın 5-ci hissəsi nəzərə alınmaqla, bu Fərmanın 2.1.1 – 2.1.3-cü yarımbəndlərinə əsasən yaradılması nəzərdə tutulan yeni qurumların strukturunun dörd ay müddətində təsdiq olunmasını təmin etsin;

3.4. bu Fərmanın 3.1-ci bəndinin tətbiqi ilə əlaqədar ştatları ixtisar olunan dövlət qulluqçularına münasibətdə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 464 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işə düzəlməkdə və ya dövlət orqanlarında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda dövlət qulluqçusunun “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 21.1.6-cı maddəsində nəzərdə tutulmuş üstünlüyünün həyata keçirilməsi Qaydası”na uyğun olaraq tədbirlər görsün;

3.5. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**4.** Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi, bu Fərmanın 3.4-cü bəndi nəzərə alınmaqla, ştatları ixtisar olunan dövlət qulluqçularının analoji dövlət qulluğu vəzifələrinə təyin edilmələri ilə bağlı öz fəaliyyət istiqamətlərinə uyğun olaraq tədbirlər görsün.

**5.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi “Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının 3.7-ci bəndinə uyğun olaraq, bu Fərmana əsasən yaradılması nəzərdə tutulan yeni qurumların strukturunun, ştat vahidlərinin və əməkhaqqı sistemlərinin maliyyə ekspertizasını həyata keçirsin və onların optimallaşdırılması üçün tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 iyun 2026-cı il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident.**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə və dost Azərbaycan xalqına Albaniya xalqı adından və öz adımdan ən səmimi təbriklərimi, davamlı sülh, tərəqqi və firavanlıq arzularımı çatdırmaqdan şərəf duyuram.

Albaniya Azərbaycanla dostluq münasibətlərini və ölkələrimiz arasında güclənən tərəfdaşlığı yüksək qiymətləndirir. Qarşılıqlı hörmətə və ortaq maraqlara əsaslanan münasibətlərimiz əlaqələrin daha da möhkəmlənməsinə sadiqliyimizi əks etdirərək davamlı şəkildə inkişaf edir. Zati-alinizin bu tərəfdaşlığın dərinləşməsində mühüm rol oynayan liderliyini təqdir edirəm.

Əminəm ki, Sizin rəhbərliyinizlə Albaniya ilə Azərbaycan arasındakı dostluq münasibətləri xalqlarımızın rifahı naminə enerji, turizm və infrastruktur da daxil olmaqla qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq üçün yeni yollar açaraq möhkəmlənməkdə davam edəcək.

Zati-aliləri, Sizə və ailənizə ən xoş arzularımı bildirir, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Bayram BEQAY,***
***Albaniya Respublikasının Prezidenti***

# Milli Məclisdə görüşlər



**Milli Məclisin Sədri Sahibə Qafarova İndoneziyanın ölkəmizdə yeni təyin olunmuş səfiri Berlian Helminlə görüşüb.**

Görüşdə ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunluq ifadə olunaraq, siyasi, iqtisadi, investisiya və digər sahələrdə əməkdaşlığı daha da möhkəmləndirmək üçün imkanların olduğu vurğulanıb.

Söhbət zamanı ölkələrimiz arasında BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı kimi mühüm beynəlxalq təşkilatlarda müsbət əməkdaşlıq və qarşılıqlı dəstəyin mövcud olduğu qeyd edilib. S.Qafarova İndoneziyanın Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin işində fəal iştirak etdiyini bildirib.

Görüşdə, həmçinin parlamentlərimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi ilə bağlı da fikir mübadiləsi aparılıb.

Səfir Berlian Helmi də ölkələrimiz arasında münasibətlərin daha da genişləndirilməsində parlamentlərin rolunu qeyd edərək, fəaliyyəti dövründə digər sahələrdə olduğu kimi, qanunverici orqanlar arasında da əməkdaşlığın inkişafına töhfə verməyə çalışacağını söyləyib.

*

**Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə diplomatik fəaliyyəti başa çatan Almaniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ralf Horlemannla da görüşüb.**

Görüşdə diplomatın ölkəmizdəki fəaliyyəti dövründə Azərbaycan və Almaniya arasında münasibətlərin inkişafı istiqamətində baş vermiş proseslər nəzərdən keçirilib. S.Qafarova Prezident İlham Əliyevin Almaniyaya səfərləri və Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin ölkəmizə səfərinin münasibətlərin inkişafında mühüm rolunu vurğulayıb.

Söhbət zamanı qanunverici orqanlar arasında da münasibətlərə diqqət yetirilib.

Səfir Ralf Horlemann Azərbaycanda alman irsinə olan münasibəti yüksək qiymətləndirib. O, fəaliyyəti dövründə ölkəmizi daha yaxından tanımaq imkanı əldə etdiyini bildirib və müsbət təəssüratlarını bölüşüb.

***XQ***

# “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 415-VIIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası”nda dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 415-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1046 (Cild I) ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.10-cu bənd aşağıdakı redaksiyada verilsin:

“3.10. Elektron müraciətlərə təşkilatlar tərəfindən, müraciət edən şəxsin seçimi əsasında, elektron və ya poçt ünvanı, yaxud Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra – EHİS) vasitəsilə yazılı cavab verilməklə baxılır. Elektron müraciətdə (EHİS üzərindən təqdim olunmuş müraciətlər istisna olmaqla) elektron ünvan, yaxud müraciət edən fiziki şəxsin fərdi identifikasiya nömrəsi (FİN) və ya hüquqi şəxsin vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) göstərilmədikdə, müraciətə poçt vasitəsilə yazılı cavab verilir. Elektron sənəd formasında göndərilən cavab məktubu “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada tərtib edilir və rəsmiləşdirilir.”;

1.2. 4.3-cü bənd üzrə:

1.2.1. birinci cümlədə “saytında” sözü “informasiya ehtiyatında, yaxud EHİS üzərindən” sözləri ilə əvəz edilsin və həmin cümlədən “Qanunun 11.4-cü maddəsinə uyğun olaraq” sözləri çıxarılsın;

1.2.2. ikinci cümlədə “iki” sözü “üç” sözü ilə əvəz edilsin;

1.3. həmin Qaydaya 1 nömrəli əlavə – “Qeydiyyat-nəzarət vərəqəsi”nin formasının “Qeydiyyat-nəzarət vərəqəsinin doldurulmasına dair göstərici” hissəsinin “Müraciətin daxilolma yolları” abzasına “qutusundan” sözündən sonra “və ya EHİS üzərindən” sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 415-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 iyun 2026-cı il**

# Xəzər Azərbaycanın Mərkəzi Asiya ilə su körpüsüdür

## *Hikmət Hacıyev Trans-Xəzər Forumunda onlayn formatda çıxış edib*



**Azərbaycan müstəqillik qazandıqdan bəri Orta Dəhliz üzərində işləyir.**

Bu sözləri Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Trans-Xəzər Forumunda onlayn formatda çıxışı zamanı deyib.

O bildirib ki, Ermənistanla Azərbaycan arasındakı münaqişənin həllindən və regionda sülhün bərqərar olmasından sonra Azərbaycanın xarici siyasətində yeni ölçülər, yeni imkanlar yaranıb və bu yeni coğrafiyalara doğru genişlənib.

“Azərbaycan Cənubi Qafqaz ölkəsidir. Biz, eyni zamanda, Mərkəzi Asiya ailəsinə və Xəzər dənizi bölgəsinə mənsubuq. Azərbaycanın Avropa və Yaxın Şərqə dair kimlikləri var. Bütün bu dəyərlər bir-birinə ziddiyyət təşkil etmir, bir-biri ilə uyğun gəlir. Ermənistanla münaqişənin həllindən sonra Azərbaycan orta güc konsepsiyasına keçib. Bizim üçün orta güc konsepsiyası yalnız ölçü, iqtisadiyyat və əhali ilə ölçülmür. Bu, ölkələrin tərəfdaşlıq şəbəkəsidir”, - deyə Prezidentin köməkçisi əlavə edib.

Hikmət Hacıyev onu da vurğulayıb ki, Xəzər dənizi Azərbaycan üçün ticarət vasitəsidir və ölkəmizi Mərkəzi Asiya ilə birləşdirir. Keçən il Azərbaycan region ölkələrinin yekdil dəstəyi və qərarı ilə Mərkəzi Asiya Məşvərət Görüşünə tamhüquqlu üzv qəbul edilib.

“Mən bunu metaforik olaraq C5+1 adlandırıram. Mərkəzi Asiya və Azərbaycan tarixi, mədəni, dil dəyərlərini və normalarını bölüşür. Azərbaycan, Qazaxıstan, Özbəkistan və regionun digər ölkələri ilə strateji müttəfiqdir. Türk Dövlətləri Təşkilatı ona başqa bir çərçivə təqdim edir. Gənc demoqrafiya, strateji enerji və vacib mineral ehtiyatları, güclü iqtisadiyyatı ilə Türk dünyası yeni siyasi reallığa və geniş Avrasiya qitəsində əməkdaşlıq platformasına çevrilir”, - deyə o bildirib.

Prezidentin köməkçisi əlavə edib ki, Orta Dəhliz nəqliyyat marşrutundan Avropa, Cənubi Qafqaz, Mərkəzi Asiya və digər ölkələri birləşdirən strateji geoiqtisadi sistemə dərin keçid mərhələsindədir. Körfəz bölgəsində və Yaxın Şərqdə münaqişənin kəskinləşməsi şəraitində Orta Dəhliz əlavə əhəmiyyət qazanır.

“Orta Dəhlizin vacib əsas komponentlərindən biri Bakı-Tbilisi-Qars dəmir yoludur. Bağlantı arxitekturasının vacib bir ölçüsü də Azərbaycanın Naxçıvan bölgəsi ilə əlaqəlidir. Yaranmaqda olan Zəngəzur dəhlizi getdikcə Orta Dəhlizin strateji seqmenti kimi qəbul edilir. O, Şərq-Qərb əlaqəsini gücləndirməklə yanaşı, Azərbaycanın Türkiyə və daha geniş coğrafiyada Avropa ölkələri ilə birbaşa əlaqəsini gücləndirmək potensialına malikdir”, - deyə Prezidentin köməkçisi bildirib.

***XQ***

# Energetika nazirinin vətəndaş qəbulu

**Energetika naziri Pərviz Şahbazovun iştirakı ilə nazirlikdə növbəti dəfə vətəndaşlarla görüş keçirilib.**

Görüş zamanı mənzilin təbii qaz təchizatı, elektrik enerjisi sərfiyyatı və digər mövzularla bağlı müraciətlər dinlənilib, vətəndaşları narahat edən məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli üçün aidiyyəti struktur bölmələrə müvafiq tapşırıqlar verilib.

***XQ***



# Qərb Azərbaycanın strateji dəyərini yenidən kəşf edir

## *ABŞ-ın nüfuzlu "Newsmax" saytının şərhi ölkəmizin regional önəmini əks etdirir*

**Son illər beynəlxalq sistemdə baş verən dəyişikliklər, xüsusilə Rusiya–Ukrayna müharibəsi, Avropanın enerji təhlükəsizliyi böhranı və Çinlə Qərb arasında artan geoiqtisadi rəqabət Cənubi Qafqazı yenidən böyük güclərin diqqət mərkəzinə gətirib.**



### Yeni geosiyasi çəki

Uzun müddət Qərb siyasi dairələrində Azərbaycan daha çox zəngin enerji ehtiyatlarına malik ölkə kimi qəbul edilirdi. Lakin son illərin geosiyasi dəyişiklikləri bu yanaşmanı əhəmiyyətli dərəcədə dəyişib. Bu gün Bakı Avropa ilə Asiyanı birləşdirən strateji bağlantı nöqtəsi, regional sabitliyin mühüm təminatçısı və beynəlxalq enerji təhlükəsizliyinin vacib iştirakçısı kimi qiymətləndirilir. Azərbaycan son 20 ildə ardıcıl və uzaqgörən siyasət yürüdərək Xəzər hövzəsini Avropa bazarları ilə birləşdirən geniş enerji və nəqliyyat infrastrukturu formalaşdırıb. Bakı–Tbilisi–Ceyhan neft kəməri, Cənub Qaz Dəhlizi, TANAP və TAP kimi layihələr Avrasiyanın enerji xəritəsini dəyişdirən geosiyasi alətlər kimi qəbul olunur. Məhz buna görə Pol Millerin ABŞ-ın nüfuzlu media platformalarından biri sayılan "Newsmax"da dərc olunan məqaləsində Azərbaycanın artan strateji əhəmiyyətinə xüsusi diqqət yetirilir. Müəllif haqlı olaraq qeyd edir ki, Avropanın Rusiya enerji resurslarından asılılığını azaltmağa çalışdığı bir dövrdə Bakı Qərb üçün daha önəmli tərəfdaşa çevrilib. Ancaq məsələnin mahiyyəti yalnız enerji ehtiyatlarının həcmi ilə ölçülmür. Burada əsas amil Azərbaycanın illər ərzində formalaşdırdığı etibarlılıq kapitalıdır. Azərbaycan isə son iki onillik ərzində məhz bu keyfiyyətləri nümayiş etdirərək özünü Avropanın enerji təhlükəsizliyində etibarlı və proqnozlaşdırılan tərəfdaş kimi təsdiqləyə bilib. Bu gün Bakının geosiyasi çəkisini artıran əsas amil də məhz budur.

### Orta Dəhlizin açar ölkəsi

Pol Millerin məqaləsində diqqətçəkən əsas məqamlardan biri Azərbaycanın Orta Dəhlizdə oynadığı strateji rola verilən qiymətdir. Əslində, bu yanaşma son illər beynəlxalq siyasətdə baş verən daha böyük dəyişikliklərin əksidir. Əgər ötən əsrdə dövlətlər arasındakı geosiyasi rəqabətin mərkəzində enerji resursları və onların nəqli marşrutları dayanırdısa, bu gün qlobal iqtisadiyyatın əsas mübarizə sahələrindən biri ticarət yollarına, logistika şəbəkələrinə və təchizat zəncirlərinə nəzarətdir. Məhz bu səbəbdən Çinlə Avropa arasında yükdaşımaların alternativ istiqamətləri getdikcə daha böyük əhəmiyyət qazanır. Bu kontekstdə Mərkəzi Asiyanı, Xəzər hövzəsini, Cənubi Qafqazı və Türkiyə vasitəsilə Avropanı birləşdirən Orta Dəhliz yeni geoiqtisadi reallığın əsas sütunlarından biri kimi dəyərləndirilir. Son illərdə Bakı tərəfindən həyata keçirilən genişmiqyaslı infrastruktur layihələri ölkənin regional rolunu keyfiyyətcə yeni mərhələyə çıxarıb. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası, Bakı–Tbilisi–Qars dəmir yolu və rəqəmsal bağlantı layihələri Azərbaycanın sadəcə tranzit məkanı olmadığını, Avrasiyanın mühüm logistika qovşağına çevrildiyini nümayiş etdirir.

### Sülhün iqtisadi dividendləri

"Newsmax"dakı məqalədə diqqətçəkən məqamlardan biri də Azərbaycan–Ermənistan normallaşmasının mümkün iqtisadi nəticələrinə dair qiymətləndirmələrdir. Müəllif hesab edir ki, regionda davamlı sülhün bərqərar olması uzun illər formalaşmış iqtisadi və nəqliyyat reallıqlarını dəyişdirə bilər. Məlumdur ki, son 3 onillik ərzində Ermənistan regionun əsas enerji və nəqliyyat layihələrinin kənarında qalıb. Nəticədə ölkə həm tranzit gəlirlərin-



dən, həm də regional inteqrasiyanın yaratdığı əlavə iqtisadi imkanlardan məhrum olub. Bu baxımdan Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin irəliləməsi yalnız siyasi münasibətlərin tənzimlənməsi deyil, həm də yeni iqtisadi perspektivlərin formalaşması deməkdir. Əgər sülh prosesi davamlı xarakter alarsa və kommunikasiya xətlərinin açılması istiqamətində real addımlar atılarsa, Ermənistan ilk dəfə olaraq Şərqlə Qərbi birləşdirən regional nəqliyyat şəbəkələrinin iştirakçısına çevrilə bilər.

### Vaşinqtonun Bakı hesablaması

Pol Millerin məqaləsindəki mühüm siyasi mesajlarından biri ABŞ–Azərbaycan münasibətlərinin gələcək perspektivi ilə bağlıdır. Müəllif yazır ki, mövcud geosiyasi şəraitdə Vaşinqtonun Bakı ilə münasibətlərə yanaşması dəyişməli, tərəflər arasındakı əlaqələr ayrı-ayrı dövrlərdə aktivləşən diplomatik təmaslar çərçivəsindən çıxaraq daha sistemli və strateji xarakter almalıdır. Həmin yanaşmanın arxasında dayanan səbəblər kifayət qədər aydındır. Son illər beynəlxalq sistemdə baş verən dəyişikliklər Azərbaycanın ABŞ üçün əhəmiyyətini daha da artırıb. Vaşinqton üçün Bakı, ilk növbədə, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm tərəfdaşdır. Lakin məsələ bununla məhdudlaşmır. ABŞ-ın Avrasiya siyasətində Mərkəzi Asiya ilə əlaqələrin genişləndirilməsi, Şərq-Qərb nəqliyyat marşrutlarının inkişafı və qlobal təchizat zəncirlərinin şaxələndirilməsi prioritet istiqamətlərdən hesab olunur. Digər tərəfdən, Çinlə artan geoiqtisadi rəqabət şəraitində alternativ ticarət və nəqliyyat marşrutlarının inkişafı Vaşinqtonun diqqət yetirdiyi məsələlərdən biridir. Orta Dəhlizin potensialının yüksəlməsi də məhz bu kontekstdə qiymətləndirilir.

### Köhnə qərar, yeni reallıq

Məqalədə xüsusi yer verilən məsələlərdən biri də ABŞ-ın "Azadlığa dəstək Aktı"na edilən və uzun illər Vaşinqton-Bakı münasibətlərində müzakirə mövzusu olan 907-ci düzəlişdir. 1992-ci ildə fərqli regional və siyasi şəraitdə qəbul edilən bu məhdudlaşdırıcı addım həmin dövrdən etibarən iki ölkə arasındakı münasibətlərdə ən çox mübahisə doğuran məsələlərdən birinə çevrilib. Müəllif qeyd edir ki, son otuz ildən artıq müddətdə regionda və beynəlxalq sistemdə baş verən dəyişikliklər fonunda 907-ci düzəlişin siyasi və strateji əsasları ciddi şəkildə zəifləyib. Onun fikrincə, bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinə töhfə verən, Şərq-Qərb nəqliyyat əlaqələrinin inkişafında mühüm rol oynayan və regional sabitliyin vacib iştirakçılarından biri kimi çıxış etdiyi halda, həmin məhdudiyyət artıq mövcud geosiyasi reallıqlarla uzlaşmır. Əslində, bu mövqe son illər ABŞ-ın ekspert və analitik dairələrində daha tez-tez səsləndirilən yanaşmalardan biridir. Ekspertlərin fikrincə, dəyişən beynəlxalq şərait ABŞ-ın regiona dair yanaşmalarında da müəyyən korrektələri qaçılmaz edir. Bu baxımdan Pol Millerin 907-ci düzəlişin ləğvi ilə bağlı çağırışı ABŞ-ın Avrasiya məkanındakı uzunmüddətli strateji maraqları prizmasından irəli sürülən arqument kimi diqqət çəkir. Məqalənin ümumi məntiqi göstərir ki, müəllif Vaşinqtonun Azərbaycanla münasibətlərə keçmişin siyasi stereotipləri ilə deyil, formalaşmaqda olan yeni geosiyasi reallıqlar əsasında yanaşmasının daha məqsədəuyğun olduğunu düşünür. Son olaraq qeyd edək ki, qarşıdakı illərdə Azərbaycan-Ermənistan normallaşmasının davam etməsi, regional kommunikasiyaların açılması və Orta Dəhlizin potensialının tam reallaşdırılması Cənubi Qafqazın beynəlxalq sistemdəki rolunu əhəmiyyətli dərəcədə dəyişə bilər. Nəticədə region enerji diplomatiyası, qlobal ticarət, logistika və iqtisadi əməkdaşlığın mühüm mərkəzlərindən birinə çevriləcək. Mövcud transformasiyanın aparıcı qüvvəsi kimi isə Azərbaycanın adı getdikcə daha çox hallanır və görünən odur ki, Qərbdə də bu reallığı qəbul edənlərin sayı sürətlə artır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Cənubi Qafqazda formalaşan yeni geosiyasi balans



**Ermənistanda parlament seçkilərinin nəticələri elan olunan kimi İrəvana ilk təbrik Tbilisidən gəldi. Gürcüstanın Baş naziri İrakli Kobaxidze həmkarı Nikol Paşinyanı qələbə münasibətilə təbrik edərək, regional sabitliyin qorunması, strateji tərəfdaşlığın möhkəmləndirilməsi və dostluq münasibətlərinin inkişafını xüsusi vurğuladı. Bu təbrik həm diplomatik jest, həm də Gürcüstanın Cənubi Qafqazda dialoq və əməkdaşlıq xəttini davam etdirdiyinin göstəricisi kimi qiymətləndirildi. Eyni zamanda, Tbilisinin regiondakı tranzit və kommunikasiya mərkəzi rolunu qorumaq istəyini də əks etdirdi.**

Paşinyan bu siyasi jesti cavabsız qoymadı və Gürcüstanla münasibətləri "qardaşlıq və strateji tərəfdaşlıq" kimi xarakterizə etdi. O, seçkilərin nəticələrindən asılı olmayaraq iki ölkə arasında əlaqələrin davamlı inkişaf edəcəyini bildirdi. Bu mesaj Ermənistanın xarici siyasətində Gürcüstanın xüsusi yer tutduğunu və İrəvan üçün Tbilisinin yalnız qonşu deyil, həm də həyati əhəmiyyətli iqtisadi və siyasi tərəfdaş olduğunu göstərdi. Seçkidən dərhal sonra baş verən qarşılıqlı mesajlar iki ölkə arasında münasibətlərin sabit olmaqla yanaşı, dərinləşdiyini də ortaya qoydu. Bu barədə politoloq Vladimir Tsxvediani "Nə üşün Paşinyanın qələbəsi Tbilisi üçün əhəmiyyətlidir" məqaləsində yazıb. Bəs Gürcüstan üçün Paşinyanın qələbəsi niyə əhəmiyyətlidir?

Şübhəsiz, Nikol Paşinyanın hakimiyyəti dövründə Ermənistan–Gürcüstan münasibətləri keyfiyyətcə yeni siyasi və institusional mərhələyə keçib. Əvvəllər əsasən qonşuluq və iqtisadi əməkdaşlıq çərçivəsində inkişaf edən əlaqələr son illər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Paşinyan hökuməti üçün Gürcüstan Ermənistanın dünyaya açılan əsas qapısı rolunu oynayır, Gürcüstan isə Ermənistanı Cənubi Qafqazda balansın və sabitliyin mühüm elementi kimi görür və regionda sabitlik siyasətini bu əməkdaşlıq üzərindən gücləndirməyə çalışır. Tbilisi üçün İrəvana yaxınlaşma həm də Azərbaycan və Ermənistanla paralel balans siyasətini qoruyaraq regionda daha çevik diplomatik mövqe əldə etməyə imkan yaradır.

*

Aydın məsələdir ki, əməkdaşlıq yalnız siyasi dialoqla məhdudlaşmır. Bu əməkdaşlığın əsas dayaqlarından biri iqtisadi və tranzit amilidir. Ermənistanın dənizə çıxışının olmaması Gürcüstanı onun xarici ticarətinin əsas keçid ölkəsinə çevirib. Ermənistanın idxal və ixrac axınlarının böyük hissəsi Gürcüstanın limanları, avtomobil və dəmir yolu infrastrukturundan keçir. Bu qarşılıqlı asılılıq iki ölkənin iqtisadiyyatını birbaşa əlaqələndirir və Ermənistan iqtisadiyyatında baş verən artım Gürcüstana gömrük, logistika, nəqliyyat və liman xidmətləri vasitəsilə əlavə gəlir və iqtisadi fayda qazandırır.

Paşinyan hökumətinin regional kommunikasiyaların açılması ilə bağlı təşəbbüsləri də Tbilisinin maraqları ilə uyğunluq təşkil edir. Gürcüstan uzun illər Şərq–Qərb və Şimal–Cənub dəhlizlərinin kəsişmə nöqtəsi kimi çıxış edir və əsas məqsədi bu tranzit statusunu qorumaqdır. Ermənistanla iqtisadi əlaqələrin genişlənməsi, yükdaşımaların artması və sərhəd keçidlərinin modernləşdirilməsi bu strategiyanı daha da gücləndirir. Eyni zamanda, regionda sabitlik nə qədər möhkəm olarsa, xarici investisiyaların axını bir o qədər artır.

Gürcüstan üçün Paşinyanın seçkilərdə qələbəsi həm də Ermənistanda proqnozlaşdırılabilən hakimiyyətin qorunması deməkdir. Artıq formalaşmış işgüzar münasibətlərin davam etdirilməsi Tbilisi üçün sabitlik və risklərin azalması baxımından mühüm əhəmiyyət daşıyır. Daha geniş regional kontekstdə Cənubi Qafqaz tədricən konflikt modelindən iqtisadi qarşılıqlı asılılıq modelinə keçir. Bu şəraitdə Gürcüstan həm Ermənistanın, həm də Azərbaycanın regional kommunikasiya və ticarət layihələrində iştirak etməkdə maraqlıdır. Paşinyanın qonşularla münasibətlərin normallaşdırılması və regional əlaqələrin inkişafı kursunu davam etdirməsi həm də riskləri azaldır və Gürcüstanın əsas tranzit mərkəzi kimi rolunu gücləndirir.

Digər mühüm amil Ermənistan və Azərbaycan arasında yaranmış balansdır. Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsindən və regional nəqliyyat marşrutlarının genişlənməsindən sonra Bakı Cənubi Qafqazın əsas iqtisadi və enerji oyunçusuna çevrilib. Tbilisi üçün həm Azərbaycanla strateji tərəfdaşlığı qorumaq, həm də Ermənistanla münasibətləri inkişaf etdirmək vacibdir. Bu baxımdan Paşinyanın qələbəsi mövcud regional balansı pozmayan və proqnozlaşdırılabilən amil kimi qəbul olunur.

Eyni zamanda, Avropa İttifaqı, Rusiya və ABŞ arasında artan rəqabət fonunda Gürcüstan regionda tranzit və logistik neytral məkan statusunu qorumağa çalışır. Ermənistanda sabit hökumətin mövcudluğu bu məqsədə xidmət edir, çünki siyasi böhranların azalması xarici təzyiqlərin və eskalasiya risklərinin də azalması deməkdir.

*

Beləliklə, Paşinyanın qələbəsi Gürcüstan üçün bir neçə istiqamətdə faydalıdır: sərhəddə sabitlik, proqnozlaşdırılabilən tərəfdaş, tranzit gəlirlərinin qorunması və Gürcüstanın Cənubi Qafqazda əsas logistika mərkəzi kimi mövqeyinin güclənməsi. Bu baxımdan Ermənistanın hazırkı siyasi kursu Tbilisi üçün riskdən daha çox strateji resurs kimi qiymətləndirilir.

Bununla bağı **siyasi icmalçı Mübariz Göyüşlü** XQ-yə bildirdi ki, Cənubi Qafqazda yeni geosiyasi reallıqlar göstərir ki, uzunmüddətli inkişafın əsas yolu qarşıdurma deyil, iqtisadi inteqrasiya və qarşılıqlı asılılığın gücləndirilməsidir: "Azərbaycan, Ermənistan və Gürcüstan arasında nəqliyyat və ticarət əlaqələrinin genişlənməsi regionun Avropa ilə Asiya arasında strateji tranzit mərkəzinə çevrilməsi imkanlarını artırır. Nəqliyyat kommunikasiyalarının açılması, sərhəd keçidlərinin modernləşdirilməsi və regional layihələrin inkişafı təkcə iqtisadi deyil, həm də siyasi sabitlik baxımından əhəmiyyətlidir. Bu proseslər investisiyaların artmasına, yeni iş yerlərinin yaranmasına və region ölkələri arasında qarşılıqlı etimadın güclənməsinə xidmət edir. Ermənistanın sabitlik və əməkdaşlıq kursunu davam etdirməsi Cənubi Qafqazda daha inteqrasiya olunmuş və dayanıqlı geoiqtisadi, geosiyasi modelin formalaşmasına şərait yaradır. Eləcə də gərginlik risklərini azaldır və regionun əsas tranzit mərkəzi kimi rolunu gücləndirir. Bu baxımdan Ermənistanın hazırkı siyasi kursu Tbilisi üçün riskdən daha çox strateji resurs kimi qiymətləndirilir".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Şərqlə Qərb arasında yerləşən strateji tərəfdaşlıq

## *Azərbaycan və Çin ortaq inkişaf naminə əməkdaşlığın miqyasını genişləndirir*





**Hazırkı tarixi mərhələdə sivilizasiyalararası dialoq qlobal təhlükəsizliyin və diplomatik sabitliyin qorunmasında həlledici siyasi vasitədir. Azərbaycan və Çin Xalq Respublikası qlobal idarəetmədə bərabərhüquqlu tərəfdaşlıq, suverenliyə hörmət və daxili işlərə qarışmamaq prinsiplərini rəhbər tutaraq müasir dünyanın qarşılaşdığı geosiyasi çağırışlara qarşı ortaq diplomatik cəbhə formalaşdırır. Çinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Lu Meyin paylaşdığı fikirlər iki ölkə arasında strateji həmrəyliyin və sivilizasiya diplomatiyasının gələcək inkişaf istiqamətlərini dəqiq müəyyən etməyə imkan verir.**

2024-cü ilin iyun ayında BMT Baş Assambleyasının 78-ci sessiyası çərçivəsində təsdiqlənən qətnamə sivilizasiyalararası dialoqun beynəlxalq hüquqi müstəvidə rəsmiləşməsini təmin etdi. Çin Xalq Respublikasının irəli sürdüyü və Azərbaycan daxil olmaqla, 83 dövlətin dəstək verdiyi sənəd hər ilin iyun ayının 10-nu Beynəlxalq Sivilizasiyalararası Dialoq Günü kimi təsis etdi. Ötən il iyun ayının 10-da reallaşan ilkin mərasimlər və forumlar bəşəriyyətin gələcək inkişafı üçün çoxşaxəli mədəniyyətlərin harmonik yaşayış modelini nümayiş etdirdi. Pekin və Bakı sivilizasiyalararası dialoqu beynəlxalq münasibətlərin demokratikləşməsi və hegemonluq meyillərinə qarşı diplomatik sipər kimi qiymətləndirir.

BMT çərçivəsində əldə olunan qlobal konsensus beynəlxalq münasibətlərin gələcəyə yönələn mərhələsi kimi mühüm dönüş nöqtəsidir. 2024-cü ilin iyun ayında səsə qoyulan qətnamənin dövlətlər tərəfindən etirazsız qarşılanması beynəlxalq ailənin sivilizasiyalararası dialoqa ehtiyacını ortaya qoydu. Həmin sənədin ərsəyə gəlməsində Çinin diplomatik fəallığı və Azərbaycanın fəal dəstəyi xüsusi qeyd edilməlidir. Bakı qeyd olunan qətnamənin müəlliflərindən biri kimi həm regional, həm də qlobal miqyasda sülh tərəfdarı olduğunu sübut etdi.

*

Çin Sədri Si Cinpin tərəfindən 2023-cü ilin mart ayında irəli sürülən Qlobal Sivilizasiya Təşəbbüsü müasir dünya diplomatiyasında mütərəqqi konsepsiya kimi dəyərləndirilir. Həmin təşəbbüs qərbyönümlü liberal hegemonluğun diktə etdiyi “sivilizasiyaların toqquşması” tezisinə alternativ olaraq mədəni müxtəlifliyi və fərqli idarəetmə modellərini dəstəkləyir. Azərbaycan çoxəsrlik multikulturalizm ənənələrinə söykənərək, Şərqlə Qərb arasında sivil körpü rolunu oynayır. Rəsmi Bakının təsis etdiyi “Bakı prosesi” və mütəmadi keçirilən mədəniyyətlərarası dialoq forumları Çinin qlobal təşəbbüsləri ilə tam geosiyasi və ideoloji uzlaşma təşkil edir. Səfir Lu Mey məqaləsində qeyd edir ki, Azərbaycanın müvafiq strateji xətti yüksək qiymətləndirməsi və BMT-də müvafiq qətnaməyə rəsmi tərəfdaşlıq etməsi iki paytaxt arasındakı strateji etimadın göstəricisidir.

Sivilizasiyalararası dialoqun qlobal miqyasda inkişaf etdirilməsi yalnız mədəniyyətlərin tanınması ilə məhdudlaşmır. Bu fəaliyyət həm də beynəlxalq təhlükəsizliyin əsasını təşkil edir. Pekinin irəli sürdüyü Qlobal Sivilizasiya Təşəbbüsü ilə “Bakı prosesi” arasındakı strateji sinerji müasir diplomatiyanın mühüm nailiyyətlərindəndir. Hər iki təşəbbüs dünyada sülhün qorunması üçün mədəni imperializmə qarşı çıxır və sivilizasiyaların bərabərliyini təbliğ edir. Səfir Lu Meyin vurğuladığı kimi, qeyd olunan tərəfdaşlıq iki dövlətin qlobal idarəetmədə ortaq məsuliyyət daşıdığını göstərir.

İki ölkə arasındakı siyasi əməkdaşlığın təkamülü qlobal güc balansının tənzimlənməsində də əhəmiyyətli rol oynayır. 2024-cü ilin iyul ayında Astanada imzalanan Strateji Tərəfdaşlıq haqqında Müştərək Bəyannamə Bakı–Pekin əlaqələrini keyfiyyətcə yeni müstəviyə daşıdı. Lakin əlaqələrin ən yüksək zirvəsi 2025-ci il aprel ayının 23-də Pekində imzalanan “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Müştərək Bəyanat” oldu. Həmin tarixi sənəd iki ölkənin dövlət rəhbərlərinin qarşılıqlı etimada əsaslanan siyasi iradəsinin təzahürüdür. Sazişdə əksini tapan əsas müddəalar tərəflərin suverenlik və ərazi bütövlüyü prinsiplərinə sarsılmaz sadiqliyini təsdiqləyir.

Siyasi müttəfiqliyin dayanıqlılığı tərəflərin qlobal xaos və böhranlar qarşısında nümayiş etdiyi ardıcıl mövqedən tamamilə asılıdır. Azərbaycan və Çin qlobal idarəetmədə hər hansı güc mərkəzinin dominantlığını rədd edir. Müasir dövrdə sivilizasiyalararası dialoqun rəsmi səviyyədə təşviqi, əslində, təktərəfli güc tətbiqinə əsaslanan köhnə beynəlxalq idarəetmə metodlarına qarşı ortaq etirazdır. Hər iki ölkə dünya nizamının yenidən tənzimlənməsində hansısa sivilizasiyanın təcrid edilməsini qətiyyətlə pisləyir. İyun ayının 10-da qeyd olunan ikinci beynəlxalq gün məhz belə inklüziv diplomatik fəlsəfənin təzahürüdür.

Azərbaycannın xarici siyasətində “Vahid Çin” prinsipinin dəstəklənməsi ardıcıl və prinsipial xarakter daşıyır. Rəsmi Bakı Tayvanı Çinin ayrılmaz tərkib hissəsi kimi tanıdığını və qondarma müstəqillik cəhdlərini qətiyyətlə pislədiyini hər zaman bəyan edib. Çin Xalq Respublikası da analoji olaraq, Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və regional sülh gündəliyini dəstəkləyir. Qərbyönümlü bəzi siyasi dairələrin Cənubi Qafqazda münaqişə ocaqlarını yenidən alovlandırmaq və geosiyasi qarşıdurma yaratmaq cəhdləri qarşısında Pekinin nümayiş etdiyi prinsipial mövqe regional sabitliyə töhfə verir.

*

Suverenlik prinsipinin və ərazi bütövlüyünün toxunulmazlığı müasir beynəlxalq hüququn təməl sütunudur. Son dövrlər bəzi dövlətlərin beynəlxalq hüququ subyektiv maraqlara uyğun olaraq təfsir etməsi və ikili standartların tətbiqi qlobal xaosa yol açır. Azərbaycan və Çin belə neqativ tendensiyalara qarşı qətiyyətli mövqe nümayiş etdirirlər. Pekin və Bakı beynəlxalq münasibətlərdə BMT Nizamnaməsinin prinsiplərinə şərtsiz əməl edilməsini tələb edir. Səfir Lu Meyin yanaşmasında qeyd edildiyi kimi, suverenliyə qarşılıqlı hörmət, dövlətlərarası münasibətlərin etibarlı və uzunömürlü təminatıdır.

Azərbaycanın beynəlxalq nüfuzunun artması, Çinin aparıcı rol oynadığı qlobal platformalarda da aydın şəkildə təzahür edir. Rəsmi Bakının Şanxay Əməkdaşlıq Təşkilatı ilə tərəfdaşlıq səviyyəsinin yüksəldilməsi Pekin tərəfindən tam dəstəklənir. Şərq–Qərb əlaqələrinin mərkəzində həlledici mövqeyi olan Azərbaycan qeyd olunan təşkilatlarda aktiv iştirakı ilə Avrasiya məkanında təhlükəsizlik və dialoq mühitinin güclənməsinə xidmət edir.

Çoxqütblü dünya nizamının formalaşması prosesində beynəlxalq hüququn aliliyi və sivilizasiyalararası dialoq mühüm əhəmiyyət kəsb edir. Pekinin Qlobal Sivilizasiya Təşəbbüsü və Bakının regional sülh diplomatiyası beynəlxalq böhranların aradan qaldırılmasında təsirli model təqdim edir. Qeyd edilən diplomatik həmrəylik həm regional sabitliyə təminat verir, həm də qlobal miqyasda ədalətli beynəlxalq sistemin qurulmasına yol açır.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# İrəvanda seçki qalmaqalı böyüyür

## *Müxalifətin niyyəti ölkəni siyasi böhrana sürükləməkdir*

**İyunun 7-də Ermənistanda keçirilən parlament seçkilərinin nəticələri ətrafında mübahisə qızışır. Müxalif qüvvələr seçkilərin ciddi pozuntular şəraitində keçdiyini iddia edir və nəticələrə yenidən baxılmasını tələb edirlər.**

“Güclü Ermənistan” partiyası seçkilərin total pozuntularla keçdiyinə dair mövqeyini təsdiqləyib. Qurumun mətbuat katibi Marianna Kaqramanyan yaydğı videomüraciətdə bəyan edib ki, partiyanın topladığı səslərin bir hissəsi hakimiyyətə yaxın siyasi qüvvələrin hesabına yazılıb. Partiya bəzi məntəqələrdə səslərin yenidən sayılması üçün müraciət edib və yekun qərarını bütün məlumatlar təhlil olunduqdan sonra verəcəyini açıqlayıb: “Güclü Ermənistan” məsuliyyətli siyasi qüvvədir və hər hansı qərar qəbul edərkən seçicilərimizin etimadını və ölkəmizin maraqlarını nəzərə almalıyıq. Bu seçkilər total pozuntular şəraitində keçirilib. Səsvermə günü də seçki prosesində çoxsaylı pozuntular qeydə alınıb. Artıq aparılan yoxlamaların və öz hesablamalarımızın nəticələri göstərir ki, “Güclü Ermənistan”a verilmiş səslər hakimiyyətə yaxın, onun peyki olan siyasi qüvvələrin hesabına yazılıb”.

İctimai fəal Artur Çaxoyan da seçkilərin şəffaf keçirilmədiyini iddia edib. O, Ermənistan MSK-sının binası qarşısında xüsusilə İrəvanda hakim “Mülki müqavilə” partiyasının əldə etdiyi nəticələrin real görünmədiyini bildirib: “Biz görürük ki, “Mülki müqavilə” İrəvanda 250 min səs toplayıb, bu da qeyri-realdır. 2023-cü ildə İrəvan Ağsaqqallar Şurasına seçkilərdə “Mülki müqavilə” cəmi 75 min səs almışdı. Həmin vaxtdan sonra ölkənin xarici siyasətlə bağlı problemləri daha da dərinləşib. Seçkilərdə saxtakarlığın olduğunu sübut edən bir fakt var: MSK-nın dərc etdiyi rəqəmlər seçki məntəqələrində tərtib olunmuş və müxalif qüvvələr tərəfindən yayımlanmış protokollardakı göstəricilərlə üst-üstə düşmür. Bununla əlaqədar müxalif qüvvələri bütün 2005 seçki məntəqəsinin protokollarını dərc etməyə çağırıram. Qoy xalq açıq şəkildə hesablamalar aparsın və onları MSK-nın açıqladığı rəqəmlərlə müqayisə etsin”.

“Ermənistan” blokundan deputatlığa namizəd, Erməni İnqilabi Federasiyası (Daşnaksütyun) ali orqanının nümayəndəsi İşxan Saqatelyan bir sıra məntəqələrdə protokollarla MSK-nın saytında yerləşdirilən məlumatlar arasında fərqlər olduğunu bildirib. O, jurnalistlərlə görüşündə dedib ki, bəzi hallarda blokun topladığı səslər rəsmi sistemdə daha az göstərilib. Saqatelyan seçkilərin nəticələrinin Konstitusiya Məhkəməsində mübahisələndiriləcəyini və bunun üçün hüquqi sənədlərin hazırlandığını açıqlayıb: “Hazırda müxtəlif seçki məntəqələrində səslərin yenidən sayılması prosesi aparılır. Bir sıra məntəqələrlə bağlı yenidən sayım keçirilməsi üçün şikayətlər təqdim etmişik. Bizimlə yanaşı, müxtəlif müxalif siyasi qüvvələr də eyni tələblə müraciət ediblər. Bəzi məntəqələrdə protokollarla MSK-nın saytında yerləşdirilən məlumatlar arasında uyğunsuzluqların olduğu aydındır. Yəni bizim əlimizdə seçki məntəqəsindən imzalanmış və təsdiqlənmiş protokol var, orada bir rəqəmlər göstərilib, MSK-da isə başqa rəqəmlər əks olunub. Təkrar sayımın nəticələrinə əsasən müəyyən dəyişikliklər gözləyirik”.

Saqatelyan “Mülki müqavilə” partiyası təmsilçilərinin bəyanatlarına da münasibət bildirib. Deyib ki, hakim partiya nümayəndələrinin bu cür ritorikası və kinayəli davranışı yalnız bir şeyi göstərir: “Siz nə seçilmisiniz, nə də qalib gəlmisiniz. Siz səsləri oğurlamısınız. Qaliblər belə davranmırlar. Bu, qalibin davranışı deyil – bu, seçkiləri saxtalaşdıraraq insanların səslərini oğurlayan və hakimiyyətini repressiyalar vasitəsilə yenidən sürdürməyə çalışanların davranışıdır. Ümumiyyətlə, “Mülki müqavilə”nin deputatları və nazirləri, ritorikanıza diqqət edin. Hər dəfə nəsə deməzdən əvvəl bir şeyi xatırlayın: heç bir hakimiyyət əbədi deyil. Xüsusilə də sizin hakimiyyətiniz”, – Saqatelyan bildirib.

Hakim “Mülki müqavilə” partiyası isə ittihamları rədd edir. Partiyanın təmsilçisi Vaaqn Aleksanyan bildirib: “Dəqiqləşdirmələrin və yenidən sayımın nəticələrinə görə, ən çox artım məhz “Mülki müqavilə”yə verilən səslərdə qeydə alınıb. Bu, mübahisə doğurmayan faktdır. Yəni texniki səhvlər və qeyri-dəqiqliklər səbəbindən ən çox məhz bizim səslər düzgün hesablanmayıb. Onun sözlərinə görə, hazırda “Mülki müqavilə”nin nəticəsinə əlavə olaraq 950 səs daxil edilib: “Heç bir digər siyasi qüvvədə çatışmayan səslərin sayı bu qədər çox olmayıb”.



*

Seçkilərdən sonra yaranmış siyasi vəziyyətin təhlili göstərir ki, müxalifət nəticələrin hüquqi müstəvidə araşdırılmasından daha çox, onların legitimliyini ümumilikdə şübhə altına almağa çalışır. Seçki prosesinə dair iradların səsləndirilməsi demokratik siyasi sistemin normal elementi sayılsa da, son günlər Ermənistan müxalifətinin ritorikası məsələnin adi hüquqi mübahisə çərçivəsini aşdığını göstərir. Müxalif siyasətçilər və onlara yaxın fəallar seçkilərin “oğurlandığını”, səslərin “saxtalaşdırıldığını” və hakimiyyətin “xalqın iradəsini mənimsədiyini” iddia edirlər. Bununla onlar Mərkəzi Seçki Komissiyasının fəaliyyətini, rəsmi nəticələri və bütövlükdə seçki sistemini etibarsız göstərməyə çalışırlar. Belə bir yanaşma isə tədricən konstitusion institutlara etimadın sarsıdılması ilə nəticələnə bilər.

Diqqətçəkən məqam ondan ibarətdir ki, müxalifətin özü də nəticələrin mübahisələndirilməsi üçün qanuni mexanizmlərin mövcudluğunu etiraf edir. Onlar yenidən sayım tələb edir və Konstitusiya Məhkəməsinə müraciət etməyə hazırlaşırlar. Əgər hüquqi prosedurlar işləyirsə, o zaman paralel şəkildə seçkilərin tamamilə qeyri-legitim elan olunması cəmiyyətə fərqli mesaj verir. Bu isə seçki institutlarının deyil, siyasi sistemin özünün hədəfə alınması təsiri yaradır.

Saqatelyanın və digər müxalif nümayəndələrin açıqlamalarında hakimiyyətin seçkiləri saxtalaşdırdığı barədə qəti hökmlər yer alır. Halbuki bu iddiaların hüquqi qiyməti yalnız səlahiyyətli qurumların araşdırmalarından sonra verilə bilər.

Ermənistan son illərdə bir neçə dəfə daxili siyasi böhranlarla üzləşib. Bu səbəbdən seçki sonrası dövrdə dövlət institutlarının legitimliyinin davamlı şəkildə sual altına alınması yeni qarşıdurma riskləri yaradır. Xüsusilə parlamentin formalaşması, yeni hökumətin fəaliyyəti və dövlət idarəetmə sisteminin normal işləməsi fonunda belə çağırışlar ölkədəki sabitliyi sarsıda bilər. Əlbəttə, hər bir siyasi qüvvənin seçkilərin nəticələrini məhkəmədə mübahisələndirmək hüququ var. Lakin hüquqi mübarizə ilə siyasi sistemin legitimliyini ümumilikdə inkar etmək arasında ciddi fərq mövcuddur. Mövcud proseslər göstərir ki, Ermənistan müxalifətinin bir hissəsi ikinci yolu seçməyə üstünlük verir. Bu isə nəticədə seçki mübahisəsindən daha geniş miqyaslı konstitusiya müzakirələrinin və hətta konstitusiya böhranının yaranmasına zəmin hazırlaya bilər.

Beləliklə, Ermənistanda seçkilər ətrafında yaranan mübahisələr təkcə mandat uğrunda siyasi mübarizə deyil, həm də dövlət institutlarının legitimliyi məsələsinə çevrilməkdədir. Qarşıdakı günlərdə Konstitusiya Məhkəməsinin və digər qurumların qərarları proseslərin hansı istiqamətdə inkişaf edəcəyini müəyyənləşdirəcək. Ancaq görünən odur ki, müxalifətin sərt ritorikası və seçki sisteminə total etimadsızlıq yaratmaq cəhdləri ölkəni yeni siyasi və konstitusion gərginlik mərhələsinə yaxınlaşdırır.

***Səxavət HƏMİD***
***XQ***

# Rusiyanın təhdid dili, Ermənistan üçün dirəniş anı

## *Bu oyunda dözüm və cəsarət qalib gələcək*



**Parlament seçkilərini geridə qoymuş Ermənistana Rusiyadan ünvanlanan mesajlar çoxdur və onların sayı artmaqdadır. Bu mənada, seçkilərin görünməmiş qanunsuzluq şəraitində keçirilməsinin iddia olunmasından, eləcə də bir çox digər məqamlardan söz açmaq mümkündür. Ancaq mövzumuz təhdid mesajları barədədir. Ən mühüm mesaj isə budur: Ermənistan Rusiyasız yaşaya bilməz.**

Əlbəttə, Rusiyadan səslənən təhdid mesajlarına, belə demək mümkünsə, legitimlik qazandıran ciddi mətləblər var. Çünki Ermənistan iqtisadiyyatının formalaşmasında Rusiyanın rolu həlledicidir. Ticarət, enerji, investisiya və pul köçürmələri baxımından ikinci birinci üçün əsas tərəfdaşlardan biridir. Ayrıca, Rusiyanın Ermənistanın ən böyük ticarət tərəfdaşlarından olduğunu vurğulamalıyıq.

Üstəlik, Avrasiya İqtisadi İttifaqı çərçivəsində Ermənistanın üzv ölkələrə ixracının 95 faizə yaxını məhz Rusiyanın payına düşür. İttifaq ölkələrindən Ermənistana idxalın da 98 faizindən çoxu Rusiyanın hesabınadır. Ermənistan Rusiyadan ucuz qiymətə təbii qaz alır. Rusiyada çalışan erməni miqrantların göndərdiyi vəsait Ermənistan iqtisadiyyatının əsas gəlir mənbələrindən biridir. Yada salaq ki, Prezident Vladimir Putin bir neçə il əvvəl ölkəsində Ermənistanda yaşayan ermənilərdən də çox erməninin yaşadığı eyhamını vurmuşdu.

Onu da qeyd etmək lazımdır ki, 2022-ci ildə Rusiya-Ukrayna müharibəsinin başlanmasından sonra Rusiyadan Ermənistana kapital, biznes və insan axını artdı. Minlərlə Rusiya vətəndaşı və şirkəti Ermənistana köçdü. Eyni zamanda, Ermənistan Rusiyaya yönələn təkrar ixrac (re-export) marşrutlarından birinə çevrildi ki, bu, ölkələr arasındakı ticarət dövriyyəsində sıçrayış yaratdı, habelə, Ermənistan iqtisadi artım tempində yüksək nailiyyət əldə etdi.

Amma erməni təkrar ixracının Rusiyaya xeyrinin olduğunu da söyləməliyik. Müharibə səbəbindən sanksiya ilə üzləşmiş rus malları hayların sayəsində dünya bazarlarına çıxdı, habelə, ruslar ermənilərin hesabına idxalı qadağan olunmuş malları ölkələrində gördülər. Özü də söhbət yalnız adi deyil, həm də hərbi təyinatlı məhsullardan və avadanlıqlardan gedirdi. O avadanlıqlar və onların detalları ki, Rusiyanın hərb maşınının işə düşməsində, daha doğrusu, işini dayandırmamasında müstəsna rol oynayırdı. Bütün bunlar öz yerində.

Bəli, qeyd etdiklərimiz Rusiyanın iqtisadi zəmində Ermənistana təhdidlərinin söykənəcəkləridir. Hələ başqa mətləblər də var... Rusiya təhdid edir, habelə, bununla kifayətlənməyərək, erməni yük avtomobillərinin ölkəyə girişinə maneçilik törədir. İndi meyvə-tərəvəz mövsümüdür. Aydındır ki, erməni əriyi "tır"larda çox qalsa, xarab olacaq. Eləcə də Ermənistanın Rusiyaya ixrac edilən digər məhsullarını eyni aqibətin gözlədiyini söyləmək mümkündür.

Qarşıdakı müddətdə Rusiyada erməni "ovuna" da çıxıla bilər. Eynilə bir müddət əvvəl azərbaycanlı "ovunun" gerçəkləşdirildiyi kimi. Rusiyanın Ermənistana satdığı qazın qiymətini artırması da mümkündür. Bəs bütün bunlar fayda verəcəkmi? Sualımız ritorikdir. Çünki bir xalqın və dövlətin heysiyyatına toxunmağın heç bir xeyiri ola bilməz. Əksinə, Ermənistanda və ermənilərdə Rusiyaya qarşı patoloji nifrət yarana bilər. Nifrətdən söz düşmüşkən, onun elementləri indi də var. Habelə, nəzərə alaq ki, Ermənistanda Nikol Paşinyanın hakimiyyətə gəlməsi ilə nəticələnmiş 2018-ci il inqilabı da böyük ölçüdə erməni xalqının anti-Rusiya köklənişinin məhsulu olmuşdu. Bu kökləniş qalmaqdadır və Rusiyanın iqtisadi embarqoları və təhdidləri onu bir qədər də artıracaq.

Hazırda rus ictimai rəyinin təmsilçiləri erməniləri nankor adlandırırlar. Sanki haylar, loru dildə desək, şadlıqlarına şitlik edirlər. Əslində isə belə deyil. Çünki sadə ermənilər ruspərəst xunta rejiminin ölkələrini quldur kimi idarə etdiklərini görüblər. 2018-ci il inqilabı, hər nə qədər xaricdən idarə olunan proses mahiyyəti daşısa da, Kremlin dirijor çubuğu ilə hərəkətə gələn koçaryanların, sarkisyanların zülmünə görə baş vermişdi. Rusiya məhz həmin xəyanətkar ...yanların sayəsində erməni xalqını kölə kimi görmüşdü.

Prinsip etibarilə "kölələrin" başqa seçim imkanı olmamışdı. Rusiya müstəqillik dövrü Ermənistanını o günə qoymuşdu ki, başını qaldırıb ətrafa baxması mümkünsüzə çevrilmişdi. Yuxarıda ayrı-ayrı elementlərini sadaladığımız asılılıq buna görə yaranmışdı. Əlbəttə, bu mənzərənin formalaşmasında erməni xalqının özünün də təqsiri var. Haylar imperiyanın sadiq qulları kimi davranmamalı idilər.

Əslində, başları Qarabağ avantürasına qarışmış, Kremlin kuluarlarında yazılmış "erməni qəhrəmanlıq nağıllarının" sehrinə düşərək, faciələrinə göz yaşı axıdaraq aldanmış ermənilər kölə durumuna düşdüklərinin fərqinə varmayıblar. İndi Ermənistan kölə olmaq istəmir və 7 iyun parlament seçkiləri böyük ölçüdə məhz bunu göstərdi. Rus ictimai rəyinin isə ənənəvi təhdid ritorikasına baş vurması son dərəcə böyük səhvdir, əks effekt yaradır. Amma belə qənaət formalaşır ki, Moskva təhdid və hədə-qorxu dilindən başqa dil tanınmır. Acınacaqlı durum həm də budur.

Ümumiləşdirmə apararaq, bu nəticəyə gəlmək olar ki, Ermənistanın iqtisadi baxımından rus təsirinin məngənəsində sıxılması elə Rusiyanın erməni xalqının başına açdığı ən böyük oyundur. İllər ərzində hayların ətrafı görə, "erməni planeti"ndən kənara çıxa bilməmələri də həmçinin.

Ermənilər ətrafa reallıq pəncərəsindən baxmağı bacarmalı və öyrənməlidirlər. Onların başqa çıxış yolları yoxdur. Hazırda Ermənistanda durumu dərk edənlər hakim mövqe tuturlar. 7 iyun parlament seçkiləri onların baxışlarının erməni xalqı tərəfindən dəstəkləndiyini göstərdi. İndi qalır Rusiyanın təzyiqlərinə dözərək irəliyə baxmaq. Təkcə baxmaq yox, eyni zamanda, daha cəsarətli davranmaq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Sosial şəbəkələrdə "yaş senzi"nin zəruriliyi

**Çoxsaylı beynəlxalq tədqiqatlar sosial şəbəkələrdən nəzarətsiz və həddindən artıq istifadənin yeniyetmələr arasında depressiya, təşviş pozuntuları və özünəqəsd düşüncələri riskinin artması ilə əlaqəli olduğunu göstərir. Həmçinin kiberzorakılıq hallarını artırır. Problem ondadır ki, ənənəvi zorakılıq məktəb və ya küçə ilə məhdudlaşdığı halda, virtual zorakılıq sutkanın istənilən saatında və internetin əlçatan olduğu hər məkanda davam edə bilir. Uşaq evdə də təhqir, təzyiq, alçaldılma və sosial təcrid riski ilə üzləşir.**

Bu məsələ artıq nəzəri disputların mövzusu olmaq mərhələsindən çıxıb, gündəlik həyatımızda intensiv şəkildə müşahidə olunan real təhdidə çevrilir. İlin əvvəlində "İdrak" liseyində baş vermiş faciəli hadisə – 10-cu sinif şagirdinin müəllimə odlu silahdan atəş açması cəmiyyət üçün ciddi siqnal idi. Həmin ərəfədə Ağcabədidə 12 yaşlı uşağın digər azyaşlıya bıçaqla xəsarət yetirməsi artıq təsadüf kimi qiymətləndirilə bilməz. Bənzər nümunələrin sayı çoxdur. Onların coğrafiyası və forması fərqli olsa da, mahiyyət eynidir: yetkinlik yaşına çatmayanların zorakılığa meyillənməsi faktı ortadadır.

Bu cür davranış modelləri təsadüfən formalaşmır. Akademik çevrələrdə təsdiqini tapmış faktdır ki, belə cinayətlərin baş verməsində sosial şəbəkələrin və rəqəmsal platformaların uşaqlar üzərində artan neqativ təsirinin rolu var. Süni intellekt texnologiyaları vasitəsilə hazırlanmış və sosial şəbəkələrdə kütləvi şəkildə yayılan qısa videoçarxlar - reels, shorts və s. uşaqlara hər gün yüzlərlə zorakılıq, silah, kriminal həyat tərzi, aqressiv davranış nümunələri təqdim edir. Nəticədə zorakılıq adi, qəhrəmanlıq isə silah və güc üzərindən təqdim olunan davranış modelinə çevrilir.

Doğrudur, "Facebook", "YouTube" kimi iri platformalar azyaşlıların zərərli məzmundan qorunması üçün müəyyən mexanizmlər tətbiq edirlər, 12-13 yaşdan aşağı uşaqların hesab açmasını formal olaraq məhdudlaşdırmağa çalışırlar. Valideyn nəzarəti alətləri də mövcuddur. Lakin bu tədbirlərin effektivliyi ciddi sual altındadır. Bir valideyn öz övladına məhdudiyyət tətbiq etsə belə, həmin uşağın dostunun telefonundan, yaxud başqa platformalar vasitəsilə eyni məzmuna çıxış əldə etməyəcəyinə heç bir təminat yoxdur. Yaxud uşaqların 13-16 yaş baryerini anonim profillərlə aşmayacaqlarına da təminat yoxdur.

**Rəqəmsal asılılıqdan qorunma dövlət siyasətinin əsas istiqaməti kimi**

Məsələ təkcə "Facebook" və "YouTube"la bitmir. Hazırda dünyada yüzlərlə sosial şəbəkə və videopaylaşım platforması fəaliyyət göstərir. Onların böyük əksəriyyətində yaş filtrləri formal xarakter daşıyır və faktiki olaraq işləmir. Pornoqrafik materiallar, silah nümayişləri, kriminal çağırışlar, qanunsuz oyunlar və zorakı davranışlar heç bir real nəzarət mexanizmi olmadan tirajlanır. Bu isə psixoloji cəhətdən formalaşmaqda olan uşaqlar üçün birbaşa təhlükədir.

Qeyd etmək lazımdır ki, baş verən faciələr Azərbaycan cəmiyyəti üçün uzun müddət xarakterik olmayıb. Güclü ailə institutu, mənəvi bağlar, ictimai nəzarət, daxili sabitlik və nizam-intizam bu cür halların kütləviləşməsinin qarşısını ala bilib. Lakin qlobal rəqəmsallaşma və nəzarətsiz sosial media mühiti bu balansı sürətlə pozur. Əgər vaxtında və sistemli tədbirlər görülməzsə, bu tip hadisələrin artacağı şübhə doğurmur.

Rəqəmsal texnologiyaların, internetin, xüsusən sosial şəbəkə platformalarının uşaqlar və yeniyetmələr üzərində yaratdığı neqativ təsirlər bütün dünyada narahatlıq doğurur, ciddi şəkildə müzakirə edilir. Son illər dünyanın müxtəlif ölkələrində 16 yaşadək şəxslərin sosial şəbəkələrdə qeydiyyatına məhdudiyyət qoyulması ilə bağlı qanunvericilik təşəbbüslərinin irəli sürülməsi məhz bu narahatlıqlardan qaynaqlanır.

Dünya təcrübəsi göstərir ki, bu istiqamətdə atılan addımlar müsbət nəticələr verir. Məsələn, Avstraliya 16 yaşadək uşaqların sosial şəbəkələrdə hesab açmasını məhdudlaşdıran ən sərt qanunvericilik modellərindən birini qəbul edib və effekt əldə edib. Norveç, İrlandiya və digər bir sıra ölkələr sosial şəbəkə platformalarından istifadə yaşının 16-ya qaldırılmasını təklif ediblər. İspaniya isə uşaqların rəqəmsal asılılıqdan qorunmasını dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirib. BMT-nin Uşaq Fondu (UNICEF), Ümumdünya Səhiyyə Təşkilatı və digər beynəlxalq qurumlar da uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin edilməsini prioritet vəzifə kimi irəli sürüblər.



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

Bu baxımdan Azərbaycanda 16 yaşadək uşaqların sosial şəbəkələrdə qeydiyyatına məhdudiyyət qoyulması istiqamətində atılan addımlar müasir dövrün çağırışlarına uyğun və strateji əhəmiyyət daşıyan təşəbbüs kimi qiymətləndirilməlidir. Bu qərar təkcə rəqəmsal təhlükəsizlik məsələsi deyil, həm də gələcək nəslin psixoloji sağlamlığına, təhsil keyfiyyətinə və sosial inkişafına yönəlmiş uzunmüddətli investisiyadır. Belə bir yanaşma daha sağlam, daha savadlı və daha dayanıqlı cəmiyyətin formalaşmasına xidmət edə bilər.

Azərbaycanda bu problemin aradan qaldırılmasını ehtiva edən qanun layihəsinin Milli Məclisdə müzakirəyə çıxarılması ciddi əhəmiyyət daşıyır. Layihənin mühüm üstünlüklərindən biri onun həm də effektiv icra mexanizmlərini nəzərdə tutmasıdır. Yaş məhdudiyyəti ilə bağlı tələbləri yerinə yetirməyən platformalar üçün cəza və cərimə prosedurlarının müəyyən edilməsi qanunun effektivliyini artıran elementlərdir. Hüquqi praktikada istənilən normanın real nəticə verməsi üçün onun icrasını təmin edən məsuliyyət mexanizmlərinin mövcudluğu vacib şərtlərdəndir. Əks halda, qanun yalnız tövsiyə xarakteri daşıyaraq praktiki təsir imkanlarını itirə bilər. İndiki qanun layihəsi bu cür məcburi icraetmə mexanizmlərini mükəmməl şəkildə müəyyən edir.

*Replika*

# İranlı deputatın diplomatik hədyanı

**Bəlkə də, İranın düşdüyü vəziyyətin qəlizliyini nəzərə alıb, parlamentin üzvü Əbülfəzl Zohrevandın ölkəmizin əleyhinə dediklərini "heç hənanın yeridir" məntiqi ilə yola vermək olardı. Amma bu deputat bəndə bütün "qırmızı xətləri" elə tapdayıb, həddini o dərəcədə aşıb ki, cavabsız buraxmaq qeyri-mümkündür.**

Az qala bütün dünyanı özünə düşmən edən SEPAH idarəçiliyindəki İran rejiminin parlamentdəki ideoloji dəstəkçilərindən biri Əbülfəzl Zohrevand Azərbaycan əleyhinə hədyanlarla dolu açıqlama yayıb. Ölkəsi üçün bunca həssas və qəliz durumda qonşunun bostanına daş atmaq heç siyasətdən uzaq diletantın da ağlına gəlməz. Elə maraqlısı da budur ki, Azərbaycanın ünvanına sağlam düşüncədən uzaq hədyanların müəllifi deputat Əbülfəzl Zohrevand diplomatdır. Bu şəxs ölkəsini İraq və İtaliya kimi ölkələrdə səfir kimi təmsil edib. İntəhası, onun ölkəmizə qarşı nifrətdən yoğrulmuş avantürist bəyanatı heç "siyasi boşboğazlıq" kimi də qəbul oluna bilməz. Və bu gerizəkalının diplomatik missiyada çalışması, sonra da qanunverici orqana düşməsi yalnız heyrət doğurası haldır.

Bəs bu təxribatçı "diplomat-deputat" nə deyib? "Tahririeh Plus" "YooTube" kanalına müsahibəsində Azərbaycanı "hədələməyi" fürsət bilən Zohrevandın açıqlamasına diqqət yetirin: "İran ona hücum edən istənilən ölkəyə o qədər güclü cavab verə-



cək ki, heç vaxt özünə gələ bilməyəcək". Bunun ardınca isə Azərbaycanı hədəf götürərərək "Bakı üç-dörd saat ərzində xəritədən silinə bilər, ona görə də bizim yanımızdan keçməmək daha yaxşıdır" kimi siyasi nəticələrə səbəb ola biləcək hədyan səsləndirib.

Bu, Zohrevandın Azərbaycana qarşı ilk davranışı deyil. O, 4 il bundan əvvəl ölkəmizin ünvanına bunları üfürürdü: "Azərbaycan dəhşətli fenomendir və bizim üçün potensial təhlükədir. Naxçıvan tamamilə İrana birləşdirilməlidir. Naxçıvan bizim üçün "Axilles dabanıdır"; "Ermənilər İranın müttəfiqidir. Tarix boyu həmişə belə olub"; "Azərbaycan" deyə bir yer yoxdur. Bunlar (azərbaycanlılar) həqiqətən də İran azəriləridir. Azərbaycan yenidən İrana birləşdirilməlidir. İlhaq edilmədikcə, İranın başına xərçəng hüceyrəsi kimi bəla olacaqlar".

2020-ci il Vətən müharibəsində Azərbaycanın zəfər çalması səbəbindən xəyal qırıqlığına uğradığını güman etdiyimiz bu şəxs o vaxtdan ölkəmizə düşmən kəsilib, ermənilərlə isə qardaşlığı "tərənnüm edir". Bu azmış kimi, Azərbaycanın işğalından dəm vurur. Hələlik rəsmi Bakının İran parlamentinin üzvü Əbülfəzl Zohrevandın avantürist açıqlamasına reaksiyası Milli Məclisin deputatı, Müdafiə və Təhlükəsizlik Komitəsinin üzvü Qaya Məmmədovun şəxsində verilib. O, Əbülfəzl Zohrevandın Azərbaycana qarşı böhtan və təhdid ehtiva edən bəyanatının qətiyyətlə rədd edildiyini və sərt şəkildə qınandığını bildirib: "Zohrevandın bəyanatı dünyada kifayət qədər mürəkkəb proseslərin cərəyan etdiyi bir dövrdə Azərbaycan və İran hökumətlərinin regionda sabitliyi və ikitərəfli münasibətləri qarşılıqlı anlaşma şəraitində saxlamaq səylərinə qarşı yönəlmiş təxribatdır. Biz İran hökumətini və parlamentini Zohrevandın təxribatçı açıqlamasını pisləməyə və ona qarşı müvafiq tədbirlər görməyə çağırırıq".

Axı Azərbaycan ərazisindən heç vaxt İrana qarşı istifadə edilməyib və bununla bağlı böhtan dolu iddiaları İran Prezidenti Məsud Pezeşkian özü təkzib edib. SEPAH-ın komandanlığı isə rəsmi açıqlama yayaraq, Azərbaycandan İran ərazisinə doğru hər hansı fəaliyyətin qeydə alınmadığını bildirmişdi. Əksinə, Azərbaycan İranın ən ağır vaxtında bu ölkəyə humanitar yardım göndərən ilk ölkə olub. Rusiyanın humanitar yardımları da Azərbaycan ərazisindən İrana çatdırılıb. Bakını ABŞ və İsraillə müttəfiq olmaqda suçlayan bədnam deputatın nəzərinə onu da çatdıraq ki, bu gün Qərbin hərbçiləri Azərbaycanda deyil, onun "əziz qardaş", "İranın tarix boyu müttəfiqi" adlandırdığı Ermənistanda qərar tutublar.

İran parlamentinin Milli Təhlükəsizlik və Xarici Siyasət Komitəsinin üzvü eyni vaxtda ABŞ və İsraillə savaşan İrana yardım göndərməkdən çəkinməyən, siyasi iradə nümayiş etdirən Azərbaycanı "hədələməklə" düşmən dəyirmanına su tökdüyünü anlayırmı? Məhz indiki həssas dönəmdə ölkəmizi İranın düşməni, hətta potensial düşməni kimi qələmə verməyə çalışmaq, yumşalmaya doğru gedən siyasi münasibətləri yenidən gərginləşdirmək Tehranın milli maraqlarına nə dərəcədə uyğundur? Əgər Zohrevandın zərrə qədər diplomatik ağlı qalıbsa, əmmaməsini qabağına qoyub bu barədə düşünsün...

***İ.HƏSƏNQALA***
***XQ***

# Konstitusiya Məhkəməsi Palatasının iclası

**Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən bildirilib ki, iclasda Konstitusiyanın 130-cu maddəsinin VI hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, İnzibati Xətalar Məcəlləsinin 539.3-cü maddəsinin şərh edilməsinə dair Göyçay Rayon Məhkəməsinin müraciətinə baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Müraciətə mahiyyəti üzrə Konstitusiya Məhkəməsi Plenumunun iyunun 30-na təyin olunmuş iclasında baxılacaq.

***XQ***

# Rəqəmsal dövlət və təhlükəsizlik



## I MƏQALƏ

### Təhlükəsizliyin yeni anlamı

Son zamanlar dünya miqyasında dövlət, ölkə və cəmiyyətin təhlükəsizliyi ilə bağlı müzakirələr daha da intensivləşmişdir. Süni intellekt, rəqəmsallıq, kibertexnologiyalar cəmiyyət həyatına daha geniş müdaxilə etdikcə təhlükəsizlik məsələsi də fərqli məna çalarları alır. O cümlədən Azərbaycanda yeni texnologiyalar, rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizliklə bağlı müzakirələr meydanı olan konfranslar təşkil edilir. Aydın olur ki, dövlət səviyyəsində təhlükəsizliyin təmini müasir çağırışlar kontekstində sistemli olaraq nəzərdən keçirilir. Bu zaman təhlükəsizliyin enerji, kommunikativ, iqtisadi, tranzit, informasiya və digər aspektləri ilə milli təhlükəsizlik məsələsi arasında müasir tələblərə uyğun bağlantıların olması xüsusi önəm kəsb edir.

Ümumi olaraq məsələnin bu tərəfinə yanaşdıqda aydın olur ki, Azərbaycan rəhbərliyi yeni səviyyədə ölkənin, dövlətin və cəmiyyətin təhlükəsizliyini təmin etmənin ən səmərəli və müasir modelini tətbiq etməyə başlamışdır. Burada diqqətçəkən məqamlardan biri enerji, kommunikativ, informasiya və milli təhlükəsizliyin iqtisadi dayanıqlılıqla sıx əlaqədə qəbul edilməsidir.

Bu, çox mühüm məqamdır. Çünki yeni formulda təhlükəsizliyin bütün sferaları sintez halında iqtisadi dayanıqlılığın təmini məsələsində təmərküzləşir. Bu da özlüyündə rəqəmsallıq, süni intellekt və kibertexnologiyalar kimi müasir üsullara vahid bucaq altında baxmağı tələb edir. Həmin kontekstdə bəzi terminoloji izahlara ehtiyac vardır.

### Rəqəmsallıq

Rəqəmsallıq müasir rəqəmsal texnologiyaların cəmiyyətin, istehsal sahəsinin və dövlət idarəetməsinin bütün sferalarına tətqib edilməsidir. Burada əsas məqsəd bütün sahələrdə daha səmərəli, dayanıqlı və sürətli nəticələr almaqdan ibarətdir.

Bu termin əsasında "dövlətin rəqəmsallaşması" anlayışını alırlar. Dövlətin rəqəmsallaşması rəqəmsal texnologiyaların (məsələn, süni intellekt və kibertexnologiyalar, müxtəlif informasiya-kommunikativ texnologiyalar və s.) hakimiyyət orqanları və dövlət sektoruna tətbiqini nəzərdə tutur. Bunun sayəsində bürokratik aparat "elektron hökumətə" transformasiya olunur ki, idarətmə şəffaflaşır, vətəndaşlarla münasibətlər isə sürətli və manevsiz əsasda qurulur.

Deməli, rəqəmsallaşma faktiki olaraq müasir cəmiyyətin anatomiyasını, mövcudluq fəlsəfəsini və inkişaf özəlliklərini dəyişir. Bununla rəqəmsallaşma müasir dövlətin, ölkənin və cəmiyyətin mövcudatlığının atributlarından biri statusuna yüksəlir.

Bütün bunlar çağdaş müstəqil dövlət üçün şəffaflıqla təhlükəsizliyin qarşılıqlı əlaqəsində etibarlı rəqəmsal sistemlərin yaradılması məsələsini son dərəcə aktuallaşdırır. Təsadüfi deyildir ki, qlobal miqyasda dövlət idarəetməsinin rəqəmsallaşması istiqamətində ABŞ, Çin, Böyük Britaniya və Hindistan ön sıradadırlar.

Deməli, dövlətin rəqəmsal idarəedilməsi məsələsi konkret trend və texnologiya kimi dövlət identikliyinin aparıcı parametrlərindən biri halına gəlmişdir. Rəqəmsallıq sistemli, davamlı və perspektivli istiqamət olaraq hazırda hər bir müstəqil dövlətin həyatında prinsipial rol oynayır. Ayrıca, onun konkret ölkə və dövlət üçün xüsusi inkişaf dinamikası da mövcuddur. Azərbaycanla bağlı bu aspekt üzərində geniş dayanmaq lazımdır.

### Azərbaycanın inkişafı

Azərbaycanın inkişafının təsiri məsələsi artıq bir neçə ildir ki, milli səviyyəni aşaraq regional, regionlararası və qlobal miqyaslarda ciddi faktora çevrilmişdir. Ölkə faktiki olaraq Cənubi Qafqazın lideri kimi geniş geosiyasi məkanda sülh və əməkdaşlıq yaradan əsas güclərdən birinə çevrilmişdir. Bu baxımdan Azərbaycanın inkişafı region və qlobal miqyaslar üçün də strateji anlam almağa başlamışdır.

Əlbəttə, bu cür geniş və dərin dövlət identikliyinə malik olan ölkə olaraq Azərbaycan ən müasir inkişaf üsulları və texnologiyalardan istifadə etməlidir. Aparılan təhlil həmin aspektdə iki məqamın aktuallığını müəyyən etməyə imkan verir.

Birincisi, Azərbaycan sosial, iqtisadi, enerji və informasiya sferalarında regional lider kimi daha geniş geosiyasi məkanda da uğurlu olmalıdır. Bunun mərkəzində isə dayanıqlı və davamlı inkişafı bütün sferalar üzrə təmin etmək dayanır. Onun isə iki mühüm tərəfi mövcuddur – birincisi, Azərbaycanın sosial-iqtisadi və energetik inkişafının substantiv aspekti dəqiq təmin edilməlidir, ikincisi, Azərbaycan kommunikativ, informasiya və kibertəhlükəsizlik aspektlərində ən müasir bağlantıları qurmağa imkan verən yeni siyasi-diplomatik məharət göstərməlidir.

Deməli, söhbət faktiki olaraq regional və qlobal miqyaslarda təhlükəsizlik və dayanıqlı əməkdaşlıqdan gedir. Azərbaycanda təşkil edilən tədbirlərə məhz bu səviyyədə baxmaq lazımdır. Yəni əgər burada hər hansı elmi konfransda müzakirə obyekti kibertəhlükəsizlik və ya logistika ilə əlaqəlidirsə, onda regional, regionlararası və qlobal miqyaslarda mövcud olan faktorlarla sıx bağlılıq nəzərə alınmalıdır.

İkincisi, Azərbaycanın təhlükəsizlik və əməkdaşlıq platformalarına yeni bir statusu formalaşmışdır və onun inklüzivliyi ilə legitimliyini dünyanın ən güclü dövlətləri belə qəbul edirlər. Bu, o qədər əhəmiyyətli həqiqətdir ki, bütövlükdə Cənubi Qafqazın yeni geosiyasi, mədəni, iqtisadi, energetik, informasiya, infrastruktur və təhlükəsizlik arxitekturasının aparıcı faktorunu təşkil edir.

Dərk etməyimiz gərəkdir ki, bu cür, obrazlı desək, "status sıçrayışı", ümumiyyətlə Avrasiya məkanı üçün tarixi hadisədir. Bu prosesin bir-biri ilə sıx əlaqəli iki aspekti mövcuddur.

Birincisi, Azərbaycan milli inkişafda "platforma modeli"nə keçid edir.

İkincisi, Azərbaycan nəqliyyat-logistikada multimodal bağlantılar müstəvisinə keçid edir.

Əslində, bu iki aspektdən birini digərindən ayırmaq reallıqda səmərə verə bilməz. Ancaq geniş kontekstdə platforma modeli daha geniş anlama malikdir və ölkənin sistemli inkişaf modeli statusunda xüsusi əhəmiyyət daşıyır.

### Milli inkişafın platforma modeli

Platforma modeli müasir mərhələdə milli inkişafı təmin edən başlıca sferaların harmoniyasına anıl olmağı nəzərdə tutur. Bu, mürəkkəb məsələdir, çünki cəmiyyətin maddi, mənəvi, əxlaqi, sosial, psixoloji, təhlükəsizlik, informasiya, idarətmə və digər aspektlərinin inkişafına vahid sistemin tərkib hissələri kimi baxmağı tələb edir. Həmin hissələr arasında qarşılıqlı əlaqələr yekunda sinerji yaratmalıdır. Burada rəqəmsallıq, süni intellekt və kibertexnologiyaların rolu çox önəmlidir. Buna görə də elmi tədbirlərdə akademik səviyyədə platforma modelinin müxtəlif aspektlərinin təhlilinə ciddi diqqət yetirilir.

Milli inkişafın platforma modeli idarətmənin də bütün sferalar üzrə vahid rasional-məntiqi və rəqəmsal təməldə gətirilməsini tələb edir. Nəticədə bütövlükdə ölkə, dövlət və cəmiyyətin eyni yanaşma çərçivəsində, çoxlu sayda tərkib hissələrin sistemli qarşılıqlı təsiri fonunda inkişaf perspektivləri üzərində düşünmək imkanı yaranır.

Bütün bunların bir tərəfi rəqəmsallıq və süni intellekt məsələsinə bağlıdır. Məsələn, logistika və nəqldə elə rəqəmsal mühit formalaşdırmaq tələb olunur ki, orada sifarişçilər, ekspeditorlar, dəniz limanları, avtomobil yolları, dəmir yolları və aviakampaniyalar yüklərin problemsiz daşınmasını təmin etsinlər.

### Multimodal nəqliyyat bağlantıları

Hazırda strateqlər, siyasilər və iqtisadçılar Azərbaycanın postmünaqişə strategiyasında multimodal bağlantıların inkişafını çox mühüm faktor hesab edirlər. Şərq-Qərb, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) və Şimal-Cənub Dəhlizi burada xüsusi yer tutur. Bununla Azərbaycan Uzaq Şərq-Mərkəzi Asiya-Cənubi Qafqaz-Yaxın Şərq-Avropa kimi geniş geosiyasi məkanda müxtəlif nəqliyyat (transport bağlantı növləri) növlərinin bir-birini tamamlaması sayəsində əsas geosiyasi məkanlardan biri rolunu oynayır.

Bu kontekstdə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun fikirləri maraqlıdır: "2025-ci ilin avqustunda imzalanmış Vaşinqton Bəyannaməsi Beynəlxalq Sülh və Rifah naminə Tramp Yolu təşəbbüsünün əsasını qoyub. Bu təşəbbüs yalnız Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz multimodal əlaqəni təmin etməyəcək, eyni zamanda, dəmir yolları, avtomobil magistralları, enerji kəmərləri, elektrik və fiber-optik kabellər vasitəsilə Asiya ilə Avropanı birləşdirən yeni strateji bağlantı xətti yaradacaq".

Bu o deməkdir ki, Azərbaycanın xarici siyasətində Zəngəzur dəhlizi multimodal bağlantılar əsasında platforma modelinin mühüm tərkib hissələrindən biri kimi qəbul edilir. Belə alınır ki, multimodal bağlantılar milli inkişafın multimodal platformasının çox mühüm aspektidir. Həmin bağlantılar Azərbaycanın geniş bir geosiyasi məkanda müxtəlif xarakterli əlaqələrini vahid məqsəd ətrafında – ölkənin davamlı və dayanıqlı inkişafı ətrafında birləşdirə bilir. Bununla Azərbaycan Cənubi Qafqazda inkişafın substantiv aspekti ilə funksional və kommunikativ aspektlərinin harmoniyasına anıl olmuş dövlət statusuna yüksəlmiş olur. Cənubi Qafqazda bu vəzifəni Azərbaycandan başqa yerinə yetirən dövlət yoxdur.

Beləliklə, geosiyasi anlamı çox aktual olan bir nəticə hasil edə bilərik. Azərbaycan Cənubi Qafqazda əməkdaşlıq, kommunikativ çeşidlilik və təhlükəsizliyin bütün növlərini vahid rəqəmsal platformada birləşdirən dövlət səviyyəsinə yüksəlmişdir. Bu, yuxarıda dövlətin yeni statusu ilə bağlı vurğuladığımız məqamın mühüm əlamətlərindən biridir.

Əlbəttə, Azərbaycanın bu cür tərəqqisi avtomatik olaraq onun əməkdaşlıq və təhlükəsizlik platformalarına da yeni məna çalarları verir. Bu bağlılıqda meydana çıxan aktual suallardan biri "Azərbaycan rəqəmsal dövlətdirmi?" ola bilər. Ümumi təsnifə görə, rəqəmsal dövlət xüsusi idarəetmə modelidir. Burada başlıca məqam informasiya texnologiyalarının dövlət orqanlarının işləmə sisteminə daxil edilməsi ilə bağlıdır. Bu zaman, hakimiyyət, vətəndaş və biznes arasında qarşılıqlı əlaqələr ön sıraya çıxarılır. Həmin modelin məqsədi şəffaflığın artırılması, bürokratiyanın aradan qaldırılması və dövlət xidmətinin rahat onlayn-formata keçirilməsi ilə əlaqəlidir. Bu prosesin əsas prinsipləri kimi proaktivliyi, elektron identifikasiyanı, "Vahid pəncərə"ni müəyyən edirlər. Burada "dövlət platforma kimi" prinsipi də xüsusi əhəmiyyət kəsb edir.

Belə alınır ki, Azərbaycanın rəqəmsal dövlət kimi xarakteristikasına yuxarıda vurğulanan məqamların qarşılıqlı əlaqəsində baxmaq lazımdır. Onların nisbəti dövlətin rəqəmsal obrazını müəyyən edir.

Digər tərəfdən, məsələnin bu cür qoyuluşu müasir mərhələdə ölkənin, dövlətin və cəmiyyətin təhlükəsizliyini daha geniş anlamda dərk etməyin vacibliyini ifadə edir. Bu da özlüyündə yeni informasiya texnologiyaları, dezinformasiya "dalğaları" və kibertəhlükəsizlik kimi faktorların daha da aktuallaşdırdığı qənaətini almağa imkan verir.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**ABŞ erməniпərəstliyinin bədnam sifətinə çevrilmiş konqresmen Bred Şerman yenə "xoddanıb". O, köhnə şakərindən, daha doğrusu, mərəzindən əl çəkmək fikrində deyil. Görünür, bu məxluq ənənəvi xəstəliyi ilə vidalaşmaq istəmir. Başqa nə deyək, nə düşünək? Amma demək və düşünmək üçün əsasımız var. Çünki Şermanın fikri dəstək qazanıb. Dəstək barədə sonda söz açacağıq. Hələlik isə...**

# Bred Şermanın boş buraxılmış ipi

## *Yaxud ABŞ-dakı növbəti erməniпərəst şou barədə*



Deməli, konqresmen B.Şerman "Azərbaycandan bütün erməni əsirlərin dərhal azad edilməsini" tələb etmək məsələsini ortaya atıb. Bu barədə məlumatı ANCA – Amerika Erməni Milli Komitəsi yayıb. Yəni konqresmenin sərsəmləməsi barədə bilgi yayan bu qurumdur. Bilgi isə bundan ibarətdir ki, B.Şerman Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsindəki çıxışında "Azərbaycanda saxlanılan erməni əsirlər"lə yanaşı, ölkəmizdəki siyasi məhbusların da azad edilməsindən söz açıb. Görəsən, konqresmen siyasi məhbus dedikdə kimləri nəzərdə tutur? Sualımız ritorikdir.

Göründüyü kimi, stajlı erməniпərəst özünün sərsəm ritorikasını gücləndirmək üçün hər cür cəfəngiyyat danışır. Cəfəngiyyatdan söz düşmüşkən, onu da bildirək ki, Şerman ABŞ Konqresinin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsində "Diplomatik Xidmət haqqında" lanılan erməni girovlarının azad edilmələri ABŞ Prezidenti Donald Trampın Cənubi Qafqazda sülhə yönəlmiş səyləri ilə birbaşa əlaqəli imiş. Belə çıxır ki, Azərbaycan müharibə cinayətkarlarını, böyük günahları məhkəmə ilə sübuta yetirilmiş caniləri sərbəst buraxmalıdır ki, barış olsun.

Bakıda məhbus həyatı yaşayan ermənilər, heç bir halda, Azərbaycan-Ermənistan sülhünün predmeti ola bilməzlər və buna dair hansısa yazılı sənəd yoxdur. Ancaq durum Şerman kimi əbləhə çatmır və o manipulyasiyaya pafos tonu gətirir: "Prezident Tramp Cənubi Qafqazda davamlı sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirərkən, erməni hərbi əsirlərinin və siyasi məhbusların azad olunması bu yolda mühüm addım olardı".

Sonda əvvəldə anons etdiyimiz məqama qayıdaq. Söhbət B.Şermanın fikrinə dəstəkdən gedir. Bildirdik ki, bu erməniпərəst məxluqun sərsəmləməsi ABŞ



Qanunun müzakirəsi zamanı dilə gəlib və "Azərbaycanı bütün erməni hərbi əsirlərini və siyasi məhbusları dərhal və qeyd-şərtsiz azad etməyə çağıran" müddəanın məhz sözügedən qanuna əlavə olunmasını istəyib.

Təsəvvür edin, bir ölkənin qanununda başqa ölkədən tələb yer alır. Absurddur. Məsələyə mövcud prizmadan yanaşsaq, istər-istəməz sual yaranır: necə olur ki, Şerman kimi nəyi harada və necə dediyini bilməyən təmtiklər konqresmen olurlar? Amma təəccüblənmirik, çünki Birləşmiş Ştatlarda belə anormallıqlar adiləşib. Erməni təəssübünə əsaslanmış anormallıqların, əndazəsiz davranışların da heç bir sərhəd tanımadığı məlumdur.

B.Şerman, eyni zamanda, bildirib ki, Azərbaycanın hərbi əməliyyatları ermənilərin iki min il yaşadıqlarını iddia etdikləri Qarabağda 100 min nəfərlik əhalinin etnik təmizlənməyə məruz qalması reallığını doğurub. Necə olur ki, bir ərazidə 2 min il yaşayan toplumun sayı 100 mindir. Axı sadə məntiq var. Amma nə etmək olar ki, məntiq və abır-həya şermanlar üçün yad təmayüldür.

Məlumdur ki, dünyanın bir çox bölgələrində Cənubi Qafqazda sülhün qərarlaşmasını istəməyən qüvvələr var. Onlar hər vəchlə azərbaycanlılarla ermənilər arasında barış mühitinin mümkünsüzlüyünü əsaslandırmağa çalışır və düşüncələrini sübuta yetirmək üçün ən müxtəlif üsullara baş vururlar. Şerman bəlolərinin ən primitividir. O, çıxışında erməni əsirlərin edam edilməsinə dair internetdə yayılmış görüntüləri xatırladıb. Konqresmenin bu yolla Azərbaycanın qəddar simasını canlandırmağa çalışdığı, həmçinin dünyadakı antisülh təşəbbüslərinə dəstək verdiyi məlumdur. Heç şübhəsiz, onu qızışdırıb ortaya atan ANCA-dır. İndiyədək bu qurumun Azərbaycan-Ermənistan barışına zidd tezisləri dəfələrlə qabartdığının şahidiyik.

...B.Şerman öz primitivliyinə qlobal don geydirməyə də çalışaraq manipulyasiya yolu tutub. Manipulyasiyanın isə konkret təqdimat forması var. Guya Bakıda saxKonqresinin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsindəki müzakirədə qeydə alınıb. Sözügedən komitənin sədri, respublikaçı Brayn Mast isə Şermanın "Diplomatik Xidmət haqqında" Qanuna təklif etdiyi bədnam düzəlişi dəstəkləyib. Deməli, düzəliş üzrə adbaad səsvermə keçirilməlidir. Əgər səsvermə zamanı düzəliş qəbul olunarsa, qanun layihəsi Nümayəndələr Palatasının müzakirəsinə təqdim ediləcək.

Yeri gəlmişkən, ANCA ABŞ Konqresinin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin dəstəyini alqışlayıb. "Azərbaycanın erməni girovlarını qanunsuz saxlaması insan hüquqları sahəsində qətiyyətli Konqres müdaxiləsi tələb edən böhrandır. Biz sədr Mastın Şermanın düzəlişini dəstəkləməsini və Komitənin bu girovların dərhal və qeyd-şərtsiz azad edilməli olduğu barədə qəti ikipartiyalı mövqeyini alqışlayırıq", – deyə qurumun icraçı direktoru Aram Hamparyan bildirib.

Əlbəttə, kimin nəyi bildirməsindən, eləcə də ABŞ Konqresinin Nümayəndələri Palatasının bir komitəsində çıxarılmış siyasi oyunbazlıqdan asılı olmayaraq, Bakıdakı müharibə cinayətkarları olan ermənilər gün üzü görməyəcək, dəmir barmaqlıqlar arasında cəzalarını çəkəcəklər. Başlıca məqam Birləşmiş Ştatların ali qanunverici orqanı səviyyəsində bu oyunbazlıqlar üçün meydanın tanınmasındadır. Hərçənd, bilirik ki, ölkənin sabiq administrasiyasının dövrü ilə müqayisədə hazırda bu kimi hallar tamamilə azalıb.

Amma azalma kifayət deyil. Çünki Azərbaycan–Ermənistan sülhü həssas mərhələdən keçir. O mərhələdən ki, ani ehtiyatsızlıq həm də ABŞ-ın böyük regional təşəbbüsünün iflası ilə nəticələnə bilər. Güman edirik ki, bu məqamı Birləşmiş Ştatlarda nəzərə alacaq və şermanların ipini boş buraxmayacaqlar. Axı milçək bir şey olmasa da, könül bulandırır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Müstəqillik Azərbaycanla Belarusun dostluğunu və tərəfdaşlığını daha da möhkəmləndirmişdir



*Müsahibimiz Belarus Respublikasının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Dmitri Pineviçdir*

***– Cənab səfir, 11 iyun Azərbaycanla Belarus arasında diplomatik münasibətlərin qurulmasının 33-cü ildönümü, 3 iyul isə Belarus Respublikasının Müstəqillik Günüdür. Bu reallıqlar fonunda ölkələrimiz arasında hazırkı əməkdaşlığı necə qiymətləndirirsiniz?***

– Belarus ilə dost Azərbaycan arasında qarşılıqlı fəaliyyət dinamik şəkildə inkişaf edir, əməkdaşlığımız isə strateji tərəfdaşlıq xarakteri daşıyır. Bir-birinə qardaş olan xalqlarımızın çoxillik dostluğu və ümumi mənəvi dəyərlər bu münasibətlərin əsasında etibarlı təməl kimi dayanır.

Əldə olunmuş siyasi dialoqun səviyyəsi, konstruktiv yanaşma və qarşılıqlı hörmət müdrik liderlərimiz – Prezident Aleksandr Qriqoryeviç və Prezident İlham Heydər oğlunun böyük xidmətidir. Bizim ümumi "xəzinəmizdə" artıq ən yüksək səviyyədə 12 səfər var. Bunlara Belarus Prezidentinin Azərbaycana 7 səfəri, o cümlədən onun 2024-cü ildə baş tutmuş və yaxın dövr üçün ikitərəfli qarşılıqlı fəaliyyətin prioritet istiqamətlərini müəyyən etmiş dövlət səfəri daxildir.

Belarusun səfiri kimi sizin oxucularınız üçün məmnuniyyətlə vurğulamaq istərdim ki, A.Q.Lukaşenko türkdilli olmayan dövlətlərin prezidentləri arasında Qarabağın incisi olan Şuşa şəhərinə səfər edən ilk prezidentdir. Ölkələrimizin hökumətləri, nazirlik və idarələri fəal və səmərəli şəkildə qarşılıqlı fəaliyyət göstərirlər. Baş nazirlər, parlament sədrləri son illərdə rəsmi səfər mübadiləsi həyata keçirmişlər.

Fəal parlamentlərarası dialoq qurulmuşdur, Azərbaycanın Milli Məclisində və Belarusun Milli Məclisində dostluq üzrə işçi qrupları fəaliyyət göstərir. Belaruslu deputat və senatorlar müxtəlif forumlarda, habelə prezident və parlament seçkilərində müşahidəçi qismində iştirak etmək üçün Azərbaycana səfər etmişlər. Əlavə olaraq qeyd edim ki, dövlətlərimizin, hökumətlərimizin, parlamentlərimizin və Xarici İşlər nazirliklərimizin rəhbərləri müxtəlif beynəlxalq platformalarda da görüşürlər.

***– Beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyət və bir-birinə dəstək barədə nə deyə bilərsiniz?***

– Belarus nümayəndə heyəti qlobal iqlim sammitində, Azərbaycanın uğurlu sədrliyi dövründə Qoşulmama Hərəkatının forumlarında, habelə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 və Azərbaycan Konstitusiyasının 30 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün Bakıya gəlmişlər.

Üç həftə əvvəl isə Belarus Milli Məclisinin Nümayəndələr Palatası Sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti Bakıda BMT-nin Məskunlaşma Proqramının Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasında iştirak etdi. Ənənəvi olaraq konstruktiv məcrada iki ölkənin BMT, UNESCO, MAQATE, ECOSOC, Parlamentlərarası İttifaqı, Beynəlxalq Mülki Müdafiə Təşkilatı və digər qurumlar və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyəti, bir-birinə dəstəyi inkişaf edir.

Nümunə olaraq deyim ki, ötən il Azərbaycan Belarus Parlamentinin Asiya Parlament Assambleyasında müşahidəçi statusu almasına kömək göstərdi, Belarus isə Dünya Turizm Təşkilatının forumunda Azərbaycanın namizədliyini dəstəklədi. Həmçinin tərəflər Ümumdünya Poçt İttifaqının orqanlarına seçkilərdə qarşılıqlı dəstək göstərdilər. Artıq bu il Belarus İnsan Hüquqları Komitəsinə keçirilmiş seçkilərdə Azərbaycanın namizədinə səs verdi, Beynəlxalq Əmək Təşkilatının Konfransı çərçivəsində isə Azərbaycandan dəstək aldı.

***– Cənab səfir, son dövrlər Azərbaycan–Belarus münasibətlərinin inkişafının əsas vektoru olan ticari-iqtisadi əməkdaşlıqda müsbət dinamika müşahidə edirik.***

– Bəli, Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında ticari-iqtisadi əlaqələr sürətlə və hərtərəfli inkişaf edir. Ən yüksək səviyyədə ikitərəfli təmasların güclü intensivliyi dövlət başçıları və hökumət rəhbərlərimiz tərəfindən qarşıya qoyulmuş genişmiqyaslı vəzifələrin praktik həyata keçirilməsi üzrə Belarus-Azərbaycan Hökumətlərarası Komissiyasının işinə uyğun temp vermiş olur.

Yeri gəlmişkən, ötən həftə Minskdə Hökumətlərarası Komissiyanın baş nazirlərin müavinləri səviyyəsində 16-cı iclası və nümayəndəli biznes-forum keçirildi, paytaxtımıza Azərbaycan nümayəndə heyəti gəlmişdi. Fürsətdən istifadə edərək, "BELAQRO" beynəlxalq sərgisində imkanlarımızı və təkliflərimizi də nümayiş etdirdik. Komissiyanın iclası zamanı iki ölkənin dövlət orqanları rəhbərlərinin iştirakı ilə ikitərəfli əməkdaşlığın geniş gündəliyini konstruktiv məcrada müzakirə etdik. Prezidentlərin və baş nazirlərin razılaşmalarının həyata keçirilməsi məsələlərinə xüsusi diqqət yetirildi.

Biz bərabərhüquqlu və qarşılıqlı faydalı şərtlər əsasında ikitərəfli ticarətin genişləndirilməsinə və şaxələndirilməsinə istiqamətlənmişik. İqtisadi tərəfdaşlığın prioritetləri maşınqayırma, kənd təsərrüfatı və ərzaq, ağac emalı, əczaçılıq və digər sahələrdə, eləcə də investisiya əməkdaşlığıdır. Biz müxtəlif sahələrdə - maşınqayırma, tikinti, kənd təsərrüfatı, kimya sənayesi və digər sahələrdə istehsal kooperasiyasının ciddi şəkildə genişləndirilməsi üzərində işləyirik.

Yaxın perspektivdə birgə layihələrimiz mal və xidmətlərin qarşılıqlı ticarətinin artımının əsas aparıcı qüvvəsinə çevriləcək. Birgə layihələrin ən böyüyü Gəncə Avtomobil Zavodunda Belarus texnikasının yığılmasıdır. 2007-ci ildən etibarən avtomobil zavodunun bazasında, təxminən, 14 min Belarus traktoru yığılmışdır. Həmçinin taxılyığan kombaynlar, yük avtomobilləri, elektrobuslar, yanğın-xilasetmə texnikası istehsal edilmişdir.

Bu yaxınlarda Bakıda "Vertus" şirkətinin bazasında Belarus-Azərbaycan liftlərinin istehsal sahəsi açılmışdır. Müxtəlif növ məişət texnikasının yığılmasının təşkili də daxil olmaqla bir sıra digər kooperasiya layihələri üzərində də iş gedir. Hazırda Azərbaycanda yığılan Belarus texnikasının nomenklaturasının daha da genişləndirilməsi imkanlarını nəzərdən keçiririk. Məsələn, yaxın vaxtlarda MAZ şassisi bazasında müxtəlif kommunal texnikanın birgə istehsalı üzrə layihəyə start veriləcək. Səyyar tibbi komplekslərin və kənd yaşayış məntəqələri, o cümlədən Azərbaycanın Qarabağ bölgəsində dirçəldilən yaşayış məntəqələri üçün ticarət pavilyonlarının birgə yığılmasının təşkili də perspektivlər vəd edir. Maşınqayırma sahəsində birgə istehsallarla yanaşı, kimya və əczaçılıq sahələrində də layihələr üzərində iş aparılır.

***– Ölkələrimizin dayanıqlı inkişafı üçün möhkəm zəmin yaradan humanitar sahədə qarşılıqlı fəaliyyət barədə fikirləriniz də oxucular üçün maraqlı olar***

– Humanitar sahədə ikitərəfli əməkdaşlıq yüksək səviyyədədir. Mədəniyyət, təhsil, elm, gənclər arasında əməkdaşlıq, idman və turizm, səhiyyə sahələrində müxtəlif formatlarda səfərlər, ikitərəfli forumlar təşkil olunur. Onların sırasında mədəniyyət günləri, sərgilər, konfranslar, film nümayişləri, dəyirmi masalar vardır.

Son dövrdə mədəniyyət müəssisələri – filarmoniyalar, muzeylər, teatrlar, musiqi akademiyaları, rəssamlar ittifaqları arasında əməkdaşlığa dair yeni sazişlər imzalanıb. İki il öncə Bakı tamaşaçıları Belarusun Azərbaycanda keçirilən Mədəniyyət Günlərinə gəlmiş Belarus yaradıcı kollektivlərini və ifaçılarını səmimi qarşıladılar. İndi isə artıq Minsk sakinləri Azərbaycan Mədəniyyət Günlərini gözləyirlər, onları Belarusda qəbul etməkdən məmnun olarıq.

Belarus və Azərbaycanın təhsil müəssisələri arasında 70-dən çox birbaşa əməkdaşlıq müqaviləsi qüvvədədir. Bakı və Minskdə Belarus və Azərbaycan dilləri, mədəniyyətləri üzrə universitet mərkəzləri yaradılmışdır. İlk belə mərkəz isə Belarus Prezidentinin Azərbaycana səfəri çərçivəsində 2010-cu ildə Bakı Slavyan Universitetinin nəzdində açılmışdır. Belarus Azərbaycanın peşə təhsili sisteminin modernləşdirilməsinə məsləhət dəstəyi göstərmiş, sistemli qarşılıqlı fəaliyyət qurulmuşdur.

Elmi-texniki əməkdaşlıq çərçivəsində ötən il 4 birgə layihə həyata keçirilmişdir. Əminəm ki, elm və texnologiyalar sahəsində sıx əməkdaşlıq iqtisadi artıma töhfə verəcək və elmi tərəqqini stimullaşdıracaq, ölkələrimizin dayanıqlı inkişafı üçün möhkəm əsas yaradacaqdır.

Gənclər forumları keçirilmiş, Belarusdakı Respublika Gənclər Mərkəzi ilə Bakı Gənclər Mərkəzi, eləcə də regionlardakı gənclər evləri arasında qarşılıqlı anlaşma memorandumu imzalanmışdır. Birgə layihə və təşəbbüslərin mübadiləsi artıq reallaşdırılır. Gənclər bizim gələcəyimizdir, buna görə də belə əməkdaşlığı mühüm və perspektivli hesab edirik.

İdman sahəsində milli komandalar və federasiyalar səviyyəsində ikitərəfli əlaqələr inkişaf edir. Gəncədə keçirilən MDB ölkələrinin III Oyunlarında Belarus 240 idmançı ilə təmsil olunmuşdur. İdmançılarımızın idman yarışlarında fəal iştirakı əməkdaşlıq üçün gözəl nümunədir. Belarus və Azərbaycan üçün turizm ən mühüm istiqamətlərdən biridir. Bu, həm ölkələrin vizit kartı, həm də iqtisadiyyatdır. Səhiyyə sahəsində də əməkdaşlığı gücləndiririk. Burada perspektivli istiqamətlərdən transplantologiya, travmatologiya və onkologiyanı qeyd etmək olar. Ümumilikdə, biz xalq diplomatiyasının roluna böyük əhəmiyyət veririk. Buna görə də mədəni əlaqələri, idman, turizm, elm və gənclər vasitəsilə təmasları bundan sonra daha da genişləndirməliyik.

Vurğulamaq istərdim ki, Belarus Respublikasında Belarus torpağının alman-faşist işğalçılarından azad edilməsində iştirak etmiş azərbaycanlı qəhrəmanların xatirəsi uca tutulur. Onların arasında, ilk növbədə, Həzi Aslanovun və Nəcəfqulu Rəfiyevin adlarını çəkmək istərdim. Onu da qeyd edim ki, Azərbaycan nümayəndələri Minskdə İkinci Dünya müharibəsində Qələbəmizin 80 illiyinə həsr olunmuş tədbirlərə qatılmışlar. İyunun 21-22-də Azərbaycan Milli Məclisinin nümayəndə heyəti Brestdə keçiriləcək "Böyük irs – ortaq gələcək" beynəlxalq forumunda da iştirak edəcək.

***– Cənab səfir, Sizi qarşıdan gələn milli bayramlar münasibətilə təbrik edirik.***

– Sağ olun.

***Müsahibəni apardı:***
***Mehparə ƏLİYEVA***
***XQ***

# Nevroloqlarımız İstanbul konfransında

**Azərbaycan Tibb Universitetinin nevrologiya kafedrasının əməkdaşları Türk Nevroloji Dərnəyinin İstanbulda təşkil etdiyi "I Multipl skleroz" mövzusunda konfransda iştirak ediblər.**

Elmi məclisdə dağınıq sklerozun patogenezi, neyroradioloji yanaşmalar, xəstəliyin modifikasiyaedici müalicə üsulları, biomarkerlər və fərdiləşdirilmiş tibb istiqamətində aparılan son tədqiqatlar təqdim olunub. Müxtəlif ölkələrdən olan alimlər, nevroloqlar və tədqiqatçılar öz elmi nəticələrini bölüşüblər, yeni əməkdaşlıq imkanları müzakirə olunub.

Konqres çərçivəsində Azərbaycan Tibb Universiteti nevrologiya kafedrasının əməkdaşı, tibb üzrə fəlsəfə doktoru Fatimə Əliyevanın "Dağınıq skleroz diaqnostikasında istifadə olunan süni intellekt texnologiyaları" mövzusunda məruzəsi də dinlənilib.

*

**Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) icraçı direktoru Fariz Cəfərov Türkiyəyə səfəri çərçivəsində Ankarada keçirilən "AI Tomorrow Summit 2026" toplantısında təqdimatla çıxış edib.**

Soydaşımız iştirakçılara "Qlobal idarəetmə: ortaq inkişaf yolunun müəyyənləşdirilməsi" adlı panel sessiyada spiker qismində çıxış edərək Azərbaycanın süni intellekt və rəqəmsal iqtisadiyyat sahələrində həyata keçirdiyi təşəbbüslər, strateji prioritetlər və bu istiqamətlərdə görülən işlər barədə geniş məlumat verib.




Səfər çərçivəsində AİPA və MEXT Texnologiya Mərkəzinin rəhbərliyi ilə görüşlər keçirilib.

Tərəflər cari layihələr üzrə növbəti addımlar, o cümlədən MEXT ilə Yeni Nəsil Texnologiyalar Mərkəzi və müəssisələrin rəqəmsal transformasiyası istiqamətində əməkdaşlıq, AİPA ilə süni intellekt sahəsində tərəfdaşlığın genişləndirilməsi, eləcə də Türkiyə və Azərbaycan şirkətləri üçün təqdimat turlarının təşkili kimi məsələləri müzakirə ediblər.

***XQ***

# Ankarada Azərbaycan təqdimatları



**Türkiyənin Ankara şəhərində, Qazi Universitetinin rektorluq binasında Bakıda keçiriləcək VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təqdimatı və panel müzakirə keçirilib.**

Azərbaycanın Türkiyədəki səfirliyinin nəzdində Azərbaycan Mədəniyyət Mərkəzi və Qazi Universitetinin birgə təşkil etdiyi məclisdə diplomatlar, mədəniyyət xadimləri, tanınmış ziyalılar, ictimaiyyət nümayəndələri, ali təhsil ocağının müəllim və tələbələri iştirak ediblər.

Toplantı ümummilli lider Heydər Əliyevin mədəniyyət siyasətinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" videomaterialının nümayişi ilə başlayıb.

Məclisi giriş sözü ilə açan Qazi Universitetinin prorektoru Selami Candan əsrlərdən bəri fərqli dinlərə və inanclara mənsub insanların qarşılıqlı anlaşma şəraitində yaşadığı Anadolu və Azərbaycanda multikulturalizm ənənələrinin xalqların mənəvi zənginləşməsinə əhəmiyyətli təsir göstərdiyini vurğulayıb.

Daha sonra tədbirin panel hissəsi keçirilib.

"Azərbaycan–mədəniyyətlərarası dialoqa töhfələri, Bakı prosesi" başlıqlı təqdimatla çıxış edən Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov iştirakçılara Prezident İlham Əliyevin 2008-ci ildə irəli sürdüyü mədəniyyətlərarası dialoqa dair "Bakı prosesi"nin tərkib hissəsi olan forumun əhəmiyyəti haqqında geniş məlumat verib.

***XQ***

# "Ədəbi irsimiz - ədəbi gəncliyimiz"



**Bakıda Milli QHT Forumunun qərargahında Dünya Gənc Türk Yazarlar Birliyinin (DGTYB) Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin dəstəyi ilə həyata keçirdiyi "Ədəbi irsimiz – ədəbi gəncliyimiz" layihəsi çərçivəsində nəşr olunan eyniadlı kitabın növbəti təqdimat mərasimi və yekun görüşü olub.**

DGTYB-nin rəhbəri İntiqam Yaşar müəllifi olduğu layihə haqqında məlumat verərək, onun məqsədindən, gənc ədiblərin yaradıcılığına müsbət təsirlərindən bəhs edib. Layihənin eksperti, birliyin Məsləhət Şurasının başçısı, şair-publisist Əkbər Qoşalı da öz növbəsində bu təşəbbüsün önəmli missiyaya xidmət etdiyini, ədəbiyyatdakı nəsillərarası körpünün sağlam təməllər üzərində dayanmasına rəvac verdiyini diqqətə çatdırıb.

Görüşdə Türk Ədəbiyyatı Vəqfi başqanı, şair Serhat Kabaklı çıxış edərək Azərbaycan–Türkiyə ədəbi-mədəni əlaqələrinin inkişafında DGTYB-nin xidmətlərini diqqətə çatdırıb. Yazıçı Məmməd Oruc, AMEA-nın əməkdaşı Aynur Aydınqızı, yazarlar Turan İbrahimov, Qulu Ağsəs, Vüqar Qədirov, İlqar Türkoğlu, Nadir Vəlişzadə, Ayna Səs, Rövşən Hüseynov, Rəfail Tağızadə, Şahin Ülvi, Akəm Xaqan, Gəray Göyyurd və başqaları belə layihələrin türk xalqları arasında ədəbi-mədəni yaxınlaşmaya xidmət etdiyini söyləyiblər.

Kitabda yaradıcılıq nümunələri çap olunmuş gənc yazarlardan Səddam Laçın, Şahanə Müşfiq, Əli Çağla, Banu Muharrem, Yeqzar Cəfərli və b. şeirlərini səsləndiriblər. Mərasimin sonunda qonaqlara və layihə iştirakçılarına Dünya Gənc Türk Yazarlar Birliyinin təltifləri təqdim olunub.

***Ə.ƏLİYEV***
***XQ***

# Ulu öndərin xilaskarlıq missiyası böhranlı Gəncədən başlamışdı

**Azərbaycan xalqının əbədi yaddaşına həkk olunan və tarixinə qızıl hərflərlə yazılan 1993-cü il iyunun 15-i Türk dünyasının fenomeni, ulu öndər Heydər Əliyevin ölkəmizin dərin ictimai-siyasi və iqtisadi böhrandan çıxarılmasında, vətəndaş müharibəsinin qarşısının alınmasında, müstəqilliyimizin qorunub möhkəmləndirilməsində müstəsna xidməti kimi qiymətləndirilir. Vətənini, xalqını sevən, həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş, ölüm-dirim mübarizəsinin tarixidir.**



Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan Heydər Əliyevin qətiyyəti, cəsarəti ilə 1993-cü ilin 15 iyun günü xalqımızın mübarizələrlə dolu yeni tarixinə yeni eranın başlanğıcı kimi daxil oldu. Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışı Azərbaycanın XXI əsrə hüquqi, demokratik dövlət kimi daxil olmasına əsaslı təminat yaratdı.

1991-ci ildə Azərbaycanda olduqca təhlükəli bir vəziyyət yaranmışdı. Ölkədə müharibə gedirdi, idarəçilik yox dərəcəsində idi. Respublikada xaos, anarxiya hökm sürürdü. İqtisadiyyat bərbad hala düşmüşdü, Heydər Əliyevin qurub-yaratdığı iqtisadi potensial amansızcasına dağıdılırdı.

Nicat yolunu Heydər Əliyevin qayıdışında görən xalq onu təkidlə hakimiyyətə çağırırdı, amma şəxsi ambisiyalarını milli maraqlardan üstün tutan hakimiyyət hərisləri var gücləri ilə buna mane olur, silahlı dəstələr yaradırdılar. Ölkəmizin müstəqilliyinin və ərazi bütövlüyünün ciddi təhlükə qarşısında qaldığı anda Heydər Əliyevə müraciət edən xalq inanırdı ki, Azərbaycanı düşdüyü bu ağır vəziyyətdən, sosial-iqtisadi, hərbi-siyasi böhrandan yalnız Heydər Əliyev xilas edə, azad inkişaf yoluna çıxara bilər. Məhz, bu baxımdan xalq israrla liderini hakimiyyətə gəlməyə, müstəqil Azərbaycan dövlətini xilas etməyə dəvət etdi. Xalqın qəzəbindən qorxan hökumət də Heydər Əliyevin hakimiyyətə gəlməsini tələb edən ziyalıların səsinə səs verdi.

Xilaskarlıq missiyasını öz üzərinə götürən dahi şəxsiyyət həyatını təhlükə altında qoyaraq Gəncəyə gəldi. Hadisələrin daha faciəli nəticələrə gətirib çıxarması üçün öz ağsaqqal sözünü dedi. İndi inamla söyləyə bilərik ki, Heydər Əliyevin Gəncəyə səfəri vətəndaş qarşıdurmasının genişlənməsinin qarşısını aldı. O,qətiyyətlə, inamla bəyan etdi: "Azərbaycan dövlətinin müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olcaqdır, dönməz olacaqdır və Azərbaycanın bugünkü gənc nəsli gələcək Azərbaycanı daha da yüksəklərə qaldıracaqdır".

Dahi lider bütün varlığı ilə sevdiyi Azərbaycanın müstəqilliyini möhkəmləndirmək, inkişaf etmiş, sivil dünya dövlətləri cərgəsinə çıxarmaq, arzusunda olduğu yeni Azərbaycanın reallaşması naminə var gücü ilə çalışdı və uğurlar qazandı. "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" - deyən Ulu öndər 2001-ci ilin noyabrında Bakıda bütün Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsinə nail oldu.

Tezliklə cəmiyyət və dövlət həyatının bütün sahələrində köklü islahatlar aparılmağa başlandı. Bu islahatların həyata keçirilməsinin əsası "Heydər Əliyev Konstitusiyası" kimi tarixə düşən, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunan ilk milli konstitusiyamızla qoyuldu. Əsas Qanunun müddəalarının həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsiplərinin möhkəmləndirilməsi, hüquqi islahatların ardıcıl və keyfiyyətlə aparılması üçün Hüquqi İslahat Komissiyası yaradıldı.

Hüquqi sahədə mütəşəkkil islahatların aparılmasına xüsusi əhəmiyyət verən Ümummilli lider Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürdü, qısa müddət ərzində hüquq sisteminin təməlini təşkil edən mühüm qanun və məcəllələr qəbul edildi, məhkəmə və hüquq-mühafizə orqanlarının funksiya və səlahiyyətlərinə yenidən baxıldı. Fəxrlə deyə bilərik ali məqsədi insan haqlarının müdafiəsinə xidmət edən Azərbaycanın yeni hüquq sisteminin də müəllifi məhz ümummilli lider Heydər Əliyevdir.

Müstəqil Azərbaycan dövləti bütün həyatı və fəaliyyəti tariximizə qızıl hərflərlə həkk olunmuş Heydər Əliyevin şah əsəridir. Əsrlər boyu yaşayacaq möhtəşəm abidədir. Bəli, Ulu öndər bütün ömrünü doğma xalqına həsr etmişdi. 1993-cü il iyunun 15-də xalqın tələbi ilə Ali Sovetin sədri seçildiyi gün elan etdiyi kimi, ömrünün qalan hissəsini Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr etdi, xalqın qəlbində, tarixində öz əbədi abidəsini ucaltdı.

Ulu öndər Heydər Əliyevin siyasətdə, iqtisadiyyatda və mədəniyyətdə qoyduğu izlər heç vaxt silinməyəcək. Onun Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də müstəqil dövlətimizin ardıcıl inkişafı üçün zəmin yaratmasıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkə rəhbərliyinə gəldiyi ilk gündən dahi şəxsiyyət Heydər Əliyevin siyasi kursunu qəti və prinsipial mövqeyi ilə davam etdirməklə xalqın böyük ehtiramını qazanmış, qısa müddət ərzində əhalinin rifahının yaxşılaşmasında müstəsna rol oynayan tədbirlər həyata keçirilmiş, hər bir vətəndaşın hüququna hörmətlə yanaşılması, ona qayğı göstərilməsi bütün dövlət strukturlarının qarşısında ali məqsəd kimi qoyulmuşdur.

Bu gün Azərbaycan xalqı unudulmaz rəhbərin xoşbəxt gələcəyimiz üçün açdığı yolla qətiyyətlə addımlayır. Ümummilli liderimizin qurub-yaratdığı azad, müstəqil, demokratik Azərbaycan onun müəyyən etdiyi strateji xətlə inkişafını davam etdirməkdədir. Bu xətti əzmlə, dəyanətlə irəli aparan isə Ulu öndərin layiqli varisi dünya miqyasında böyük hörmətə, nüfuza malik Prezident İlham Əliyevdir. Dövlətimiz və xalqımızın həyatı üçün ən mühüm əhəmiyyət kəsb edən prinsipial məsələlərdə Prezident İlham Əliyev möhkəm iradə və qətiyyətli mövqe nümayiş etdirir, Azərbaycan dövlətinin qüdrətini, sarsılmaz təmələ malik olduğunu sübut edir.

Düşünülmüş, uzaqgörən daxili və xarici siyasət, xalqın firavan gələcəyinin təminatına hesablanmış praqmatik siyasi strategiya sayəsində Azərbaycan regionun lider dövlətinə çevrilmiş, ölkəmizin nüfuzu daha da artmışdır. Prezident İlham Əliyevin sərištəli idarəetmə qabiliyyətinin nəticəsidir ki, indi respublikamız iqtisadi inkişaf tempinə görə dünyanın ən qabaqcıl ölkələrindən biridir.

Milli Qurtuluş Günü Azərbaycanın indiki reallıqlarının və xoşbəxt gələcəyinin rəhnidir. Ulu öndərin işləyib hazırladığı müstəqil dövlət quruculuğu konsepsiyası müasir Azərbaycan dövlətinin uğurlarının bünövrəsində dayanaraq gələcək inkişafın, misli görünməmiş uğurların əsasını qoymuşdur. Azərbaycanın bütün dünya tərəfindən etiraf olunan dinamik inkişafı, ilk növbədə, vətəndaşlarımızın maddi rifah halının yaxşılaşmasına xidmət edir, ölkəmiz sürətli tərəqqi yolu ilə inamla addımlayır. Bu irəliləyişin, bu inkişafın əsası məhz 1993-cü il iyunun 15-də, ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdığı gün qoyulmuşdur.

*Zabit XƏLİLOV,*
*Gəncə Ağsaqqallar Şurası sədrinin 1-ci müavini*

# 887 yaşlı Göygölün 50 yaşlı Xanbulan qardaşı



**"Lənkəranın Göygölü" adlandırılan Xanbulançayda olmusunuzmu? Dağların günəşə açılan aynasıdır bu yerlər. Bir tərəfi Talış dağlarına söykənib, digər tərəfində Lənkərançay axır, şırhaşırla suyunu nəhəng dəryaçaya ötürür.**

Günəşin iliq şüaları ayna sular üzərinə səpələnib. Bir dəstə quş başımızın üstündə qanad açaraq üzüyuxarı qalxır. Yağışdan qabaq həmişə belə olur, quşlar aşağıdan dövrə vuranda yerli sakinlər bilirlər ki, bir azdan şır-şır başlayacaq. Belə də olur. Bir baxın, göyün üzü necə də tutulub?!.. Qəribədir, bir-birini qovan buludlar elə bil dəryaçanın üstündə asılı qalıb və həmin andaca özünü silkələyir. İldırım adəti üzrə "göz" vurur, beləcə ətrafın lal sükutu pozulur.

**O ki, qaldı Xanbulanın Göygölə oxşadılmasına, onun tarixçəsi belədir:**

Göygölü böyük Nizami Gəncəvi dünyaya göz açmamışdan 2 il əvvəl Kəpəz dağını parçalayan zəlzələ yaradıb. Xanbulan dəryaçasının Talış dağlarında ərsəyə gəlməsi isə bundan 837 il sonra ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Ötən əsrin 50-ci illərindən sonra Lənkəranda su və kanalizasiya xətlərinin hansı vəziyyətdə olması heç kəs üçün sirr deyildi. Daşqınların sayı-hesabı olmurdu. Bir də baxıb görürdün ki, su haradansa özünə yol tapıb, dağların sinəsindən axan sel burula-burula qarşısına çıxan hər şeyi qabağına qatıb.

1976-cı ildə Xanbulançay dəryaçasının nəhəng bəndi istifadəyə veriləndə insanlar rahat nəfəs ala bildilər. Sututumu 52 milyon kubmetr, suvarma kanallarının uzunluğu 40 kilometr olan nəhəng dəryaça 22 min hektar sahəni suvarmağa imkan verirdi. İllər keçəndən sonra Xanbulançay su təsərrüfatının müasirləşdirilməsinə, əhalinin fasiləsiz və keyfiyyətli içməli su ilə təminatına yenidən ehtiyac yarandı. 2011-ci ildə yeni xəttin çəkilişinə start verildi, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti görülən işləri cədvələ uyğun 2014-cü ildə başa çatdıra bildi.

Xanbulançayda olmamısınızsa, onda tələsin, axı, özgə aləm var burda. Hər şey gözəldir Xanbulançayda. Ləpələr piçıldaşa-piçıldaşa, zümzümə edə-edə bir-birini qovur, quşlar yenə qanad açıb. Dağlar tərəfdən xəfif əsən meh, sanki, ona yeni həyat verənlər haqqında nəğmə oxuyur.

Bu gün dağların sinəsindən, Xanbulançaydan mənzillərə, idarə və müəssisələrə saf, təmiz su axır. Axdıqca da adamın qəlbi dağa dönür. Əhali ürəkdən gələn səmimiyyətlə su xətti çəkənləri - "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin işgüzar kollektivini minnətdarlıqla xatırlayıb deyirlər:

- Qurub-yaradan əlləriniz var olsun!

## Xoş xatirələr yatır burada

Yalnız indi hiss etdi ki, bərk yorulub. Səhərdən ətrafı qarış-qarış gəzmişdi. İş meydanında qaynarlıq, işgüzarlıq vardı. Su xətti çəkənlərlə söhbət maraqlı idi. Aralarında da Xanbulançayın tikintisində iştirak edənlərin övladları, nəvələri də vardı.

Nəzərlərini kabinetin yuxarı başında vurulmuş portretdən ayırmadı. Portretdə ümummilli lider Heydər Əliyevin Xanbulançayın açılışında iştirakı əks olunurdu. Ulu öndəri əhatə edənlər onunla şirin-şirin söhbət edirdilər.

1976-cı il idi. Xanbulançayın istifadəsinə az qalırdı. Deyirdilər ki, açılışına ümummilli lider Heydər Əliyev, o cümlədən Moskvadan rəsmi qonaqlar gələcək. O dövrdə respublikanın aparıcı qəzetlərindən sayılan "Kommunist"in (indiki "Xalq qəzeti"nin) Xanbulançay üzrə müxbir postunun rəhbəri idim. Qəzetin xüsusi müxbiri Ə.Əmirəliyevin rəhbərliyi ilə burada görülən işlərə nəzarət edir və hesabat xarakterli yazılarım dərc olunurdu.

Bir dəfə necə oldusa, traktor bəndin yuxarısında sönərək dayandı. Aşağı uçurum idi, olduqca çətin vəziyyət yaranmışdı. Artıq bir hərəkət mexanizatoru traktor qarışıq uçuruma aparacaqdı. Gənc traktorçunun ehtiyatsızlıq etdiyini bildiyindən həyəcan keçirdiyini başa düşmək çətin deyildi. Rayonun birinci katibini görüb özünü itirsə də, büruzə vermədi.

- Həyatda belə şeylər olur, - birinci katib İsa Məmmədov özünü o yerə qoymadı. - Bəndin üstündə işləmək elə özü bir qəhrəmanlıqdır.

Cavan oğlan yavaşca başını qaldırdı, əvvəlcə birinci katibə baxdı, sonra isə bir qədər aralıda, bəndin üstündəki traktora tərəf boylandı. Traktor qabaq hissədən bəndə tərəf çıxmış, küləyin təsirindən müvazinətini itirmək təhlükəsində qalmışdı. Elə bu an gənc mexanizator heç kəsin gözləmədiyi halda traktora tərəf addımladı. Ətrafdakılar ilk anda onun nə etmək istədiyini anlamadılar. Kabinənin qapısı açılanda iş icraçısı qışqırdı:

- Dayan!..

Torpaq gurultu ilə yerə çökdü, traktorçu cəld bir hərəkətlə dəstəyi özünə tərəf çəkərək maşını geri döndərdi. Ətrafdakılar təəccüb və heyrət içində donub qalmışdılar. Bu, bir an çəkdi, az sonra dağlar qoynunda alqış səsləri ucaldı.

Birinci katib mexanizatorun əlini sıxdı.

- Sağ ol, - dedi. - Sən əsl qəhrəmansan. Anadan qəhrəman doğulmurlar, qəhrəmanı həyat yetişdirir. – Katib nəsə fikirləşərək sözünə ara verdi və qızıl korpuslu saatını gəncin qoluna bağladı. - Qoy məndən yadigar qalsın!..

## Anadan qəhrəman doğulmurlar

2003-cü ildə "Dəyərli ömrün Lənkəran səhifəsi" kitabımı hazırlayarkən gənc mexanizator haqqında hadisəni xatırladanda İsa Məmmədov gülümsündü, qeyri-ixtiyari dedi:

- Yadımdadır, - dedi. – Qəhrəmanlar gözə girməyi xoşlamırlar. Yaxşı deyiblər, əgər insan təkcə yaşamaq üçün dünyaya gəlsə idi, yəqin ki, onda həyat beləbəri üçün maraqsız və mənasız olardı. Əsl həyat odur ki, kimin üçün, nə üçün yaşadığını biləsən. Vətən, insan, el-oba üçün yaşamaqdan gözəl şey yoxdur. Əgər həmin gənc özünü fikirləşsəydi, yəqin ki, ölümün pəncəsinə atılmazdı. Amma tale üzünə güldü, cəsarət, öz gücünə, qüvvəsinə inam qələbə üçün əsas oldu. Belə oğulların əli ilə dağı dağ üstünə qoymaq olar.

İsa Məmmədov sözünə ara verdi, birdən-birə üzü tutuldu, ayağa qalxıb asta addımlarla pəncərəyə yaxınlaşdı. Hiss olunurdu ki, gəncin siması bu gün də gözlərindən çəkilmir.

- Heyif ondan, sonralar eşitdim ki, o, Qarabağ döyüşlərində həlak olub.

*

Ulu öndər Heydər Əliyev qülləli suburaxıcının idarəetmə pultunun qapısı qarşısında qırmızı lenti kəsdi. O, pultun işəsalma düyməsini basdı, su sol və sağ sahili magistral kanallara doldu. Yuxarı Xanbulançay su təsərrüfatı kompleksinin birinci əsas hissəsi işə düşdü.

29 dekabr 1976-cı il idi. Budur, aradan 50 il keçir. İnanmaq olmur. İllər necə də sürətlə keçirmiş!...

Yuxarı Xanbulançay kompleksi iri qurğu olub 10 milyonlarla kubmetr su tutan dəryaçadan, 40 kubmetr uzunluğunda kanallardan ibarətdir. Həmin kanallar Lənkəran bölgəsində suvarılan torpaqların sahəsini 22 min hektara çatdırmağa imkan verib.

…Qoca qartal dağlar üzərində süzürdü. O, qanadlarını geniş açaraq ucalığa, daha geniş ənginliklərə doğru şığıyırdı.

*Hacı Etibar ƏHƏDOV,*
*Lənkəranda çıxan "Aşkarlıq" qəzetinin baş redaktoru*

# Orta Dəhliz "Odlar yurdu"nu uzaq "gündoğar" ölkə ilə daha da yaxınlaşdırır



**Azərbaycanla Yaponiya arasında iqtisadi münasibətlər etimad, texnologiya mübadiləsi və uzunmüddətli layihələr üzərində qurulub. 1999-cu ildən fəaliyyət göstərən Hökumətlərarası İqtisadi Komissiya da bu xəttin əsas institutlarından biri sayılır.**

2024-cü ildə ikitərəfli ticarət dövriyyəsi 428 milyon ABŞ dollarına çatıb. Ötən il isə ticarət dövriyyəsi 360,25 milyon ABŞ dolları təşkil edib. Ticarətlə yanaşı, iki ölkə arasında qarşılıqlı investisiya qoyuluşları da davam edir. 2025-ci il ərzində Azərbaycan Yaponiya iqtisadiyyatına 16,199 milyon ABŞ dolları həcmində birbaşa investisiya yatırıb.

İqtisadi tərəfdaşlıq dedikdə, Azərbaycan–Yaponiya Birgə İqtisadi Komitəsinin ən mühüm fəaliyyəti onun praktik layihələri hərəkətə gətirməsi ilə bağlı olmasıdır. 2019-cu ildə Tokioda keçirilən 10-cu iclasda tərəflər ticarət, iqtisadiyyat, turizm, nəqliyyat və digər sahələrdə əməkdaşlığın genişləndirilməsini müzakirə ediblər. 2025-ci ildə keçirilən 12-ci birgə iclasda isə sənaye, kənd təsərrüfatı, nəqliyyat, enerji, infrastruktur, rabitə və yüksək texnologiyalar üzrə əməkdaşlıq imkanları nəzərdən keçirilib, protokol və bir sıra əməkdaşlıq memorandumu imzalanıb. Bu, komitənin iqtisadi dialoqu konkret nəticəyə çevirdiyini göstərir.

Qeyd edək ki, iki ölkə arasında aktiv olaraq İnvestisiya Sazişinin imzalanması çərçivəsində müzakirələr davam edir. Ümumiyyətlə, sözügedən ölkə investor üçün proqnozlaşdırılabilən hüquqi mühit yaradır, mülkiyyətin qorunması, şəffaflıq, investisiya imkanlarının genişlənməsi və mübahisələrin həlli üçün ümumi qaydalar formalaşdırır.

Xarici işlər naziri Ceyhun Bayramov dünən Yaponiyaya səfər edib və həmkarı Toşimitsu Motegi ilə görüş keçirib. Danışıqlar zamanı hər iki nazir 30 ildən artıq müddətdə ikitərəfli münasibətlərin inkişafını alqışlayıb, yüksək səviyyəli səfərlər və siyasi məsləhətləşmələr də daxil olmaqla fəal və səmərəli siyasi dialoqun vacibliyini təsdiqləyiblər.

Qeyd edək ki, xarici işlər nazirinin səfəri iki ölkə arasındakı iqtisadi prinsiplərin hansı müstəvilərdə olması ilə bağlı aydın fikir formalaşdırır. Azərbaycan və Yaponiya arasında Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutundan tutmuş enerji tərəfdaşlığına qədər uzanan geniş portfel mövcuddur. Təsadüfi deyil ki, nazirlərin görüşü zamanı iqtisadi münasibətlər daha çox ön plana çıxıb.

İlk olaraq, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu çərçivəsində Yaponiyanın maliyyə və texniki dəstəyi danılmazdır. 2024-cü ildə Yaponiya XİN bildirirdi ki, ölkə marşrutun inkişafı üzərində işləyir və Dünya Gömrük Təşkilatı ilə əməkdaşlığa başlayıb. G7-nin PGII çərçivəsində də bu istiqamətdə tərəfdaşlıq aparılır.

Məlumdur ki, yapon şirkətləri bu gün də Azəri-Çıraq-Günəşli və Bakı–Tbilisi–Ceyhan üzrə uzunmüddətli əməkdaşlıq payına sahibidir. Bu əməkdaşlıq Azərbaycan enerji tarixinin ən dayanıqlı tərəflərindən biridir. Qeyd olunur ki, ITOCHU və INPEX şirkətləri uzun illərdir Azəri-Çıraq-Günəşli və Bakı-Tbilisi-Ceyhan layihələrində iştirak edir. Yaponiyanın Xarici İşlər Nazirliyi də bu tərəfdaşlığı xüsusi vurğulayır. "JICA"nın 2013-cü il hesabatında qeyd olunur ki, yapon şirkətlərinin "AÇQ"də 15,3, "BTC"də 5,9 faiz paya malikdir. Başqa sözlə, Yaponiya Azərbaycan neftinin hasilatı və nəqlində həm investor, həm də uzunmüddətli strateji tərəfdaş kimi yer alır.

Xüsusi bir məqam isə ondan ibarətdir ki, rəsmi Tokio Azərbaycanın turizmin təşviqi, iqtisadi, humanitar və mədəni əlaqələrin daha da genişləndirilməsi məqsədilə Yaponiya vətəndaşları üçün 1 il müddətinə birtərəfli qaydada vizasız rejim tətbiq etmək qərarını alqışlayıb. Yəni sözügedən müddət ərzində Yaponiya vətəndaşları ölkəmizə vizasız səfər edə biləcəklər.

İki ölkə arasında süni intellekt çərçivəsində də əməkdaşlıq mövcuddur. Xatırladaq ki, ötən il Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransı çərçivəsində Yaponiyanın Daxili İşlər və Rabitə Nazirliyinin təşkilatçılığı ilə Bakıda "Mərkəzi Asiya və Qafqaz üçün rəqəmsal bağlantı" mövzusunda seminar baş tutub. "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Yaponiyanın Daxili İşlər və Rabitə Nazirliyi arasında İKT və poçt xidmətləri sahələrində Əməkdaşlıq Memorandumu"nun icrası məqsədilə işçi qrupunun yaradılması və iş planının hazırlanması barədə razılıq əldə olunub.

Bu mənzərə göstərir ki, Azərbaycan–Yaponiya iqtisadi əlaqələri təkcə xammal və enerji xətti ilə məhdudlaşmır. Xatırladaq ki, 2025-ci ildə Tokioda keçirilən komissiya iclasında Qarabağ və Şərqi Zəngəzurda investisiya imkanları, enerji keçidi və rəqəmsal texnologiyalar da müzakirə olunub. Bu da münasibətlərin gələcək konturlarının daha geniş və daha müasir mahiyyət daşıdığını göstərir.

***Nurlan ABDALOV***
***XQ***

# Köhnə yataqlara yeni nəfəs verilir

**Nazirlər Kabineti Dövlət Neft Şirkəti və "Gran Tierra Energy (Azerbaijan) GmbH" şirkəti arasında "Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarının bəzi hissələrini əhatə edən ərazi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü sazişi"nə Azərbaycan hökumətinin təminatı və öhdəliklərini təsdiq edib. Bu barədə Baş nazir Əli Əsədov 2026-cı il iyunun 10-da qərar imzalayıb.**

Qeyd edək ki, "Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarının bəzi hissələrini əhatə edən ərazi üzrə kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsü sazişi" 2026-cı il fevralın 18-də imzalanıb. Sənədə əsasən, layihənin operatoru qismində "Gran Tierra Energy (Azerbaijan) GmbH" (və ya ana şirkət olan "Gran Tierra Energy Inc.") çıxış edəcək. Şirkət layihədə 65 faiz iş payına sahib olacaq.

Saziş çərçivəsində həyata keçiriləcək tədbirlər də artıq bəllidir. Sənədə əsasən, işlərin iki mərhələdə həyata keçirilməsi nəzərdə tutulur. 5 illik ilkin mərhələdə ərazidə geoloji-kəşfiyyat və qiymətləndirmə işləri aparılacaq. Belə ki, müqavilə sahəsinin karbohidrogen potensialının üzə çıxarılması üçün qravimetrik məlumatların (aeroqravimetrik tədqiqat) toplanması, 3D seysmik tədqiqatların aparılması və ərazidə kəşfiyyat quyularının qazılması planlaşdırılır. Layihənin kəşfiyyat dövründə, ümumilikdə, 500 kvadratkilometr sahədə modern 3D seysmik məlumatların toplanması nəzərdə tutulur. Bununla yanaşı, müqavilə sahəsində 2 qiymətləndirmə quyusunun qazılması öhdəliyi götürülüb.

Seysmik dalğaların ötürülməsindən əvvəl, geoloji strukturların sıxlıq xəritəsini çıxarmaq üçün hava nəqliyyatı vasitəsilə qravimetrik ölçmələr aparılacaq. Bu metod seysmik hədəflərin daha dəqiq seçilməsinə kömək edəcək. Ümumilikdə, Quba-Xəzəryanı (Quba, Qusar, Şabran, Siyəzən və Xızı) regionunda "Gran Tierra Energy" tərəfindən aparılacaq seysmik tədqiqatların texniki xüsusiyyətləri layihənin kəşfiyyat proqramına əsasən müəyyən edilib. Müqavilə sahəsində kommersiya baxımından əhəmiyyətli kəşf olarsa, işlənmə müddəti 25 il və əlavə olaraq daha 5 il uzadıla bilər.

Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarının (Quba-Xəzəryanı regionu) daxil olduğu müqavilə sahəsi üzrə dəqiq proqnozlaşdırılan (sübut olunmuş) neft ehtiyatlarının həcminə gəldikdə isə, bu barədə rəsmi məlumatlar mövcud deyil. Elə SOCAR və "Gran Tierra Energy" arasında imzalanmış sazişin də əsas məqsədi məhz sözügedən regionun dəqiq karbohidrogen potensialını və proqnoz ehtiyatlarını üzə çıxarmaqdan ibarətdir. 5 illik kəşfiyyat dövründə toplanacaq 3D seysmik məlumatlar və qazılacaq kəşfiyyat quyularından sonra yataqların dəqiq həcmi (barel və ya ton olaraq) müəyyən ediləcək.



Bununla belə, Quba-Xəzəryanı regionunda çıxarıla bilən neft ehtiyatlarının mövcudluğu öz təsdiqini çoxdan tapıb. Regiona daxil olan Siyəzən və Şabran rayonlarının ərazisində ("Siyəzən-Nardaran" və "Çandahar-Zarat" yataqları) onilliklərdir ki, neft hasilatının həyata keçirilməsi də bunu sübut edir. 1939-cu ildə kəşf edilmiş "Siyəzən-Nardaran" yatağı ölkəmizin neft hasilatı tarixində əhəmiyyətli yer tutan mürəkkəb geoloji quruluşlu Siyəzən monoklinalının əsas neftli-qazlı sahələrindən biridir.

Siyəzən rayonu ərazisində yerləşən yataq tektonik cəhətdən ekranlaşmış strukturlara daxildir. Bu monoklinal Zarat, Siyəzən-Nardaran, Səadan, Əmirxanlı və Zağlı-Zeyvə kimi sahələrə bölünür. Burada hasilat işləri "Azneft" İB-nin "Siyəzənneft" Neft və Qaz Çıxarma İdarəsi tərəfindən həyata keçirilir. Ərazinin neft ehtiyatları tükənmək üzrə olsa da, mütəxəssislər hesab edirlər ki, ən müasir texnologiyaların tətbiqi ilə bu yataqlara yeni nəfəs vermək mümkündür. Məsələn, "Gran Tierra Energy" şirkətinin rəhbərliyi bu yaxınlarda bəyan edib ki, şimal regionunun qurudakı strukturlarında hələ də istifadə olunmamış neft potensialı var. Şirkət köhnə quyularda hasilatı artırmaq üçün layların zavodlaşdırılması və müasir neftvermənin yüksəldilməsi texnologiyalarını tətbiq edərək yatmış və ya çətin çıxarılan ehtiyatları aktivləşdirməyi planlaşdırır.

Yeri gəlmişkən, ölkəmizdə neftin sənaye üsulu ilə çıxarılmasına başlandığı ötən 178 ildə quruda və Xəzər akvatoriyasında çoxsaylı axtarış-geofiziki tədqiqat işləri aparılıb. Bunun nəticəsində 150-yə yaxın perspektivli struktur aşkar edilib. Hazırda ölkə üzrə istismarda olan yataqların 39-u quruda yerləşir. Həmin yataqlar uzun illərdir istismar olunmasına baxmayaraq, buradakı neft-qaz ehtiyatları hələ tükənməyib. Belə olan təqdirdə, quruda yerləşən yataqların işlənilməsinin davam etdirilməsi ölkəmizdə neft hasilatının artırılmasına əlavə imkanlar yarada bilər. Mütəxəssislər həmin yataqları hasilatın artırılması üçün sabit və etibarlı mənbə hesab edirlər.

Dövlət Neft Şirkətinin vitse-prezidenti Arzu Cavadova da iyunun 2-də, "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilmiş forumda çıxışı zamanı ölkənin qurudakı perspektiv neft-qaz rayonlarında kəşfiyyat işlərinin genişləndirilməsinin planlaşdırıldığını bildirib. Bu sahədə əsas prioritet istiqamətlərin Quba-Xəzəryanı, Şamaxı-Qobustan, Yevlax-Ağcabədi və Aşağı Kür hövzələri ilə bağlı olduğunu deyən şirkət rəsmisi bildirib ki, Azərbaycanın qurudakı yataqları kifayət qədər araşdırılmayıb və bu sahədə yeni keyfiyyətli seysmik məlumatların toplanmasına ehtiyac var.

Qurudakı geoloji quruluşun dənizlə müqayisədə daha mürəkkəb olduğunu diqqətə çatdıran A.Cavadovanın sözlərinə görə, gələcək fəaliyyət planlarının hazırlanması üçün yüksək keyfiyyətli seysmik məlumatların əldə olunması əsas prioritetdir. O bildirib ki, qeyd olunan ərazilərdə müəyyən həcmdə məlumatlar toplanıb və layihələr tərəfdaşlarla birgə işlənməsi üçün hazırlıq mərhələsinə çatdırılıb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Taxıl əkinlərinə subsidiya dəstəyi

**Aqrar Subsidiya Şurası verilən kreditlərin illik faiz dərəcəsinin maliyyələşdirilən hissəsinin və həmin kreditlərlə istehsalı maliyyələşdirilən kənd təsərrüfatı məhsullarının siyahısının təsdiq edilməsi ilə bağlı qərar qəbul edib.**



Bu addım ölkə Prezidentinin 5 mart 2026-cı il tarixli fərmanı ilə yaradılmış yeni dövlət dəstəyi mexanizmi çərçivəsində "Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası"nın 6-1-ci hissəsinə uyğun olaraq atılıb.

Yeni qərara əsasən, birillik əkinlərin istehsalı üçün bankların vəsaitləri hesabına fermerlərə verilən kreditlərin illik faiz dərəcəsinin 19 faizi keçməyən hissəsi dövlət büdcəsi hesabına ödəniləcək. Kreditlər çəltik, qarğıdakı, darı, sorqo, digər dənli və dənli paxlalılar (buğda, arpa, çovdar, vələmir, qarabaşaq, noxud, lobya, mərci), günəbaxan, kartof, tərəvəz, pambıq, şəkər çuğunduru, tütün və soya kimi bitkilərin istehsalı üçün götürülə bilər.

Bundan əlavə, şuranın qərarı ilə 2026-cı il üçün Naxçıvan Muxtar Respublikasında kartof, tərəvəz və bostan əkinləri üzrə subsidiya əmsallarına yenidən baxılıb. Yeni subsidiya əmsallarında müasir suvarma altındakı əkinlərə hər hektar üçün ənənəvi suvarma ilə müqayisədə 150 manat artıq əkin subsidiyası ödəniləcək.

Şuranın qərarı ilə Naxçıvan iqtisadi rayonunda əkin əmsalları və əkin subsidiyasının məbləği kənd təsərrüfatı bitkiləri üzrə yeni qayda müəyyən edilib. Bununla yanaşı, mövcud regionlaşmaya əlavə olaraq mavigilə üzrə əkin subsidiyası Quba-Xaçmaz iqtisadi rayonunda, pambıq üzrə məhsul subsidiyası Ağsunun Göydəlləkli kəndində, tütün üzrə məhsul subsidiyası Naxçıvan Muxtar Respublikasında, işğaldan azad edilmiş ərazilərdə salınan super-intensiv şaftalı (nektarin) bağları üzrə əkin subsidiyası Xocavənd rayonunda tətbiq ediləcək.

2026-cı ildə buğda üzrə cəmi əkin sahəsi 10 və ya arpa üzrə cəmi əkin sahəsi 100 hektardan artıq olan fermerlər tərəfindən sertifikatlı toxum istifadə edilmədikdə əkin subsidiyası 20 faiz azaldılmaqla ödəniləcək. Məhz bu səbəbdən fermerlərin növbəti dövr payızlıq əkinlər üçün toxum hazırlığını və tədarükünü həyata keçirərkən bu tələbləri indidən nəzərə alması vacibdir.

***XQ***

# Nəqliyyatçılarımız BNF-nin iclasında

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin nümayəndələri Beynəlxalq Nəqliyyat Forumunun (BNF) "Kiçik və orta ölçülü şəhərlərdə və kənd ərazilərində dayanıqlı mobillik" üzrə tədqiqat layihəsinin işçi qrupunun ilk iclasında iştirak ediblər.**




Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən verilən məlumata əsasən, onlayn formatda keçirilən görüşdə işçi qrupun fəaliyyət istiqamətləri, tədqiqatın əhatə dairəsi, prioritetləri və gözlənilən nəticələr müzakirə olunub. Bildirilib ki, təxminən, bir il müddətində fəaliyyət göstərəcək işçi qrupun əsas məqsədi kiçik və orta şəhərlərdə, eləcə də kənd yerlərində nəqliyyat xidmətlərini yaxşılaşdırmaq, əhalinin mobillik imkanlarını genişləndirmək və regionlardakı uğurlu təcrübələri öyrənməkdir.

Layihə çərçivəsində iştirakçı ölkələrin təcrübələrinin müqayisəli təhlili aparılacaq, uğurlu beynəlxalq təcrübələr müəyyən ediləcək və praktiki tövsiyələr hazırlanacaq. Yekun nəticələr BNF-nin gələcək tədqiqat və siyasət sənədlərində nəzərə alınacaq.

Müzakirələrdə iştirak edən Azərbaycan nümayəndə heyətinin, üzvləri bildiriblər ki, ölkəmizdə nəqliyyat sahəsində aparılan islahatlar, regionlarda ictimai nəqliyyat inkişafı və dayanıqlı mobillik üzrə qazanılan təcrübə işçi qrupun fəaliyyətinə töhfə verə bilər. Diqqətə çatdırılıb ki, Azərbaycan tərəfi işçi qrupun növbəti görüşlərində və tədqiqat fəaliyyətlərində fəal iştirak edərək əldə olunan təcrübənin ölkədə tətbiqini planlaşdırır.

Qeyd edək ki, sözügedən tədqiqat layihəsi Beynəlxalq Nəqliyyat Forumuna üzv ölkələr tərəfindən Bakıda təsdiqlənmiş 2026-2027-ci illər üzrə iş proqramının tərkib hissəsidir.

***XQ***

# İslam İnkişaf Bankı Qrupunun forumuna hazırlıq

**İyunun 16-da İslam İnkişaf Bankı (İİB) Qrupu təşkilatlarının 14-cü özəl sektor Forumu öz işinə başlayacaq. Bakı Konqres Mərkəzində keçiriləcək forum "Dayanıqlı rifah naminə regional inteqrasiya" mövzusuna həsr olunub. Toplantının məqsədi İİB-ə üzv ölkələr arasında iqtisadi əməkdaşlığın gücləndirilməsi, ticarət və investisiya əlaqələrinin genişləndirilməsi, eləcə də özəl sektorun davamlı iqtisadi inkişafda rolunun artırılmasıdır.**




Forumda regional inteqrasiya, sərhədlərarası investisiyalar, ticarət əlaqələri, infrastruktur, energetika, texnologiya, səhiyyə və maliyyə sektorlarında yaranan yeni imkanlar müzakirə olunacaq. Toplantı çərçivəsində yüksək səviyyəli panel sessiyaları, dövlət və biznes nümayəndələri arasında B2B və B2G görüşləri, startap proqramları və bilik mübadiləsi tədbirləri də keçiriləcək.

Bununla yanaşı, sahibkarların, xüsusilə kiçik və orta biznes subyektlərinin dəstəklənməsi, dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi və innovativ layihələrin təşviqi forumun əsas istiqamətləri sırasında yer alacaq. Tədbir zamanı iştirakçılar üçün investisiya layihələrinin, xidmətlərin və biznes imkanlarının təqdim ediləcəyi xüsusi sərgi zonası da fəaliyyət göstərəcək. Forum çərçivəsində, həmçinin startap müsabiqəsi keçiriləcək, İİB Qrupunun iqtisadi inkişaf və ticarətin təşviqinə töhfə verən təşkilat və şəxslərə təqdim etdiyi Fərqlənmə mükafatları dördüncü dəfə sahiblərinə veriləcək.

Toplantıda dövlət qurumlarının rəhbərləri, beynəlxalq maliyyə institutlarının nümayəndələri, aparıcı şirkətlərin rəhbərləri, investorlar, sahibkarlar, ticarət və sənaye palatalarının təmsilçiləri daxil olmaqla 1500-dən çox iştirakçının iştirakı gözlənilir. Forumun İİB-ə üzv ölkələr arasında yeni tərəfdaşlıqların qurulması və investisiya əməkdaşlığının genişləndirilməsi üçün mühüm platforma olacağı bildirilir.

Qeyd edək ki, İİB Qrupuna daxil olan İnvestisiya və İxrac Kreditlərinin Sığortası üzrə İslam Korporasiyası, Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası və Beynəlxalq İslam Ticarətinin Maliyyələşdirilməsi Korporasiyası tərəfindən İİB Qrupunun Biznes Forumu ilə tərəfdaşlıq çərçivəsində təşkil olunacaq toplantı iyunun 19-dək davam edəcək.

***XQ***

*Aqrar hədəflər*

# Balığı at dəryaya – biri yüz olar

## *Bu sahənin inkişaf etdirilməsi ərzaq təhlükəsizliyinə və ixrac potensialına önəmli dəstək olacaq*

**Bu gün aqrar sektorun modernləşdirilməsi, yeni istehsal sahələrinin yaradılması və ərzaq təhlükəsizliyinin gücləndirilməsi istiqamətində həyata keçirilən layihələr ölkənin iqtisadi dayanıqlılığının möhkəmləndirilməsinə xidmət edir. Prezident İlham Əliyevin mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə səsləndirdiyi fikirlər də bu strateji xəttin davamı olaraq qarşıda duran yeni vəzifələri aktuallaşdırdı. Bu sırada akvakulturanın inkişafının əsas hədəflərdən biri kimi müəyyənləşdirilməsi isə aqrar sektorda yeni inkişaf mərhələsinin başlandığından xəbər verir.**

Müşavirədə 2030-cu ilə qədər respublika akvakulturasında istehsal olunan balıq həcminin 2 dəfədən çox artırılması qarşıya mühüm vəzifə kimi qoyulub. Bu məqsədə nail olmaq üçün ilk dəfə olaraq balıqçılıq sahəsində subsidiyaların və dövlət güzəştlərinin tətbiqi, yeni balıqartırma zavodlarının tikintisi və müasir istehsal infrastrukturunun formalaşdırılması nəzərdə tutulub.

Belə bir qərarın verilməsi isə təsadüfi deyil. Çünki dünyada balıqçılıq və akvakultura sektoru hazırda sürətlə inkişaf edən ərzaq istehsalı sahələrindən birinə çevrilir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatlarına görə, bu gün dünyada istehlak olunan balığın yarıdan çoxu məhz akvakultura təsərrüfatlarında yetişdirilir. Əhali sayının artması, dəniz və okean ehtiyatlarının azalması, iqlim dəyişiklikləri və sağlam qidalanmaya marağın çoxalması ilə bu sahənin strateji əhəmiyyəti davamlı şəkildə yüksəlir.

### Su məhsulları istehsalına yaşıl işıq

Akvakultura su hövzələrində müxtəlif balıq, molyuska, xərçəngkimilər və digər su canlılarının ciddi nəzarət olunan şəraitdə yetişdirilməsi prosesidir. Ənənəvi balıqçılıqdan fərqli olaraq burada istehsal planlaşdırılır, məhsuldarlıq diqqətdə saxlanılır və bazarın tələbatına uyğun həcmdə məhsul əldə edilir. Akvakultura kənd təsərrüfatında həm də ərzaq təhlükəsizliyi, ekoloji tarazlıq, regional inkişaf, məşğulluq və ixrac gəlirləri ilə birbaşa bağlı strateji sektor kimi tanınır.

Ekspertlər bildirirlər ki, Azərbaycanın bu istiqamətdə böyük potensialı var. Xəzər dənizinin sahil zolağı, çoxsaylı çaylar, göllər, su anbarları və süni hövzələr akvakulturanın inkişafı üçün əlverişli imkanlar yaradır. Ölkədə mövcud su ehtiyatlarından daha səmərəli istifadə etməklə bu sahədə yüksək iqtisadi nəticələr də əldə etmək mümkündür.

Kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə bununla bağlı səsləndirilən fikirlər də göstərir ki, hökumət hazırda akvakulturanı gələcək illərdə aqrar sektorun əsas inkişaf istiqamətlərindən biri olaraq müəyyənləşdirir. Bu siyasətin əsas istiqamətlərini isə balıq məhsulları üzrə idxaldan asılılığın azaldılması, yeni iş yerlərinin yaradılması, ixrac imkanlarının genişləndirilməsi, müasir texnologiyaların tətbiqinə üstünlük verilməsi, dövlət subsidiyaları və güzəşt mexanizmlərinin formalaşdırılması, eləcə də yeni balıqartırma zavodlarının yaradılması kimi məsələləri əhatə edir. Belə bir yanaşma isə dünyanın qabaqcıl ölkələrinin son illərdə həyata keçirdiyi siyasətlə tam səsləşir.



Bu fikrin təsdiqi olaraq beynəlxalq miqyasda diqqətçəkən bəzi təcrübələri xatırlatmaq yerinə düşər. Məsələn, akvakultura sahəsində ən uğurlu göstəriciləri olan dövlətlərdən biri Norveçdir. Dünyanın ən böyük qızılbalıq ixracatçısı olan ölkə uzun illərdir ki, dövlət dəstəyi, elmi tədqiqatlar və innovativ texnologiyalar hesabına qlobal bazarda lider mövqeyi nümayiş etdirir.

Norveçdə isə akvakultura sənayesi hər il milyardlarla dollar ixrac gəliri formalaşdırır. Bu ölkənin bəzi bölgələrində balıqçılıq və akvakultura neft sektorundan sonra ikinci mühüm iqtisadi fəaliyyət sahəsi kimi tanınır. Uğurun əsas səbəbi isə sektorda güclü dövlət nəzarətinin həyata keçirilməsi, elmi araşdırmaların istehsalla inteqrasiyası, innovativ texnologiyaların, yüksək keyfiyyət standartlarının tətbiq olunması və ixracyönümlü istehsal strategiyasının diqqətdə saxlanılması ilə bağlıdır.

Bu gün dünya üzrə akvakultura məhsullarının böyük hissəsinin istehsal olunduğu Çində hökumət uzun illər ərzində bu sahəyə strateji investisiyalar yönəldərək onu milli ərzaq təhlükəsizliyinin vacib elementi kimi inkişaf etdirib. Burada yaradılan müasir balıqartırma komplekslərində artıq süni intellekt və rəqəmsal monitorinq sistemlərinin tətbiqinə, genetik seleksiya proqramlarının həyata keçirilməsinə başlanılıb, eyni zamanda, su resurslarından səmərəli istifadəyə üstünlük verilib. Ölkədə akvakulturanın yüksək texnologiyalar əsasında fəaliyyət göstərməsi məhsuldarlığın bir neçə dəfə artması ilə nəticələnib.

Son 20 ildə qardaş Türkiyədə də akvakultura sahəsində böyük uğur əldə edilib. Dövlət tərəfindən verilən subsidiyalar, vergi güzəştləri və investisiya təşviqləri sayəsində ölkə Avropanın aparıcı balıq istehsalçılarından birinə çevrilib. Türkiyədə xüsusilə levrek və çupra istehsalı sürətlə çoxalıb. Bu gün ölkənin akvakultura məhsullarının Avropa İttifaqı bazarlarında geniş şəkildə satışına başlanılıb.

Xatırladaq ki, Azərbaycan da akvakulturanın inkişafı üçün mühüm təbii və iqtisadi üstünlüklərə malikdir. Məsələn, tarixən qiymətli balıq növlərinin əsas məskənlərindən biri hesab olunan Xəzər dünyanın ən böyük qapalı su hövzəsidir. Mingəçevir, Şəmkir, Yenikənd, Araz və digər su anbarları sənaye miqyaslı balıqçılıq üçün geniş imkanlar yaradır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına gəldikdə isə mütəxəssislər bildirirlər ki, işğaldan azad olunmuş ərazilərdə yaradılan müasir infrastruktur, eləcə də bu coğrafiyada dağ çayları və təmiz su ehtiyatları akvakultura layihələrinin həyata keçirilməsini, xüsusilə forel və digər qiymətli balıq növlərinin yetişdirilməsini şərtləndirir.

### Daxili bazarın tələbatı artır

Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Xəzər dənizində balıq ehtiyatlarının qorunması, artırılması və bu sahənin iqtisadi potensialının genişləndirilməsi istiqamətində mühüm uğurlar əldə olunub. Xüsusilə nərə cinsli balıqların və digər qiymətli növlərin populyasiyasının bərpası məqsədilə Dövlət proqramlarının həyata keçirilməsinə başlanılıb.

Müasir balıqartırma müəssisələrində yetişdirilən milyonlarla körpə balıq hər il Xəzər dənizinə və digər su hövzələrinə buraxılıb. Bu tədbirlər təbii ehtiyatların bərpasına və balıq ehtiyatlarının davamlı şəkildə artırılmasına yönəldilib. Bütün bunların nəticəsidir ki, 2015–2025-ci illərdə balıqçılıq sahəsində davamlı inkişaf müşahidə olunub. Belə ki, bu dövrdə balıqçılıq məhsullarının istehsalı 2,7 dəfə çoxalıb, cari ilin ötən 4 ayı ərzində isə sektorda əlavə dəyər real ifadədə 2 faiz yüksəlib.

Azərbaycanın bu istiqamətdə fəaliyyəti beynəlxalq səviyyədə də diqqətlə izlənilir. Xəzər dənizi dünyada nərə balıqlarının əsas genofond məkanlarından biri hesab olunur. Məhz buna görə də bu növlərin qorunması yalnız milli deyil, həm də beynəlxalq önəm daşıyır. Hazırda həyata keçirilən süni artırma proqramları və qanunsuz balıq ovuna qarşı görülən tədbirlər nəticəsində nərə balıqlarının mühafizəsi istiqamətində müsbət dinamika müşahidə olunur.

Balıq ehtiyatlarının qorunması ilə yanaşı, balıqçılıq sektorunun iqtisadi səmərəliliyinin artırılması da dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Müasir texnologiyaların tətbiqi hesabına məhsuldarlığın yüksəldilməsi, yeni təsərrüfatların yaradılması və emal sənayesinin inkişafı istiqamətində mühüm işlər görülür. Bu proses bir tərəfdən yerli bazarın keyfiyyətli məhsullarla təmin olunmasına şərait yaradır, digər tərəfdən isə ixrac imkanlarını genişləndirir.

Xəzərin Azərbaycan sektorunda həyata keçirilən elmi monitorinq proqramları da diqqətəlayiq nəticələr verir. Balıq ehtiyatlarının qiymətləndirilməsi, onların miqrasiya marşrutlarının öyrənilməsi və reproduktiv potensialının araşdırılması sahəsində aparılan tədqiqatlar resursların daha səmərəli idarə edilməsinə imkan yaradır. Mütəxəssislərin fikrincə, elmi əsaslara söykənən idarəetmə modeli balıqçılıq sahəsinin davamlı inkişafının başlıca şərtlərindən biridir.

Ölkədə ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində görülən işlər də balıq ehtiyatlarının artmasına müsbət təsir göstərir. Son illərdə Xəzərin sahilboyu ərazilərində aparılan abadlıq və təmizləmə tədbirləri, tullantı sularının idarə olunması sistemlərinin təkmilləşdirilməsi və ətraf mühitin mühafizəsi sahəsində həyata keçirilən layihələr su hövzələrinin sağlamlaşdırılmasına xidmət edir. Ekoloji tarazlığın qorunması isə balıqların təbii çoxalması üçün daha əlverişli şərait yaradır.

Balıqçılığın inkişafı regionlarda məşğulluğun artırılması baxımından da mühüm əhəmiyyət daşıyır. Yeni təsərrüfatların yaradılması, emal müəssisələrinin fəaliyyəti və logistika xidmətlərinin genişlənməsi yüzlərlə insan üçün yeni iş imkanlarını şərtləndirir. Xüsusilə sahilyanı rayonlarda yaşayan əhali üçün bu sektor əlavə gəlir mənbəyinə çevrilir. Beləliklə, balıqçılıq sahəsinin inkişafı sosial rifahın yüksəlməsinə də öz töhfəsini verir.

***Vaqif BAYRAMOV***
***XQ***

*Ekspert rəyi*



**Akif NƏSİRLİ,**
**Liberal İqtisadçılar Mərkəzinin sədri, aqrar məsələlər üzrə ekspert**

Kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə səsləndirilən akvakulturanın inkişafının prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilməsi təsadüfi deyil. Çünki yaxın illərdə ölkədə akvakultura məhsullarının həcminin əhəmiyyətli dərəcədə artırılması nəzərdə tutulur. Bu məqsədlə subsidiya mexanizmlərinin tətbiqi, yeni balıqartırma müəssisələrinin yaradılması və sahibkarların dövlət dəstəyi ilə təmin olunması planlaşdırılır.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi haqqında" 2015-ci il 23 iyul, "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" 2018-ci il 19 dekabr, "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" 2019-cu il 27 iyun və "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2019-cu il 23 dekabr tarixli fərmanlarında dəyişikliklə bağlı 8 iyun 2026-cı il tarixli fərman imzalaması da yuxarıdakı fikrin bariz ifadəsidir.

Adı çəkilən fərmana daxil olan dəyişikliklərdə Azərbaycanda balıqçılıq və akvakultura sahəsi ilə məşğul olan sahibkarların və fermerlərin ilk dəfə olaraq genişmiqyaslı dövlət dəstəyi mexanizminə daxil edildikləri bildirilir. Sənəddə, eyni zamanda, Aqrar Kredit və İnkişaf Agentliyinin əsasnaməsində və vəsaitlərindən istifadə qaydalarında aparılan düzəlişlərlə balıqçılığın, o cümlədən akvakulturanın həyata keçirilməsi üçün işlədilən xüsusi texnika və texnoloji avadanlıqların rəsmən kənd təsərrüfatı istehsal vasitələrinin siyahısına əlavə olunduğu vurğulanır.

Bu qərar, ilk növbədə, balıqçılıq təsərrüfatlarının maliyyə resurslarına çıxış imkanlarını genişləndirəcək və onların istehsal gücünü artırmasına şərait yaradacaq. Eyni zamanda, güzəştli kreditlər hesabına müəssisələr yeni texnologiyalar, müasir avadanlıqlar tətbiq edə, süni balıq yetişdirmə təsərrüfatlarını genişləndirə və istehsal xərclərini optimallaşdıra biləcək. Bu isə məhsuldarlığın yüksəlməsinə və daxili bazarın yerli balıq məhsulları ilə daha yaxşı təmin olunmasına kömək edəcək. Bu qərar aqrar sektorun şaxələndirilməsinə də müsbət təsir göstərəcək.

*Təbiət imdada çağırır bizi*

# Xəzər dayazlaşır, adalaşır, sahillər quraqlaşır

**Azərbaycan Prezidenti İlham Əliyev Ümumdünya Ətraf Mühit Günü münasibətilə müraciətində qlobal ekoloji problemlərin artıq təkcə təbiətə deyil, iqtisadi inkişafa, insan sağlamlığına, yaşayış şəraitinə və dövlətlərin rifahına ciddi təsir göstərdiyini vurğulayıb. Dövlət başçısının sözlərinə görə, gələcək nəsillərin rifahı bu gün iqlim və ekoloji çağırışlara qarşı nə dərəcədə effektiv mübarizə aparılmasından asılıdır.**

Prezident qeyd edib ki, Azərbaycan bu məsuliyyətə böyük həssaslıqla yanaşır və ətraf mühitin qorunması istiqamətində genişmiqyaslı layihələr həyata keçirilir. Son illərdə ölkədə həm daşqınların, həm də quraqlıq hallarının sayı və intensivliyi artıb, su ehtiyatlarının azalması isə artıq təkcə Azərbaycanın deyil, bütövlükdə regionun qarşısında duran əsas problemlərdən birinə çevrilib.

İlham Əliyev xüsusilə vurğulayıb ki, Xəzər dənizinin səviyyəsinin son iki əsrdə qeydə alınan tarixi minimum həddə yaxınlaşması iqlim dəyişikliklərinin yaratdığı risklərin miqyasını aydın şəkildə ortaya qoyur. Prezidentin fikrincə, bu tendensiya region ölkələri üçün yeni ekoloji, iqtisadi və sosial çağırışlar formalaşdırır.

Dövlət başçısının diqqət çəkdiyi problem son illər aparılan elmi araşdırmalarla da təsdiqlənir. Xəzər dənizi tədricən dayazlaşır, sahil xətti geri çəkilir, yeni adalar meydana çıxır, bəzi sahil əraziləri isə fərqli coğrafi görünüş alır. Bu proses artıq müvəqqəti xarakter daşımır və yaxın onilliklərdə sürətlənə bilər. Bunu BMT-nin Xəbərlər Xidmətinin məlumatı da təsdiqləyir. Məlumatda bildirilir ki, dəniz səviyyəsinin aşağı düşməsi yalnız sahil xəttinin dəyişməsi ilə məhdudlaşmır. Bu proses limanların fəaliyyətinə, gəmiçiliyə, balıqçılığa, su ehtiyatlarına və biomüxtəlifliyə birbaşa təsir göstərir. Xüsusilə qlobal iqlim dəyişikliklərinin sürətlənməsi fonunda Xəzərdə müşahidə olunan proseslərin qarşıdakı onilliklərdə daha da dərinləşəcəyi ehtimal olunur. Eyni zamanda, ekoloji tarazlığın pozulması regionun biomüxtəlifliyi üçün də ciddi risklər yaradır.

Son tədqiqatlar xüsusilə Xəzərin şimal hissəsində vəziyyətin sürətlə dəyişdiyini göstərir. Rusiyalı mütəxəssislərin apardıqları araşdırmalar zamanı əvvəllər dayazlıq hesab edilən bəzi sahələrin artıq quru ərazilərə çevrildiyi müəyyən olunub. Məlumatlara görə, 2021-ci ildən etibarən dənizin geri çəkilməsi prosesi daha da sürətlənib və bəzi bölgələrdə bu dəyişiklik kilometrlərlə ölçülür. Aparılan ekspedisiyalar zamanı uzunluğu, təxminən, bir kilometr olan iki yeni ada aşkar edilib. Hazırda həmin quru sahələri su səviyyəsindən təxminən yarım metr yüksəklikdə yerləşir ki, bu da Xəzərdə baş verən dəyişikliklərin miqyasını aydın şəkildə nümayiş etdirir.

Yeni yaranan adalar, əsasən, qum və lil qatlarından ibarətdir. Hələlik onların üzərində sabit bitki örtüyü formalaşmayıb. Əgər bu ərazilər uzun müddət su altında qalmasa, gələcəkdə burada ilkin ekosistemlərin yaranacağı ehtimal edilir. Quşların yuvalaması, müxtəlif bitki örtüyünün formalaşması və bəzi canlı növlərinin burada məskunlaşması mümkündür. Lakin bu "yeni torpaqlar"ın taleyi hələ də qeyri-müəyyəndir. Güclü küləklər, payız fırtınaları və su səviyyəsindəki dəyişikliklər onları yenidən dənizin altına qərq edə bilər. Xəzərin tarixində belə hallar dəfələrlə yaşanıb. Xüsusilə palçıq vulkanlarının fəaliyyəti nəticəsində yaranan və "xəyal adalar" adlandırılan müvəqqəti quru sahələri qısa müddətdən sonra tamamilə yox olub.

Bununla yanaşı, bəzi mövcud adaların sürətlə böyüməsi alimləri daha çox narahat edir. "Çistaya Banki" adasının sahəsi son illərdə iki dəfə artıb. Tbilisi dayazlığının yerində yaranmış ada isə üç dəfə genişlənib. "Malıy Jemçujnı" adası əvvəllər dəniz səviyyəsinə çox yaxın olduğu halda, indi bəzi hissələrdə suyun üzərindən iki metrədək yüksəlir. Bütün bunlar Xəzərin nə qədər sürətlə dayazlaşdığını açıq şəkildə göstərir.



Son 30 ildə Xəzərin səviyyəsi, təxminən, 3 metr aşağı düşüb. Şimal regionlarda bəzi yerlərdə dəniz 10 kilometrlərlə geri çəkilib. Vaxtilə su altında qalan ərazilər indi quru düzənliklərə çevrilib, sahilyanı bataqlıqlar isə qurumağa başlayıb. Körfəzlərin sahəsi kiçilib, bəzi kiçik su hövzələri tamamilə yox olub. Regionun coğrafiyası sanki yenidən formalaşır.

Bu dəyişikliklərin ən diqqətçəkən nümunələrindən biri Dağıstandakı Çeçen adasında müşahidə olunub. Bir vaxtlar yalnız qayıqla çatmaq mümkün olan ada artıq materiklə birləşib və ora avtomobillə getmək mümkündür. Aqraxan körfəzində isə vəziyyət daha ağırdır. Körfəzin böyük hissəsi faktiki olaraq quruyub və yalnız dayaz sular qalıb. Bir neçə onillik əvvəl dənizlə əhatə olunan ərazilər indi quru landşafta çevrilib.

Xəzərin geri çəkilməsi artıq Azərbaycan sahillərində də açıq şəkildə hiss olunur. Rəsmi məlumatlara görə, dənizin azalması nəticəsində ölkədə, təxminən, 40 min hektara yaxın yeni quru sahəsi yaranıb. Bakı Bulvarı ərazisində əvvəllər suyun altında qalan qayalar və qum təpələri artıq görünür. Ticarət mərkəzinin yaxınlığında uzunluğu, təxminən, 80–100 metr olan kiçik ada diqqət çəkir. Bəzi körpülərin alt hissəsi isə tamamilə quruyub. Şəhər sakinləri dənizin gündən-günə sahildən uzaqlaşdığını açıq şəkildə müşahidə edirlər.

Sumqayıt sahillərində dəniz onlarla metr geri çəkilib və sahil xətti tanınmaz hala düşüb. Turizmin əsas mərkəzlərindən olan Nabran və Xaçmaz istiqamətində çimərliklərin relyefi dəyişib, bəzi kurort obyektləri ciddi problemlərlə üzləşib. Astara sahillərində isə dəniz o qədər geri çəkilib ki, sahilə yaxın hissələrdə kiçik qum adaları yaranıb.

Xəzərin Azərbaycan sahillərində palçıq vulkanları da yeni adaların yaranmasına səbəb olur. Bu adalar qəfil meydana çıxır, bir müddət dənizin səthində qalır və sonra yenidən yox olurlar. Xüsusilə Xəzərin cənub hissəsi palçıq vulkanları ilə zəngindir. Vulkan püskürmələri zamanı dənizin dibindən palçıq, qaz və qum kütlələri səthə qalxaraq müvəqqəti quru sahələri yaradır. Azərbaycan sahillərinə yaxın yerləşən Çigil-dəniz adası bunun ən məşhur nümunələrindən biridir. Ada 2023-cü ildə Kumani palçıq vulkanının püskürməsi nəticəsində yaranmış, lakin bir neçə ay sonra dalğalar və eroziya səbəbindən yenidən su altında qalmışdı.

Belə hadisələr Xəzərdə ilk dəfə baş vermir. Tarixi məlumatlara görə, Kumani və digər palçıq vulkanları XIX əsrdən bəri dəfələrlə oxşar adalar formalaşdırıb. Bu adalar bəzən həftələrlə, bəzən isə aylarla mövcud olsa da, əksər hallarda uzunömürlü olmur.

Mütəxəssislərin fikrincə, "xəyal adalar" yalnız maraqlı təbiət hadisəsi deyil, həm də mühüm geoloji göstəricidir. Bu proseslər dəniz dibindəki tektonik dəyişiklikləri, seysmik aktivliyi və qaz təzyiqini öyrənmək baxımından alimlər üçün böyük əhəmiyyət daşıyır. Son illərdə Xəzərin su səviyyəsinin azalması isə bu adaların daha tez meydana çıxmasına və daha uzun müddət müşahidə olunmasına şərait yaradır.

Problemin əsas səbəbi qlobal iqlim dəyişiklikləridir. Dünya müvəqqəti olaraq temperatur artımının 1,5 dərəcə həddini aşacağı bir dövrə doğru irəliləyir. Temperaturun artması suyun buxarlanmasını sürətləndirir, Volqa kimi böyük çaylardan gələn suyun həcmi isə azalır. Nəticədə Xəzərin su balansı pozulur, dəniz əvvəlki həcmini bərpa edə bilmir və tədricən geri çəkilir.

Bu gün aydın görünür ki, Xəzərdə baş verənlər gələcəyin ekoloji xəbərdarlığıdır. Bir tərəfdən yeni adaların yaranması maraqlı geoloji hadisə təsiri bağışlayır, digər tərəfdən isə regionun qarşılaşacağı böyük dəyişikliklərin ilk siqnalları kimi görünür. Əgər mövcud tendensiya davam etsə, yaxın onilliklərdə Xəzərin sahil xətti tamamilə fərqli görünüş alacaq və region yeni ekoloji reallıqla üz-üzə qalacaq.

Xəzərin problemlərinin həlli isə yalnız bir ölkənin səyləri ilə mümkün deyil. Dənizin gələcəyi sahilyanı dövlətlərin koordinasiyalı fəaliyyəti, regional əməkdaşlığın gücləndirilməsi və qlobal iqlim siyasətində daha təsirli tədbirlərin görülməsindən asılıdır. Çünki Xəzərdə müşahidə olunan proseslər əslində bütün dünyada yaşanan iqlim böhranının regional təzahürüdür. Prezident İlham Əliyevin də vurğuladığı kimi, bu məsələyə vaxtında və effektiv yanaşma yalnız Azərbaycanın deyil, bütövlükdə Xəzər regionunun gələcək inkişafı, ekoloji təhlükəsizliyi və dayanıqlı rifahı baxımından həlledici əhəmiyyət daşıyır. Bu gün qəbul edilən qərarlar və atılan addımlar sabah Xəzərin və onun ətrafında yaşayan milyonlarla insanın taleyini müəyyən edəcək.

***Pünhan ƏFƏNDİ***
***XQ***

*İctimai müzakirə*

# Uşaqların zərərli informasiyadan qorunması qlobal çağırışdır



**Dünən "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsinin ictimai müzakirəsi keçirilib.**

Müvafiq dövlət qurumları, media subyektləri və jurnalist təşkilatlarının səlahiyyətli nümayəndələri, həmçinin əlaqəli sahələr üzrə məsul şəxslər, rəqəmsal məzmun yaradıcıları və ekspertlərin iştirak etdiyi məclisdə Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov mövzunun aktuallığını vurğulayıb. O bildirib ki, İnzibati Xətalar Məcəlləsində və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda, eləcə də digər aidiyyəti normativ-hüquqi aktlarda dəyişikliklər edilməsi barədə qanun layihəsi, uşaqların virtual məkanda təhlükəsizliyinin təmin edilməsinə, bütövlükdə isə milli rəqəmsal ekosistemin hüquqi tənzimlənməsinə yönəlib. Universal etik normalara, milli maraqlarımıza və beynəlxalq hüquqi standartlara cavab verən bu dəyişikliklər milli informasiya mühitinin sağlamlaşdırılmasına və gələcək nəsillərin qorunmasına mühüm töhfə verəcək.

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Elmir Vəlizadə müasir informasiya mühitində baş verən dəyişikliklər, rəqəmsal platformaların cəmiyyət həyatına təsiri və bu sahədə hüquqi tənzimləmələrin əhəmiyyətini qeyd edib. Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəşad Həsənov rəqəmsallaşmanın sürətlə genişləndiyi şəraitdə informasiya təhlükəsizliyi məsələlərinin aktuallığından bəhs edib. Milli Kibertəhlükəsizlik Agentliyinin sektor müdiri Həvva Hüseynli təqdimatla çıxış edərək qanun layihəsində nəzərdə tutulan dəyişikliklərin əsas istiqamətləri barədə məlumat verib.

Ailə, Qadın və Uşaq məsələləri üzrə Dövlət Komitəsinin hüquqi təminat şöbəsinin müdir müavini Seymur Məmmədov, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Vəfa Yaqublu, Səhiyyə Nazirliyinin sektor müdiri Aynurə Zeynalova, Ədliyyə Nazirliyi Sosial normativ aktlar idarəsinin rəisi Aytən Məmmədova rəqəmsal mühitin uşaqlara inkişaf imkanları yaratmaqla yanaşı, onların həyatları üçün ciddi təhlükə ilə müşayiət olunduğunu bildiriblər. Qeyd olunub ki, uşaqların təhlükəsiz informasiya mühitində inkişafının təmin edilməsi, onların zərərli məzmundan müdafiəsi və maarifləndirmə tədbirlərinin genişləndirilməsi xüsusi aktuallıq daşıyır.

İştirakçılar qanun layihəsində nəzərdə tutulan dəyişikliklər ətrafında geniş və fəal fikir mübadiləsi apardılar. Müzakirə zamanı müxtəlif yanaşmalar və mövqelər səsləndirilib, təkliflər irəli sürülüb.

*XQ*

*Təqdimat*

# Macar-Azərbaycan etnik ortaqlığı



**Türk Mədəniyyəti və İrsi Fondunda görkəmli ictimai və siyasi xadim, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının üzvü professor Həsən Həsənovun "Macar-Azərbaycan ortaq etnik kökləri" kitabının təqdimat mərasimi keçirilib.**




Kitab bu günə qədər rus və macar dillərində çap olunsa da, ilk dəfə Azərbaycan dilində oxucuların ixtiyarına verilir.

Təqdimatda çıxış edən Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova "Macar-Azərbaycan ortaq etnik kökləri" kitabında Azərbaycan və macar xalqlarının dünyagörüşü, mifologiyası, musiqisi və ənənələri arasındakı çox maraqlı oxşarlıqlardan bəhs olunduğunu qeyd edib. O, kitabın böyük bir hissəsinin macarların və digər türk xalqlarının dillərinin oxşarlığına həsr olunduğunu deyib.

Macarıstanın Azərbaycandakı səfiri Tamaş Torman əsərin ortaq linqvistik, tarixi, mifoloji və musiqi ənənələrimizə dair ədəbiyyatı zənginləşdirdiyini, bir-birimizi daha yaxşı anlamağa və tanımağa imkan verdiyini diqqətə çatdırıb. "Kitab müəllifin xalqlarımızın qədim tarixinə olan dərin marağını əks etdirir. Onun Macarıstan və Azərbaycanın qədim tarixi üzrə bilikləri heyrətamizdir", - deyə səfir əlavə edib.

Nəşrin tarixçəsinə toxunan kitabın müəllifi Həsən Həsənov qədim türklərlə fin-uqor xalqları arasında qohumluq əlaqələrinin olduğunu diqqətə çatdırıb. O, 1980-ci illərdə Finlandiyanın Baş nazirinin Azərbaycana səfəri zamanı bu barədə keçirilən görüşü və maraqlı söhbətləri xatırladıb. Müəllif məhz bu tarixi-mədəni yaxınlığı əsas götürərək, sonradan diplomatik fəaliyyət üçün Macarıstanı seçdiyini və orada Azərbaycanı tanıdan 40 kitab nəşr etdirdiyini vurğulayıb.

Qeyd edək ki, "Macar-Azərbaycan ortaq etnik kökləri" kitabında macar-türk xalqları arasında tarixi paralelləri və leksik əlaqələri sistemli şəkildə araşdırılır. Dyula Nemet, Layoş Liqeti, Zoltan Qomboç və digər macar alimlərinin türk dili haqqında irəli sürdükləri fikirlər ümumiləşdirərək mövzunun kompleks elmi təhlili təqdim olunur. Əsər macar-türk münasibətlərinin dərin tarixi köklərini və dil müstəvisində formalaşmış qarşılıqlı təsirləri aydın şəkildə ortaya qoyulması baxımından mühüm elmi əhəmiyyətə malikdir.

*XQ*

*Əmirulla Məmmədov – 80*

# Azərbaycan elminin dünyaşöhrətli yetirməsi

**Türk dünyasının elm və düşüncə xəritəsində özünəməxsus iz qoyan, ömrünü elmə, vətənə və milli kimliyin qorunmasına həsr edən görkəmli alim – Əmirulla Məmmədəli oğlu Məmmədovun 80 yaşı tamam olur. Ölkəmizin və qardaş xalqların elmi ictimaiyyəti əlamətdar yubileyi alimin zəngin yaradıcılığına və geniş ictimai fəaliyyətinə sevgi-sayğı ilə qeyd edir.**

Əmirulla Məmmədov 1946-cı ildə Bakı şəhərində Fatmayı kəndində dünyaya göz açıb. Uşaqlıq və gənclik illərinin Xəzərin sahilində, qədim Bakının elm və mədəniyyət nəfəsi ilə yoğrulan mühitində keçməsi onda yalnız bilik sevgisi deyil, həm də düşünmək, araşdırmaq və həqiqəti tapmaq ehtirası oyatdı.

Bakı Dövlət Universitetinin tələbəsi olanda isə fizikanın mürəkkəb və cazibədar dünyası onun üçün sadəcə bir ixtisas deyil, həyatın mənasına çevrilir. 1968-ci ildə universiteti bitirərkən o, artıq gələcəyin alim potensialını özündə daşıyan bir tədqiqatçı idi. Hərbi xidmətdən qayıtdıqdan sonra özünü tamamilə elmi axtarışlara həsr etdi.

Elmi fəaliyyətə kiçik elmi işçi kimi başlamaq onun üçün sadəcə bir başlanğıc idi. O, hər yeni araşdırmada bir addım irəli gedir, hər nəticədə yeni suallar doğur, hər sualda isə daha böyük üfüqlər axtarırdı.

Beynəlxalq konfranslarda səslənən fikirləri, çap olunan məqalələri və dərin elmi baxışları onu getdikcə daha geniş auditoriyaya tanıdırdı. Beləcə, o, addım-addım, zərrə-zərrə qazandığı nüfuzla professor zirvəsinə yüksəldi – amma bu zirvə onun üçün son deyil, yeni başlanğıcların qapısı idi.

Əmirulla müəllim üçün elm heç vaxt dar çərçivəli sahə olmayıb, hər zaman düşüncənin sərhədsiz üfüqlərinə açılan yol kimi yaşanıb. Onun elmi-pedaqoji fəaliyyəti məhz bu sonsuzluğun içində formalaşıb, zənginliyi və çoxşaxəliliyi ilə seçilib.

1973-cü ildə İoffe adına Fizika-Texnika İnstitutunun elmi mühitində müdafiə etdiyi dissertasiya həyatında yeni bir mərhələnin başlanğıcı oldu. "Bərk cisimlər fizikası" kimi mürəkkəb bir sahədə qazandığı ilk böyük elmi uğur, sanki, gələcək zirvələrin müjdəçisi idi. İllər keçdikcə elmi düşüncəsi daha da dərinləşdi, baxışları genişləndi. 1986-cı ildə Latviya Dövlət Universiteti nəzdində optika sahəsində qazandığı elmlər doktoru dərəcəsi onu sadəcə, şəxsi uğur deyildi, bütöv bir elmi məktəbin potensialının təsdiqi idi. Çünki o, SSRİ məkanında bu sahədə ilk azərbaycanlı alim kimi bu zirvəyə yüksəlib.

Onun elmi dünyası yalnız nəzəriyyələrlə məhdudlaşmırdı. Əmirulla Məmmədov elmi həyatın praktik tərəfini də dərindən dərk edən alimlərdən idi. Xüsusilə müdafiə sənayesi üçün mühüm əhəmiyyət kəsb edən sistemlər üzərində apardığı tədqiqatlar yalnız laboratoriyalarda qalmır, real texnoloji həllərə çevrilərək dövlətlərin strateji gücünə töhfə verirdi.

1970-ci illərin mürəkkəb və məsuliyyətli dövründə onun yolu daha məsuliyyətli bir sahəyə – SSRİ-nin ən yüksək qərarverici elmi-strateji qurumlarından birinə uzandı. Hərbi Sənaye Məsələləri üzrə Komissiyada elmi ekspert kimi fəaliyyəti böyük etimadın göstəricisi idi. Burada o, sadəcə, alim deyil, həm də gələcəyin texnologiyalarını formalaşdıran düşüncə adamı kimi çıxış edirdi. Qəbul edilən qərarların arxasında onun analitik zəkası, elmi əsaslandırmaları və uzaqgörən baxışları dayanırdı.

California Institute of Technology, Stanford University və digər nüfuzlu mərkəzlərdə apardığı tədqiqatlar onun elmi düşüncəsinin coğrafiyasını genişləndirdi. Laboratoriyalarda keçən uzun saatlar, müzakirələrlə dolu elmi mühit və daim yenilənən texnologiyalar onun baxışlarını daha da dərinləşdirdi. O, artıq yalnız bir ölkənin deyil, beynəlxalq elmin nümayəndəsinə çevrilirdi.

1980-ci ildə isə Şərqin texnoloji möcüzəsinin mərkəzinə qədəm qoydu. "Nippon Electric Company" və "Sumitomo Electric" kimi qabaqcıl elmi müəssisələrdə apardığı tədqiqatlar elmi yaradıcılığına yeni çalarlar qatdı. Tsukuba şəhərinin müasir laboratoriyalarında elmi ideyaları real nəticələrə çevrirdi.

1986-cı ildə qazandığı elmlər doktoru dərəcəsi onun illərlə davam edən zəhmətinin bəhrəsi idi. 1988-ci ildə layiq görüldüyü Dövlət mükafatı isə elmi nüfuzunun dövlət səviyyəsində qəbulunun parlaq sübutuna çevrildi.

1989-cu ildən Sapienza Universitetinin auditoriyalarında, Fraskati şəhərinin elmi mərkəzlərində onun səsi eşidilməyə başladı. Burada o, təkcə tədqiqatçı deyil, həm də biliklərini paylaşan, yeni nəsil alimləri ruhlandıran müəllim idi. Beləcə, onun elmi yolu okeanları, qitələri aşaraq bir həqiqəti sübut edirdi: həqiqi alim üçün dünya bir laboratoriyadır, elm isə bu laboratoriyada daim davam edən böyük bir axtarış.

Həyat yolunda 1990-cı il yeni bir səhifə kimi açıldı – bu səhifə onu qardaş ölkə Türkiyəyə apardı. Bu, sadəcə coğrafi dəyişiklik deyildi, elmin, təcrübənin və milli ruhun yeni mühitdə çiçəklənməsi idi. Adana şəhərindəki Çukurova Universitetində o, yalnız bir professor kimi deyil, böyük bir elmi məktəbin daşıyıcısı kimi qarşılandı. Fizika və mühəndislik fakültələrində keçdiyi dərslər, sadəcə, mühazirə deyildi, düşünməyi öyrədən, sual verməyə cəsarət aşılayan, gənclərin zehni dünyasını genişləndirən bir məktəb idi. Onun yetişdirdiyi tələbələr yalnız bilik qazanmır, həm də elmi düşüncənin fəlsəfəsini mənimsəyirdilər.

Lakin onun fəaliyyəti universitet divarları ilə məhdudlaşmadı. O, elmin real həyatda tətbiq olunduğu ən strateji sahələrdən birinə – müdafiə sənayesinə üz tutdu. ASELSAN kimi mühüm bir qurumda elmi məs-



ləhətçi olaraq çalışmaqla, o, nəzəri bilikləri texnoloji gücə çevirməyi bacaran nadir alimlərdən olduğunu bir daha sübut etdi. Mikroelektronika və elektrooptik sistemlər sahəsində onun fikirləri, təklifləri və elmi yanaşması gələcəyin texnologiyalarını formalaşdıran əsas sütunlardan birinə çevrildi.

2011-ci ildə rəsmi qaydalara uyğun olaraq o, professor vəzifəsindən təqaüdə çıxdı. Lakin bu, onun üçün dayanmaq demək deyildi. Əksinə, yeni bir başlanğıc idi. Bilkent Universitetinin nanotexnologiya mərkəzində fəaliyyətini davam etdirdi.

Onun elmi irsinin ən parlaq nümunələrindən biri isə MEROPS sistemi oldu. Bu sistem elmi düşüncənin praktiki gücə çevrilməsinin simvolu idi. Onun ideyaları, rəhbərliyi və zəhməti nəticəsində bu layihə reallığa çevrildi və Türkiyənin müdafiə qabiliyyətinin gücləndirilməsində mühüm rol oynadı. Əmirulla Məmmədovun Türkiyə dövrü göstərdi ki, həqiqi alim heç vaxt təqaüdə çıxmır. O, sadəcə fəaliyyət sahəsini dəyişir, amma düşünmək, yaratmaq və gələcəyi formalaşdırmaq missiyasını ömrünün sonuna qədər davam etdirir.

Əmirulla müəllim üçün həyat yalnız laboratoriyalardan və auditoriyalardan ibarət olmayıb. Onun taleyində elm ilə vətən sevgisi, bilik ilə mənəvi məsuliyyət həmişə yanaşı addımlayıb. O, harada yaşamasından asılı olmayaraq, qəlbində daşıdığı Azərbaycanı heç vaxt tərk etməyən ziyalılardandır.

Yarım əsrə yaxın doğma yurddan uzaqda yaşasa da, onun düşüncələri, qayğıları və mübarizəsi daim Azərbaycanın taleyi ilə bağlı olub. 1980-ci illərin mürəkkəb siyasi atmosferində Azərbaycanın səsinin dünyaya çatdırılmasında fəal iştirak edib, onun səsi uzaq ölkələrdə eşidildi. "Azadlıq", "Azad Avropa" və "Amerikanın Səsi" radiolarında çıxışları, həqiqətin, ədalətin və milli mövqenin səsi idi.

Xüsusilə 20 Yanvar faciəsi və Xocalı soyqırımı ilə bağlı keçirilən tədbirlərdə çıxışları yaddaşlara həkk olundu. O, tribunada yalnız bir alim kimi deyil, ağrını yaşayan bir xalqın nümayəndəsi kimi danışırdı. Adana şəhərində onun təşəbbüsləri real nəticələrə çevrildi. Xocalı həqiqətlərinin tanıdılması istiqamətində atılan addımlar, qəbul edilən qərarlar, ucaldılan abidə və salınan park onun yorulmaz fəaliyyətinin sübutu, həm də tarixə yazılmış ədalət çağırışı idi.

Onun ictimai fəaliyyəti getdikcə daha da genişləndi. Türkiyə–Azərbaycan münasibətlərinin möhkəmlənməsi, diasporun təşkilatlanması və elmi əlaqələrin qurulması istiqamətində birləşdirici bir qüvvə kimi çıxış etdi.

Əmirulla Məmmədovun həyatının bu tərəfi bir həqiqəti xatırladır: həqiqi ziyalı yalnız bilik sahibi deyil, həm də cəmiyyətin vicdanıdır. O, harada yaşamasından asılı olmayaraq, öz xalqının səsini daşıyan, tarixini qoruyan və gələcəyinə yol açan işıqdır.

Əmirulla Məmmədəli oğlu Məmmədov bu gün də yorulmadan fəaliyyət göstərən, zamanın axarına deyil, onu istiqamətləndirən nadir ziyalılardandır. Onun üçün illər sadəcə rəqəm, yaş isə yalnız təqvim göstəricisidir. Düşünən beyin, axtaran ruh və vətənə bağlı qəlb isə dəyişməz qalır. O, bu gün də müxtəlif ölkələrdə keçirilən elmi toplantılarda, ictimai platformalarda və diplomatik mühitlərdə çıxış edərək Azərbaycanı tanıdır, ölkənin inkişaf yolunu, qazandığı uğurları və gələcəyə yönəlmiş strategiyasını dünyaya çatdırır.

Bu uzun və mənalı yol, təbii ki, diqqətdən kənarda qalmamışdır. Çoxillik elmi, pedaqoji və ictimai fəaliyyəti yüksək qiymətləndirilmiş, nüfuzlu mükafat və fəxri adlarla təltif olunmuşdur. O, 1988-ci ildə Azərbaycan Respublikasının Elm sahəsində Dövlət Mükafatı laureatı, 2016-cı ildə isə Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi fəxri adına layiq görülmüşdür. 2021-ci ildə "Diaspor fəaliyyətində xidmətə görə" medala, 2022-ci ildə isə "Dostluq" ordeninə layiq görülməsi onun zəngin və fədakar fəaliyyətinin parlaq göstəricisi olmaqla, illərlə davam edən zəhmətin, sədaqətin və xidmətin etirafıdır. Hər bir mükafat onun həyat yolunun bir mərhələsini, bir uğurunu, bir izini simvolizə edir.

Lakin onun ən böyük mükafatı ordenlər, fəxri adlar deyil, yetişdirdiyi tələbələr, yaratdığı elmi məktəb, qurduğu mənəvi körpülər və qoruduğu milli dəyərlərdir.

Əmirulla Məmmədovun ömür yolu bizə bir həqiqəti xatırladır: böyük xidmətlər zamanla ölçülmür, onların dəyəri yaratdığı təsirlə, qoyduğu izlə müəyyən olunur. Onun fəaliyyəti isə artıq bir insanın ömrünü aşaraq bir məktəbə, bir ənənəyə, bir örnəyə çevrilmişdir.

***Namiq QƏDİMOĞLU***
***XQ***

# Şəkililər 1920-ci ilin Qarabağ döyüşlərində

## *Dəstənin komandiri türk Sürəyya Aydəmir bu fədakarlığı necə qələmə alıb?*

**“O günə qədər müharibə görməyən, hətta vətənini öz evinin, kəndinin sərhədlərindən ibarət bilən bu xalq, indi ilk dəfə olaraq ölkənin kənar bir bölgəsinin və orada yaşayan qardaşlarının xilası üçün gənc bir atlının arxasınca yola düşürdü”.**

Söhbət ondan gedir ki, 1919–1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti milli təhsil quruculuğuna müəllim kadrları ilə yardım etmək üçün Osmanlı hökumətinə müraciət etmiş və Azərbaycana bir qrup müəllim göndərilmişdi. Həmin müəllimlərdən biri sonralar Türk dünyasının tanınmış aydınlarından olmuş Şövkət Sürəyya Aydəmir idi. O, Türkiyədən Azərbaycana – Nuxa adlanan Şəkiyə müəllimlik etməyə göndərilmişdi.

1897-ci ildə Ədirnədə – Balkan köçkünlərindən olan bir ailədə dünyaya gələn Aydəmirin formalaşmasında dövrün ağır tarixi hadisələri mühüm rol oynamışdı. Balkan müharibələrinin acıları, Birinci Dünya müharibəsinin cəbhə həyatı, Sarıqamışın amansız soyuğu onun mənəvi dünyasını sarsıtmışdı.

Aydəmir Qafqaza gəlişini, sadəcə, coğrafi keçid kimi deyil, böyük bir ideala – Turan məfkurəsinin yayılmasına doğru atılan tarixi addım kimi qəbul edirdi. Araz körpüsünü keçərkən yaşadığı həyəcan, ümumi mənzərə onda yeni duyğular yaradırdı. Bu səfər onun gözündə böyük bir milli oyanışın başlanğıcı, Şəki Turanın bir parçası kimi görünmüşdü.

Şövkət Sürəyya illər sonra – 1959-cu ildə nəşr olunmuş “Suyu arayan adam” avtobioqrafik əsərində Şəki ilə bağlı xatirələrini sevgi ilə qələmə almaqla yanaşı, baş vermiş tarixi hadisələrin canlı şahidi olaraq bir çox qaranlıq məqamlara işıq tutmuşdu. Əsərdə ən çox diqqətçəkən məqamlardan biri 1920-ci ildə Əsgəran qala-səddini erməni qiyamçılarının tutması ilə bağlıdır.

Aydəmirin Əsgəran döyüşü haqqında yazdıqları yenicə müstəqillik əldə etmiş bir xalqın özünü dərk etməsinin, parçalanmış düşüncədən bütöv Vətən anlayışına yüksəlişinin canlı salnaməsidir. Əsgəran səddi üzərində qurulan hadisələr, əslində, coğrafi bir məkanın təsvirindən daha artıqdır. Əsgəran qalası Azərbaycanın taleyində mühüm dönüş nöqtəsinə çevrilmiş mübarizə timsalıdır.

Bu xatirələrdə bir önəmli məqam da xalqın müharibəyə münasibətinin dəyişməsidir. İndiyə qədər hakim dövlətin ordu həyatından kənarda saxladığı, silah görməmiş, döyüş təcrübəsi olmayan sadə insanlar bir anda könüllü olaraq vətənin müdafiəsinə qalxmışdılar. Bu, kükrəyən bir hərəkat olmaqla yanaşı, mənəvi oyanışın göstəricisi idi. Əsəri oxuduqca aydın olur ki, Nuxa ilə Qarabağ arasında məsafə artıq coğrafi ölçü deyil, ortaq taleyin çağırışı ilə dolan boşluqdur.



Şövkət Aydəmir

Şövkət Sürəyya Aydəmirin “Suyu arayan adam” avtobioqrafik əsərindən təqdim etdiyimiz parçada yalnız qanlı-qadalı hadisələrdən bəhs olunmur, həm də dövrün ruhu öz əksini tapır. Burada təsvir olunanlar, sadəcə, tarix deyil, bir xalqın yaddaşı, ağrısı və birliyə gedən yolunun hekayəsidir.

***Şövkət Sürəyya əsərində ermənilərin Qarabağ yolunu və Əsgəran keçidini kəsməsini xatırlayaraq yazır:***

– Əsgəran keçidi bu bölgədə Azərbaycanın ortasından keçən və onu şimal və cənub olaraq ikiyə ayıran Kür vadisində, Qarabağın qapısındadır. Şimalda qalan Qarabağa Əsgəran keçidindən girilir... Keçidin arxasında evləri bağlar, bağçalar içində gizlənmiş Ağdam qəsəbəsi uzanır. Dağlıq Qarabağ vilayətinin baş şəhəri olan Şuşa qalasına isə Əsgəran qapılarını keçərək və yuxarıya doğru irəliləyərək çatmaq olur. Bura dağların üstündə bir qartal yuvası kimidir.

Qarabağda türklərlə ermənilər qarışıq olaraq yaşayırlar. Fəqət Qarabağ kimin əlində isə Kür vadisinə və Azərbaycan ovalığına o, yuxarıdan baxa bilir. Əsgəran keçidinin kəsildiyi xəbəri gəldiyi zaman bizim şəhərdə əsgər yox idi. Qarabağa ancaq könüllülərlə gedilə bilərdi. Halbuki bu şəhərdə və kəndlərində xalq indiyə qədər heç bir savaş üçün silahlanmamışdı. Sonra Nuxa daha çox sünni, Qarabağ isə şiəməzhəb məkan idi. Bir çoxları üçün isə Qarabağ Nuxadan çox uzaqda idi. Onsuz da müharibə xalqın indiyə qədər görmədiyi savaş idi...

Çarlığın dağılması, rus ordusunun geri çəkilməsi və Gürcüstandan gələn bir hərbi qatarın Azərbaycan torpaqlarında yağmalanması xalqın əlinə az-çox silah vermişdi. Amma bu silahların toplu olaraq istifadə olunması problem idi.

Əsgəran xəbərinin ardınca şəhər və kəndlərin əhalisi böyük məscidin həyətinə toplaşdı. Xalq ilk dəfə idi ki, döyüşə dəvət olunurdu. Bir könüllü qeydiyyat komitəsi quruldu... Bir neçə gün içində 400 könüllü köhnə qaladakı Şəki xanlarının sarayı önündən yola çıxmaq üçün səf bağlayıb durdu. İmamlar, axundlar, şəhər və kənd ağsaqqalları əllərinə keçən bayraqlar, qılınclar, tapançalarla dəstənin önündə idilər. Könüllüləri mən idarə edəcək, döyüşə aparacaqdım. Bu dəstəyə əmr verəcəkdim.

Dəstə hərəkət etməzdən öncə şəhərin adından mənə bir at və bir mauser tapançası hədiyyə edildi. Bunları ancaq əmanət olaraq qəbul etdim. Ata mindim. Dəstənin önünə keçdim. Qafilə qaladan şəhərin



ana yollarını keçərək yavaş-yavaş ovalığa doğru enməyə başladı. Ən öndə təkbir söyləyənlər gedirdi. Yolların kənarları, pəncərələr, balkonlar, divarların, ağacların, damların üzəri bağıran, ağlaşan, alqışlayan qadın, kişi, gənc, qoca, oğul-uşaq, minlərlə insandan ibarət bir qələbəliklə dolmuşdu.

O günə qədər müharibə görməyən, hətta vətənini öz evinin, öz kəndinin sərhədlərindən ibarət bilən bu xalq, indi ilk dəfə olaraq vətənin kənar bir bölgəsinə və orada yaşayan qardaşlarının xilası üçün gənc bir atlının arxasınca yola düşürdü. Və bu gediş qəribsənilmirdi. Əksinə, bununla öyünür, coşurdular. Həyəcan getdikcə artırdı. Şəhərin aşağı başında təkbirlər, dualar, hayqırışlar, ağlaşmalar və silah səsləri son həddə çatdı.

Könüllü sıralarına qatılmaq və onlarla bərabər getmək üçün bu sıraların içinə atılan qocalar, hətta yaşlı analar var idi. Məni ən çox təsirləndirən məktəbdəki uşaqlar oldu. Bir an gəldi ki, bunlar atımın ətrafında, sanki kilidləndilər. Təmiz, məsum üzlər həm sevinc, həm sevgi göz yaşları ilə yuyulurdu. O zaman mən də dayana bilmədim. Göz yaşlarımı göstərmək istəmirdim, amma olmadı...

Şəhərdən çıxanda qurbanlar kəsildi. Son dualar edildi. Burada yaşlıları, imamları, axundları dəstədən ayırmaq və xalqın yanında qoymaq üçün çox səy göstərməli oldum. Hələ boynuna uzun bir qılınc asmış qoca, fəqət heybətli bir kənd imamı var idi. Onun dəstəyə qatılmaq üçün yalvarışlarını indi də xatırlayıram...

Könüllülər Əsgəran qalasına çatdıqları zaman yol açılmışdı. Biz ilk döyüşə Xankəndi yaxınlığında qatıldıq. Gənc və təcrübəsiz olmalarına rəğmən, Azərbaycan hərbi dəstələri hər tərəfdə irəliyə atılırdı. Bizim dəstənin, ilk dəfə müharibəni yaşayan mülki icmanın ilkin təcrübəsizliyinə baxmayaraq, öz hərəkətlərini həyata keçirməsi mümkün idi. Yeganə çətinlik könüllüləri ovçuya bənzər bir formada saxlamaq idi... İkinci çətinlik əvvəlcə ağla gəlməyən bir vəziyyət səbəbilə oldu. Könüllülərdən biri yaralandığı, yaxud öldüyü zaman bütün qonşuları, kəndliləri, yaxınları, yerliləri onun yanına qaçırdılar. Onu hamısı birdən götürüb geri aparmağı vəzifə bilirdi.

Əsas çətinliyi düşmənin atdığı ilk bombalar yaratdı... Onun səsi bombalara alışmayanları qorxudurdu. Bizim könüllülər isə əvvəllər heç bomba səsi eşitməmişdilər.

Müharibənin üçüncü günü gecə Şuşa qalasına girildi. Burada rəsmi qoşunlar və könüllülər böyük ruh yüksəkliyi ilə qarşılandı. Könüllü dəstəmiz 15 şəhid vermişdi. Mühasirədən xilas olanlar küçələrdə, meydanlarda könüllüləri bağırlarına basırdılar. Məscidin həyətində həyəcan son həddə çatmışdı. Artıq sünni və şiə bölünməsi yox idi. Bütün əsgərlər, könüllülər, mülki şəxslər, hamı bir-birinə qardaş, bir vətənin övladı idi. Bu sözləri Şuşa qalasının böyük məscidinin minbərində, bu məscidi dolduran qələbəliyə söylədiyim zaman gecə yarısını ötmüşdü. Dinləyənlər ağlayırdılar.

Bundan sonra qonaq qaldığımız evdə Şuşa qalası camaatının onlarla qalmaq təklifini nəzakətlə rədd etdim. Nuxada bir işim var idi və 2 gün sonra qafilə Nuxaya doğru yola düşdü. Nuxada qarşılanmalar, dualar və mövlüdlər günlərlə davam etdi. Günlərlə məhəllələri, kəndləri gəzərək şəhidlərimizi mədh etdim. Onların cənazələrini döyüş meydanlarında dəfn etmişiksə, şəhid üçün ən gözəl və yaraşan məzarın elə döyüş meydanı olduğunu izah etməklə məşğul oldum. Bu sözlər onlara yeni bir şey kimi gəlirdi. Doğrudan da, biz şəhidlərimizi öldüyü torpaqlarda dəfn etmişdik. “Hər şəhidə bir məzar ayırmaq istəsəydik, şəhidlərin məzarına görə türk vətənində gəzməyə yer qalmazdı” deyəndə hamı məni anladı.

***Şövkət Sürəyya Aydəmirin qələmindən çıxan bu cümlələr bir daha sübut edir: Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir! Dünən də, bu gün də bu torpaq üçün könüllü olaraq ölməyi qəbul edənlər, silaha sarılanlar, bəylik libasını hərbçi formasına dəyişənlər, ölümün gözünə dik baxanlar Vətən ediblər. Şövkət Sürəyyanın yazdığı Əsgəran səddi uğrunda baş verən son döyüş deyildi, ancaq o gün orada dalğalanan, heç şübhəsiz, son bayraqdı - üçrəngli Azərbaycan bayrağı!***

***O gün orada birləşən xalq 1 əsr sonra bir yumruq oldu, Qarabağı əsarətdən birdəfəlik qurtardı. Ancaq bir fərqlə: Ümummilli lider Heydər Əliyevin qürurla söylədiyi “Mən fəxr edirəm ki, azərbaycanlıyam!” – deyərək.***

*Zəminə RƏSULOVA,*
*Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin elmi işçisi*

# Cərimə, üstəgəl bal cəzası...

## *Eyni vaxtda hər ikisi ədalətlidirmi?*



**Sürücü və piyadaların təhlükəsizliyinin təmin edilməsi, yol hərəkəti qaydalarına əməl olunması və qəzaların qarşısının alınması məqsədilə tətbiq edilən nəzarət və cəza mexanizmləri arasında cərimələr və cərimə balları sistemi mühüm yer tutur. Mütəxəssislər hesab edirlər ki, cərimə sistemi yol hərəkəti qaydalarının pozulmasının qarşısını almaq üçün zəruridir.**

Lakin son illər sürücülər arasında cərimə ballarının tətbiqi ilə bağlı narazılıqlar artmaqdadır. Xüsusilə sürücülük hüququnun məhdudlaşdırılması ilə nəticələnən 20 ballıq limit qoyulması müzakirələrə səbəb olur. Mövcud qanunvericiliyə əsasən, sürücünün bir il ərzində cərimə ballarının sayı bu həddə çatdıqda nəqliyyat vasitəsini idarəetmə hüququ məhdudlaşdırılır. Məhz bu səbəbdən son dövrlərdə cərimə balları sisteminin təkmilləşdirilməsi ilə bağlı müxtəlif təkliflər səsləndirilir. Bu istiqamətdə qanunvericilik təşəbbüsü də irəli sürülüb və Milli Məclisdə sürücülük hüququnu məhdudlaşdıran 20 ballıq limitin artırılması müzakirəyə çıxarılıb.

**Nəqliyyat eksperti Aslan Əsədov bildirdi ki, cərimə balları ilə bağlı limit məsələsi bu gün kifayət qədər aktual mövzulardandır və cəmiyyətdə geniş müzakirə olunur:**

– Bu sahədə müəyyən tendensiyalar müşahidə edilir. Xüsusilə sürücülər arasında belə bir fikir formalaşıb ki,



bəzi qayda pozuntularına görə tətbiq edilən cərimə balları başadüşülən deyil. Məsələ ondadır ki, bəzi inzibati xətalara görə sürücüyə həm maliyyə cəriməsi tətbiq edilir, həm də əlavə cərimə balı hesablanır. Bu isə belə bir təsəvvür yaradır ki, eyni qayda pozuntusuna görə ikiqat cəza tətbiq olunur. Başqa sözlə, sürücü həm pul cəriməsi ödəyir, həm də həmin pozuntu onun cərimə balı limitinə də təsir göstərir.

Təbii ki, qanunvericilik baxımından cərimə və cərimə balı fərqli hüquqi mexanizmlərdir. Cərimə balı sürücünün yol hərəkəti qaydalarına münasibətini və təkrar pozuntulara meyilliliyini qiymətləndirmək üçün nəzərdə tutulub. Lakin cəmiyyətdə bu əlavə cəza kimi qəbul edir. Xüsusilə də sürücü artıq maliyyə cəriməsi ilə üzləşdikdən sonra ona bal da hesablandıqda, bu vəziyyət narazılıqlara gətirib çıxarır.

Bu baxımdan cərimə balı limitinin artırılması ilə bağlı təkliflər yüksək balı olan sürücülər üçün müsbət haldır. Peşə fəaliyyəti məhdudlaşan, sürücülük hüququ ilə bağlı problemlərlə üzləşən insanlar hesab edirlər ki, bəzi hallarda tətbiq olunan bal sistemi pozuntunun ağırlığı ilə tam uyğun gəlmir.

Əgər törədilən pozuntu halları insanların həyat və sağlamlığı üçün ciddi təhlükə yaratmırsa, qəza şəraiti formalaşdırmırsa və ya ağır nəticələrə səbəb ola biləcək risk daşımırsa, bu halda yalnız inzibati cərimənin tətbiqi daha məqsədəuyğun görünür. Lakin təhlükəli manevrlər, qəza şəraiti yaradan hərəkətlər, sərxoş vəziyyətdə idarəetmə və digər ciddi pozuntular zamanı cərimə balının tətbiqi yol hərəkəti təhlükəsizliyi baxımından zəruridir. Bu səbəbdən əsas məsələ cərimə balı limitinin artırılması deyil. Daha vacib olan, hansı qayda pozuntularına görə cərimə balı tətbiq edilməsinin yenidən nəzərdən keçirilməsidir. Sürücülərin çoxsaylı müraciətləri göstərir ki, bəzi hallarda bal sistemi əlavə yük və cəza kimi qəbul olunur.

**Nəqliyyat eksperti Eldəniz Cəfərov qeyd etdi ki, Milli Məclisə təqdim olunan və müzakirə edilən bu təklif əslində kifayət qədər ciddi və aktualdır:**

– Çünki cərimə balları sistemi ilə bağlı uzun illərdir həm sürücülər, həm də ekspertlər müxtəlif fikirlər səsləndirirlər. Xüsusilə sürücülər arasında belə bir narazılıq var ki, bəzən kobud qayda pozuntusu törədilmədiyi halda da cərimə balları tətbiq olunur. Nəticədə sürücülər qısa müddət ərzində bal limitinə yaxınlaşır və bu da onların fəaliyyətinə



mənfi təsir göstərir.

Sürücülər hesab edirlər ki, tətbiq edilən cərimələr və ya yazılan ballar tam əsaslandırılmır. Belə hallarda isə cərimə ballarının toplanması daha çox narazılıq yaradır. Bu baxımdan, bir sıra millət vəkillərinin cərimə balı limitinin artırılması ilə bağlı irəli sürdüyü təkliflər, müəyyən mənada, sürücülərin üzləşdiyi problemlərin həllinə yönəlmiş addım kimi qiymətləndirilir.

Lakin məsələyə daha geniş prizmadan yanaşdıqda aydın olur ki, cərimə balı limitinin artırılması yol hərəkəti təhlükəsizliyi sahəsində mövcud problemlərin tam həlli demək deyil. Məsələn, limitin 20 baldan 30 və ya 40 bala yüksəldilməsi sürücülərin daha məsuliyyətli davranacağı və ya qayda pozuntularının azalacağı mənasına gəlmir. Yol hərəkəti təhlükəsizliyinin təmin olunması, ilk növbədə, sürücülərin məsuliyyətindən, maarifləndirmədən və qanunların effektiv tətbiqindən asılıdır.

Bu mənada, bal limitinin artırılması yüksək cərimə balı topladığı üçün peşə fəaliyyətini davam etdirməkdə çətinlik çəkən sürücülər üçün müəyyən rahatlıq yarada bilər. Xüsusilə taksi sürücüləri, yük və sərnişindaşıma sahəsində çalışanlar üçün bu dəyişiklik, bir növ, güzəşt rolunu oynaya bilər. Ona görə də təklifin müsbət tərəfi məhz bu kateqoriyadan olan sürücülərin fəaliyyət imkanlarının genişlənməsinə xidmət etməsidir.

*Ləman TƏHMƏZ*
*XQ*

# “İRS”in yeni nəşrləri Belçikada



**Azərbaycanın Belçikadakı səfirliyində “İRS” Nəşriyyat Evinin yeni kitablarının sərgisi təşkil olunub. Açılış mərasimində ölkəmizin Brüsseldəki səfiri Vaqif Sadıqov bildirib ki, “İRS” Azərbaycanın tarixi, mədəniyyəti, incəsənəti və memarlığına dair çoxsaylı kitab və jurnallar nəşr edir. Bu nəşrlər müxtəlif xarici dillərdə çap olunaraq beynəlxalq auditoriyaya təqdim edilir.**

“İRS” Nəşriyyat Evinin və Bakı Dövlət Universitetinin Mədəni İrsi Araşdırma Mərkəzinin direktoru Musa Mərcanlı nəşriyyatın fəaliyyəti, həyata keçirdiyi layihələr və Azərbaycanın zəngin mədəni irsinin dünyada tanıdılması istiqamətində görülən işlər haqqında məlumat verib. Musa Mərcanlı sərgidə nümayiş olunan kitabları təqdim edib və iştirakçıların suallarını cavablandırıb.

Brüssel Azad Universitetinin professoru Philippe Humble “İRS” nəşrlərində işıqlandırılan mövzular barədə fikirlərini bölüşərək, Azərbaycanla bağlı təəssüratlarından danışıb. “Travel Tomorrow” media şirkətinin rəhbəri Antonio Buscardini isə Azərbaycana səfərləri zamanı şahidi olduğu zəngin tarixi-mədəni irs, ölkənin geniş turizm imkanları və beynəlxalq nüfuzunun artması barədə söz açıb.

Mərasim Belçikada təhsil alan azərbaycanlı musiqiçilərin təqdim etdiyi klassik və milli musiqi proqramı ilə davam edib.

*XQ*

# Türk dövlətləri və yeni dünya düzəni

**Dünyanın hazırkı super gücü ABŞ və onu daban-dabana izləyən və ötüb keçmək iddiasında olan Çin Xalq Respublikası öz mənafeləri naminə planetin bir çox qaynar nöqtələrində ağır vəkalət mübarizələri aparır. Niyyət rəqibləri əldən salıb özünə tabe etməkdir. Bir çox dünya ölkələri isə qaydasız oyuna bənzər bu amansız mücadiləni təşvişlə izləməyə məcburdur.**



Hələlik hansı tərəfin tam qələbə qazanacağı bəlli deyil. Böyük ehtimalla, bu iki super güc arasında, idman şərhçilərinin dili ilə desək, "qolsuz bərabərlik" də qeydə alına bilər. Bu, fikrimcə, bir çox ölkələr üçün arzuolunan nəticə hesab oluna bilər. Belə ki, zavallı bəşəriyyət bu zaman qansız-qadasız şəkildə birqütblü dünyadan ikiqütblülüyə keçidin şahidi olacaq. Amma problem bununla da bitmir.

Təəssüf ki, iki və ya daha çoxqütblü dünyaya keçid heç də rəvan getmir. Ona görə rəvan getmir ki, ABŞ və Çinlə yanaşı, bir çox digər böyük ölkələr də yeni güc mərkəzləri rolunda çıxış etmək üçün öz iddia və ambisiyalarını ortaya qoyublar. Bu dövlətlər qlobal siyasətin obyektləri yox, əksinə, subyektləri olaraq bundan daha çox siyasi və iqtisadi dividendlər əldə etmək niyyətindədir. Onları qınamaq da olmur. Hər bir toplum yeni düzəndə öz haqqını tələb edir.

Məsələn, "Köhnə qitə"nin 28 dövlətini öz sıralararında birləşdirən Avropa İttifaqı (Aİ), ən çox nüvə başlığına malik olan Rusiya, əhalisinin sayına görə Çini geridə buraxaraq 1-ci yerə çıxmış Hindistan, dünyanın 4-cü iqtisadiyyatı sayılan Yaponiya, təxminən, 1 əsr əvvəl ucsuz-bucaqsız ərazilərində Günəşin heç vaxt batmadığı Böyük Britaniyanın yalnız ikiqütblü dünya nizamı ilə razılaşacağını düşünmək sadəlövhlük olardı. Bu dövlətlərin yeni nizamla bağlı özəl planları var.

Hətta Latın Amerikasının ispandilli ölkələrinin ayrıca bir ittifaq yaradacağı, əhalisi etnik cəhətdən ispanlarla yaxın olan portuqalların vətəni, iqtisadi gücünə görə 11-ci olan Braziliya da yeni qlobal nizamda sıradan bir dövlət statusu ilə razılaşmaq istəməyəcək. Madrid indi Avropada özünü ən güclülərin cərgəsində görmək arzusundadır. Lütfən, aşağıdakı fakta diqqət yetirin: İspaniya hökuməti son 10 ildə Latın Amerikasından 10 milyona yaxın əsasən gənc miqrant qəbul edərək, onlara tələm-tələsik vətəndaşlıq statusu verib, nəticədə əhalisinin sayını 25 faiz artırıb. İndi İspaniyanın əhalisinin (50 milyon) sayı İtaliyanı ötüb keçmək üzrədir. İspaniyadakı bəzi millətçi dairələr ölkənin Afrika və Asiyadan gələn miqrantlardan "qurtulmaq" niyyətlərini də açıq şəkildə dilə gətirirlər.

Belə bir taleyüklü məqamda Böyük Turan öz sözünü deməlidir. Türk Dövlətləri Təşkilatı (TDT), xoşbəxtlikdən, bu gün dünyanın gözləri önündə real qlobal gücə çevrilib. Bu quruma üzv ölkələr arasında siyasi, iqtisadi, humanitar, eləcə həyati əhəmiyyət kəsb edən hərbi əməkdaşlıq davamlı olaraq güclənir. Çağdaş dünyanın rəsmi 9 nüvə dövlətindən biri olan Pakistan İslam Respublikası da öz tarixi dostları Türkiyə və Azərbaycanın yanındadır. Bu, əlbəttə, Böyük Turanın artan qüdrətinə əlavə güc qatır!

Köhnə və yeni rəqiblərimiz isə heç bir vəchlə Böyük Turanın qüdrətli bir ittifaqa çevrilməsini istəmir, bundan əndişələnirlər. Son vaxtlar Türkiyəni nəyin bahasına olursa-olsun, regiondakı ağır münaqişələrə cəlb etmək niyyəti də buradan qaynaqlanır. Amma rəsmi Ankaranın təmkinli, praqmatik siyasəti təxribat xarakterli bu cəhdlərin qarşısına sipər çəkir. Eyni zamanda, dünya bilməlidir: gözlənilməz real təhdidlər meydana çıxarsa, türk xalqları öz milli istiqlalını göz bəbəyi kimi qorumağa hazırdır!

Bəli, dünya çalxalanır və amma gectez dünya liderləri bir ümumi məxrəcə gələcəklər. Şübhə yoxdur ki, yeni dünya nizamının əsas cizgilərini artıq 5-ci ildir davam edən Rusiya-Ukrayna müharibəsi, eləcə də Yaxın Şərqdəki dağıdıcı qarşıdurmaların real nəticələri müəyyən edəcək. Bəşəriyyət özündə güc tapıb bu qanlı olaylara son qoymalıdır. Xalqları nüvə silahları ilə təhdid edib Yer kürəsini məhvərindən heç kim çıxara bilməz. Buna ilahi ədalət imkan verməz!

Bu, bir həqiqətdir ki, rəsmi Bakı və Ankara birmənalı olaraq regionda və bütün dünyada ədalətli sülhün bərqərar olunmasında maraqlıdır və bu istiqamətlərdə əllərindən gələni edir. Bir müddət əvvəl qardaş Antalyada keçirilən Diplomatik Forumda bir daha vurğulanıb ki, Türkiyənin liderliyilə bütün TDT dövlətləri sıx iqtisadi və mədəni əməkdaşlığa açıqdır.

Bu vaxtadək bəşəriyyət tarixindəki bütün müharibələr son nəticədə sülhlə bitib. İnanmaq istırdik ki, hazırkı uşaq, qoca, ahıl bilmədən, sadə, günahsız insanların həyatına son qoyan münaqişə və müharibələr bitəcək və planetimizdə yeni, daha ədalətli nizam bərqərar olacaq! Bütün türk xalqları bu ümidlə yaşayıb-yaradırlar. Böyük Turan dünyaya yeni sivilizasiya vəd edir. Dünya görür ki, türklər sülhü və rifahı təkcə özləri üçün deyil, bütün dünya üçün arzulayırlar.

Bəli, bu gün geniş Avrasiya coğrafiyasında məskunlaşan türklər müharibə istəmirlər, amma öz torpaqlarının bir qarışını da heç kimə güzəştə getmək niyyətində deyillər. Azərbaycanın 2020-ci ilin payızında 44 günlük şanlı savaşdakı Tarixi Zəfəri bunu bütün dünyaya bir daha sübut edib. Bizim İkinci Qarabağ müharibəsindəki möhtəşəm qələbəmiz türk xalqları və dövlətlərinin sülhə, rifaha, təhlükəsiz gələcəyə inam və ümidlərini artırıb. Nə qədər ki, biz bir yerdəyik, heç birimizə zaval yoxdur!

*Məsaim ABDULLAYEV*
*XQ*

# Səmərqəndə bu il 6 milyon turist gələcək

**Bu günlərdə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Səmərqənd şəhərində bu qədim və gözəl şəhərin turizm imkanlarının daha da artırılması məqsədilə keçirilən müşavirədə çıxış edib. Dövlət başçısı bildirib ki, hazırkı dönəmdə Özbəkistanı regionun ən təhlükəsiz turizm məkanlarından biri kimi tanıdılması böyük əhəmiyyət kəsb edir.**



Bir müddət əvvəl "Özbəkistanda açıq turizm mövsümü" elan edilib. Bu müddət ərzində yeni avia marşrutlar açan şirkətlər onların xidmətlərindən yararlanan hər bir əcnəbi sərnişin turistə görə, 100 ABŞ dolları həcmində subsidiya almağa başlayıblar. Bu aviaşirkətlər, eyni zamanda, sərnişindaşıma üzrə xidmətlərinə görə isə 20 faiz vergi güzəştlərindən bəhrələnirlər.

Bu il aprelin 1-dən etibarən Səmərqənddə fəaliyyət göstərən turizm üzrə operatorlar ölkəyə təşvi buyurran hər min nəfər turistə görə büdcədən 5 min dollara qədər subsidiya alırlar. Üstəlik, əlavə dəyər vergisinin tam yarısı onlara "cashback" (nağd pul şəklində) kimi geri qaytarılır.

Maraqlı cəhət həm də odur ki, turizmi təbliğ edən bir çox "populyar" blogerlər də unudulmayıb. Sosial şəbəkələrdə 5 milyondan çox izləyicisi olan 50 əcnəbi sosial şəbəkə fəalına Özbəkistana 7 günlük pulsuz tur paketi təklif olunub. Onların bir qismi artıq bu şansdan bəhrələnib.

Məlumat üçün bildirək ki, bu il Səmərqənd şəhərində ən azı 5 dünya şöhrətli sənətçinin qastrol səfərinə, həmçinin 10 biznes forumu və moda festivalına ev sahibliyi edəcək. Bütün bunlar Səmərqəndi turistlər üçün daha da sevilən və cəlbedici etmək məqsədi daşıyır.

Yeri gəlmişkən, Prezident Şavkat Mirziyoyev sözügedən müavirədə vurğulayıb ki, Səmərqənd dəqiq və təbiət elmləri üzrə olimpiadalar, forumlar və elmi konfransların keçirilməsi üçün beynəlxalq mərkəzə çevrilmək potensialına malikdir. Dövlət başçısı müvafiq qurumların rəhbərlərinə bu istiqamətdə dəyərli təşəbbüslərdə bulunmağı tapşırıb. Beləliklə, qeyd etdiyimiz təşviqedici imkanlardan istifadə etməklə ilin sonuna kimi Səmərqəndə azı 6 milyon turistin səfərinin təşkil edilməsi qarşıya əsas məqsədlərdən biri kimi qoyulub.

Prezident Şavkat Mirziyoyev son vaxtlar planetimizdə qlobal qarışıqlığın və artan neft qiymətlərinin logistika və ərzaq xərclərinə mənfi təsir edə biləcəyini nəzərə alaraq, regiona 500 elektriklə işləyən avtobusunun çatdırılması üçün göstəriş verib.

*Mahmud QƏRİBOV*
*XQ*

# Ərəbistan səhrasından Türkiyəyə dəmir qapı açılır

**Səudiyyə Ərəbistanı və Türkiyə arasında dəmir yolu əlaqələrinin qurulmasına dair anlaşma memorandumu imzalanıb. Bu barədə "əl-Ərəbiyyə" telekanalı məlumat verib.**



Səudiyyə Ərəbistanının nəqliyyat və logistika xidmətləri naziri Saleh əl-Casir bildirib ki, layihə İordaniya və Suriyadan keçməklə iki ölkə arasında dəmir yolu əlaqəsinin yaradılmasını ehtiva edir.

Nazirin sözlərinə görə, təşəbbüs regional inteqrasiyanın gücləndirilməsinə, ticarət dövriyyəsinin artırılmasına və region ölkələri arasında dayanıqlı quru nəqliyyatı sisteminin inkişafına töhfə verəcək.

Son dövrlərdə dəniz yükdaşımalarında yaranan çətinliklər, xüsusilə Hörmüz boğazı ətrafında baş verən gərginliklər və qlobal təchizat zəncirlərindəki fasilələr fonunda regional dəmir yolu bağlantısı layihələrinə maraq yenidən artıb.

Səudiyyə Ərəbistanı–Türkiyə dəmir yolu layihəsi də bu istiqamətdə ən mühüm təşəbbüslərdən biri hesab olunur. Layihənin əsas məqsədi Asiya ilə Avropa arasında ticarət və nəqliyyat əlaqələrinin dayanıqlılığını artıracaq alternativ quru marşrutlarının formalaşdırılmasıdır.

*M.QƏZƏNFƏROĞLU*
*XQ*

*Təqvim yada salır*

# Türklük məfkurəsinin Köprülü körpüsü

**Tarixdə elə işıqlı ziyalılar var ki, onlar mənsub olduğu xalqların başını böyük əzm və zəkaları ilə uca edirlər. Qardaş Türkiyədə ötən əsrdə belə parlaq, dəyərli şəxsiyyətlərdən biri də görkəmli türkoloq, ədəbiyyatşünas, tarixçi, sosioloq, diplomat Məhməd Fuad Köprülü olub! Bu günlərdə Türk dünyası 60 il əvvəl əbədiyyətə qovuşmuş unudulmaz türkoloqun xatirəsini ehtiramla yad edir.**



İşıqlı zəka sahibinin özünün qeyd etdiyi kimi, o, "əziz və uca millətinə təmənnasız xidmətdən sonsuz zövq" alıb! Bu yolda əzm və dözüm göstərib, heç vaxt yoruldum, usandım deməyib!

Xatırladaq ki, XX əsrin əvvəllərində Osmanlı imperiyası ağır xəstə qocaya bənzəyirdi. İctimai-siyasi həyatın, demək olar ki, bütün sahələri, eləcə də təhsil sistemi bərbad vəziyyətə düşmüşdü. Bəzi "ziyalılar" elm və tədris sahəsində yaranmış acı həqiqəti dilə gətirmək, milləti gözləyən bəlalardan xilas etmək əvəzinə "öz qəhrəman babalarının şücaətlərini öyməklə" məşğul idilər. Elm və təhsil dairələrindəki saxta, savadsız "alimlər"in mənasız fəaliyyətləri nəticəsində fikir və düşüncələri süstlük və ətalət bürümüşdü.

Tanınmış türkoloq, Bakı Slavyan Universitetinin professoru Şahbaz Şamıoğlu o ağır illər barədə danışarkən acı təəssüf hissilə qeyd etdi ki, Osmanlı, həqiqətən, elm və təhsildə Qərbə kəskin şəkildə uduzurdu. Avropanın elmi dairələrində türkiyəli alimlərin əsərlərini nəinki dəqiq elmlər, hətta humanitar sahələrdə belə ciddiyə almırdılar. Bu ürək ağrıdan durumu nəyin bahasına olursa-olsun dəyişmək lazım idi!

Xoşbəxtlikdən belə bir ağır durumda millətin içindən işıqlı zəkaları ilə qaranlıqları yaran aydınlar meydana çıxdı. Onlardan biri, bəlkə də birincisi yeni fikir və düşüncə sahibi olan Məhməd Fuad Köprülü idi! Bu dərin təfəkkür adamı ədəbiyyatşünaslıq, tarix, sosiologiya, siyasət və başqa humanitar sahələrdə yeni metodoloji yanaşmalara əsasında bir-birindən parlaq əsərlər yazdı. Qərb və bütün dünya onun fikrinin, düşüncəsinin məntiqinə, pozitivliyinə və genişliyinə heyran qaldı.

Qeyd etmək lazımdır ki, Köprülünün çox qəribə taleyi olub. Qədim alban əsilli əsilzadələrdən olan kiçik Məhməd 1907-ci ildə Ankara Universitetinin hüquq fakültəsinə daxil olub və bir neçə ildən sonra oranı könüllü surətdə tərk edib. O, "niyə ali təhsil ocağını bitirmədiniz?" sualına belə cavab verib: "Ankarada 3 il hüquq təhsili aldım. İmtahanları böyük uğurla verdim, amma hüquq sahəsində çox məyus oldum. Təhsil çox zəif idi. Tələbəsi olduğum 1907-ci il darülfünunu həyatdan bir dünya uzaqda idi. İslam şəriətindən dərs deyən professorlardan faydalanmadığımı deyə bilmərəm. Ancaq yeni Avropa elmlərini öyrədənlər dili bilmirdilər".

Məhməd bəy çox enerjili, ambisiyalı gənc idi, elmi mənbələri və bədii ədəbiyyatı orijinaldan oxumağa üstünlük verirdi. Qısa müddət ərzində bir çox əcnəbi dilləri mükəmməl şəkildə öyrənə bilmişdi. Xüsusilə fransız dilini və ədəbiyyatını ona dərs deyən professorlardan qat-qat yaxşı bilirdi. Gənc tədqiqatçı 1919-cu ildə nəşr olunmuş "Türk ədəbiyyatında ilk sufilər" əsərində təsəvvüf ədəbiyyatının mahiyyətini açaraq o vaxtadək Qərbdə çətin anlaşılan bu düşüncə tərzini dünya elmi ictimaiyyətinə yeni nöqteyi-nəzərdən təqdim etdi.

Bundan başqa, 1921-ci ildə yazdığı "Türk ədəbiyyatı tarixi" əsəri ilə ədəbiyyatşünaslıq tarixinə "pozitivizm" adlandırılan yeni baxış bucağı, mütərəqqi yanaşma sərgilədi. Köprülünün elmi, nəzəri fikirləri Türkiyəni, bütövlükdə Şərqi öyrənmək arzusunda olan Qərb tədqiqatçıları üçün mötəbər elmi mənbəyə çevrildi.

O, hələ 1913-cü ildə, 23 yaşında İstanbul Universitetində türk ədəbiyyatı üzrə professoru təyin olundu və 1941-ci ilə qədər burada müəllimlik etdi. Ali təhsil alması barədə diplomu olmadığı halda belə, dünyanın ən nüfuzlu universitetləri aktual mövzularda mühazirələr oxumaq üçün ona dəvətlər göndərirdilər. 1927-ci ildə Heydelberq (Almaniya) Universitetinin, 1937-ci ildə Afina (Yunanıstan) Universitetinin fəxri doktoru adına layiq görüldü. 1939-cu ildə Sorbon (Fransa) Universitetinin fəxri doktoru seçildi. Həmin il Macarıstan Elmlər Akademiyasının, 1947-ci ildə isə Amerika Şərq Cəmiyyətinin fəxri üzvü seçildi. Öz parlaq məruzələrilə Harvard Universitetinin (ABŞ) elmi dairələrini heyran qoydu.

Yeri gəlmişkən, Köprülü bəy 1926-cı ildə Bakıda ilk dəfə keçirilən I Türkoloji qurultayın işində fəal iştirak edib. O, bura türkçülüyün böyük ideoloqu Əli bəy Hüseynzadə ilə birlikdə gəlmişdi. Türkiyəli professor Əli bəy Hüseynzadənin Böyük Turançılıqla bağlı ideyalarına sayğı ilə yanaşırdı və bu böyük mütəfəkkiri həyatda özünün ustadı sayırdı. Köprülünün I Türkoloji Qurultaydakı parlaq çıxışı tədbir iştirakçılarının dərin marağına səbəb olmuşdu.

M.F.Köprülü Türkiyədə Osmanlıdan sonrakı cümhuriyyət quruculuğu illərində ölkənin ictimai-siyasi həyatında fəal rol oynadı. O, siyasi həyatda çoxpartiyalı sistemin qurulmasının qızğın tərəfdarlarından idi. Cümhuriyyətin yarandığı ilk illərdə Qarsdan millət vəkili seçildi. Sonra 3 əqidə dostu ilə birlikdə Cümhuriyyət Xalq Partiyasından (CHP) ayrılaraq, Demokrat Partiyasını qurdu. 1950-ci ildən 1954-cü ilə qədər İstanbuldan millət vəkili oldu.

Türk xalqının böyük ziyalısı, eyni zamanda, bacarıqlı diplomat kimi də tarixdə dərin iz qoyub. Bir neçə il Türkiyənin xarici işlər naziri vəzifəsində çalışıb, ölkəsinin Şimali Atlantika Alyansı – NATO-ya üzv olması üçün ciddi səylər ortaya qoyub. Xatırladaq ki, o dövrdə şimal qonşusu Sovet İttifaqından qaynaqlanan kəskin təhdidlərlə üzləşən Türkiyənin milli təhlükəsizliyi üçün bu addım son dərəcə vacib idi! Qardaş ölkə 1952-ci ildə alyansa üzv qəbul edilib.

Sonda bildirək ki, Məhməd Fuad Köprülü 1966-cı ilin iyununda Ankarada avtomobil qəzasında ağır yaralanaraq həyatını itirib. Bu böyük zəka sahibinin işıqlı arzu və əməlləri bu gün Qərbin və Şərqin elm dünyası tərəfindən dərin hörmətlə anılır, təqdir və təbliğ olunur.

*M.HACIXANLI*
*XQ*

# Xəzərin o tayında qardaş Türkmənistan

**Ceyhun ilə bəhri Xəzər arası**
**Əsər çöl üstündə yeli türkmənin.**
**Gül-qönçəsi qara gözüm qarası**
**Qara dağdan gələr yeli türkmənin.**

Türkmən xalqının böyük şairi və mütəfəkkiri Mahtumqulu Fəraqinin bu misraları qardaş xalqın tarixi coğrafiyasını, iqlimini, həyat tərzini özündə elə dəqiq əks etdirir ki, onun iti zəkasına və qələminin qüdrətinə sadəcə heyran qalırsan. Qoy həmişə Qara dağdan (Kopetdağ) selin gəlsin, qoy həmişə çölün üstdən yelin əssin, torpağın bərəkətli, ruzin bol olsun, doğma Türkmənistan!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı və partiyanın Gəncə şəhər təşkilatının birgə təşkilatçılığı ilə “Şəhərsalma və Memarlıq İli” çərçivəsində keçirilən “Heydər Əliyev iştirak üçün ruhlandırırdı. Hər şeydən görünürdü ki, bu səfərə xüsusi diqqət və həvəslə hazırlaşmışdı. Onun bu diqqəti və həssaslığı təyyarədə olan 160 nəfərlik mədəniyyət və incəsənət xadimlərinin hamısına sirayət etmişdi. Bu isə ümumi ovqatımıza bir az da həyəcan qatır, səfəri daha da maraqlı edirdi.

## Eşq ilə abad olan, ağ mərmərli Aşqabad şəhəri

Aşqabad şəhəri qızılı səhranın bəyaz incisi kimidir. Eşqin abad etdiyi bu şəhəri indi qardaş türkmən xalqının milli lideri Qurbanqulu Berdiməhəmmədov və Prezident Sərdar Berdiməhəmmədov abad edir. Böyük zövq və xüsusi layihə əsasında tamamilə yenidən qurulan ondadır ki, onlar bu ortaq klassiklərimizi elə türkmən hesab edirlər. Xüsusən Nəsimini özlərinin şairi kimi tanıyırlar. Mən onun Azərbaycanda, Şamaxıda doğulub, Suriyada, Hələbdə öldüyünü söyləyəndə buna çox təəccübləndilər. Çünki Nəsiminin türkmən olduğuna qəti əmindirlər. Əslində onların bu yanaşmalarında bir həqiqət də var. Tədbirlərin birində qardaş ölkənin təmsilçisi rusca danışdı. Sonrakı çıxışçı mən olduğum üçün bu fürsətdən ən səmərəli şəkildə faydalanmağa çalışdım. Birincisi, eyni dildə danışıb bir-birimizi təqribən 90 faiz başa düşdüyümüz halda çıxışçının rus dilində olmasına etiraz etməli, ikincisi isə Nəsiminin türkmən olması ilə bağlı onların mövqeyinə münasibət bildirməli idim. Kürsüyə çıxıb sözlərimə Nəsiminin iki





məktəbi” layihəsində iştirak etmək üçün qədim paytaxtımıza doğru irəliləyərkən birdən telefonuma zəng gəldi. Bildirdilər ki, iyun ayının 4-8-də Türkmənistanda keçiriləcək Azərbaycan mədəniyyəti günlərində iştirak etmək üçün adınız siyahıya daxil edilib. Gəncəyə çatana qədər bu şad xəbər qulaqlarımda Axaltəkə və Qarabağ atlarının qoşa kişnərtisi kimi əks-səda verdi.

Bir gün sonra səhər tezdən dəmir atımız qoşa qanadlarını gərərək Xəzərin üstündən türkmən ellərinə tərəf şığımağa başlayanda qulağıma hələ də türkün döyüş atlarının qoşa kişnərtisi gəlirdi. Təyyarədə xəyala dalarkən bu kişnərti məni uzaqlara, lap uzaqlara, eradan əvvəl 7-ci əsrə qədər apardı. O zaman biz hələ türkmən, azərbaycanlı, özbək, qazax, qırğız yox, sadəcə bir adla tanınan skiflər – işquzlar – saklar idik. Herodotun tarix kitabında yazdığı kimi, eradan əvvəl 7-ci əsrdə bütün türklər Alp Ər Tunqanın rəhbərliyi altında bir arada yaşayırdılar. Alp Ər Tunqa (Firdovsinin “Şahnamə” əsərində Əfrasiyab) demişdi ki, at irigə ol dağ gibi gokkə ay, yəni göy üçün ay nədirsə, igid üçün də at odur!

Elə 21-ci əsrdə də Alp Ər Tonqanın davamçıları olan iki böyük türk lideri, Azərbaycan Prezidenti İlham Əliyev və Türkmənistanın milli lideri Qurbanqulu Berdiməhəmmədov da bir-birinə məhz at bağışlayaraq ən azı 3 min illik türk adətinə sadiq qaldıqlarını nümayiş etdirmişdilər!

## Bizim ailəmiz Türk dünyasıdır

Birdən mənə elə gəldi ki, biz bu səfərlə əslində miladdan öncə 7-ci əsrə qayıdırıq. Yenidən Türk Dövlətləri Təşkilatının çətiri altında düz Alp Ər Tunqa zamanında olduğu kimi birlikdə ortaq gələcəyimizi quracağıq. Ancaq müasir şərtlər içərisində. Nazim Hikmətin dediyi kimi – bir ağac kimi hürr, bir orman kimi qardaşcasına – yəni hər birimiz ayrıca müstəqil dövlət, ancaq həm də bir ittifaq içərisində qardaşcasına! Azərbaycan Prezidenti İlham Əliyevin bütün Türk dünyasına xitab edən möhtəşəm çağırışında dediyi kimi: “Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır. Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər”. Bu tarixi fikirlərin təsiri altında biz tam da Türk ailəsinin coğrafi mərkəzinə, gözlənildiyimiz, sevildiyimiz, öz ailəmizə doğru uçurduq.

Mahtumqulu Fəraqi də hələ 18-ci əsrdə Azərbaycana gəlib həqiqət və hikmət arayanda öz ailəsinə gəlmişdi. Azərbaycanın klassik ədəbi mühiti, xüsusilə də klassik şeirimiz və Füzuli məktəbi onun yaradıcılığına dərindən təsir etmişdi. Şair Azərbaycan ərazisində Bakı, Gəncə, Şamaxı və Quba kimi bölgələrimizə səfər etmiş (1750-1760-cı illər), bir müddət qalaraq yerli ədəbi mühitlə yaxından tanış olmuş, Nohur gölü və onun ərtaf kəndlərində yaşayan nohur türkmənləri ilə görüşmüş, sufi-təsəvvüf şairi olaraq bu bölgədəki müqəddəs yerləri ziyarət etmiş, müxtəlif təriqət nümayəndələri və alimlərlə elmi-fəlsəfi müzakirələr aparmışdı. Onun bu səfəri həm türkmən, həm də Azərbaycan ədəbi əlaqələrinin inkişafında mühüm rol oynamışdı:

***Könüllər, ürəklər bir olub başla,***
***Dartsa yığın ərir torpaqlar, daşlar.***
***Bir süfrədə təyyar qılınsa aşlar,***
***Qalxacaqdır ol iqbalı türkmənin.***

Onun məqsədi bütün türkmən ellərinin ortaq ədəbi “süfrəsini”, söz-sənət süfrəsini birləşdirərək bir etmək idi. Biz də eyni məqsədlə yola çıxdığımız səfərdə artıq eşqin abad etdiyi Aşqabada çatmaq üzrə idik. Təyyarədə bütün söhbətimiz Türkmənistan-Azərbaycan münasibətlərinin tarixi, dünəni, bugünki səviyyəsi ilə bağlı idi. Şübhəsiz ki, hər iki dövlətin başçılarının qarşılıqlı hörməti və səyləri nəticəsində Türkmənistan-Azərbaycan münasibətləri öz tarixinin ən yüksək səviyyəsinə çatmışdır.

Mədəniyyət nazirimiz Adil Kərimov Türkmənistanda keçiriləcək Azərbaycan Mədəniyyəti günlərindən danışarkən dövlətlərarası münasibətlərimizin hazırkı səviyyəsinə xüsusi vurğu edir, mədəniyyət təmsilçilərimizi uğurlu şəhər özündə həm də Səlcuqlu memarlığının ən incə ornamentlərini birləşdirir.

Milli simvollarımıza və ortaq əcdadımıza olan doğma münasibət hər addımda adamın qarşısına çıxır. Oğuz xanın möhüründə və müstəqil Azərbaycanın bayrağında əksini tapan, dünyaya hökmranlıq etmək (dörd cəhət və dörd yarımcəhət) rəmzi olan səkkizguşəli ulduzun şəhərin simvolu olaraq hər yerdə qarşıya çıxması insanın milli qürurunu oxşayır. Bir qədər sonra qarşınıza Dədə Qorqudun heykəli, daha sonra müqəddəs qopuzun abidəsi, daha sonra Mahmud Qaşqarinin dediyi kimi türkün qanadı olan atların heykəli çıxır.

Bütün bunlar qardaş ölkənin milli liderinin tariximizə, mədəniyyətimizə, milli irsimizə olan münasibətinin göstəricisi kimi insanda dərin rəğbət hissi yaradır. Ona görə də bu qədər doğmalıq arasında istəsən də özünü qəriblikdə hiss edə bilmirsən.

## Kopetdağın ətəyində Arxadağ

Türk millətinin mentalitetində dağ və dağ kultu olduqca əhəmiyyətli bir yer tutur. Biz dağı arxa bilir, ona güvənirik. Bəzən güvənimiz sarsılanda, “Sənə güvəndiyim dağlar, sənə də qar yağdı” deyirik. Bəzən Aşıq Ələsgər kimi dağın ədalətinə və hamıya bərabər davranmasına görə ona qibtə edib, “Yoxsulu, ərbabı, şahı, gədanı, tutmaz biri-birindən aralı dağlar” deyərək dağın bu ədaləti qarşısında baş əyirik. Bəzən dağı xəstə üçün sinəsində qar saxlayan şəfaverici kimi görürük. Bəzən də deyirik, arxanda dağ kimi dayanmışam. Bu günün dərin siyasi kataklizmləri kontekstində hər bir xalqın ağıllı və müdrik liderə ehtiyacı var. Belə liderlər, sözün əsl mənasında, millətinin təhlükəsizliyini, rifahını təmin etməklə ona arxa olur.

Türkmən və azərbaycanlı mentaliteti eyni mənəvi kodlara malik olduğu üçün qardaş türkmən xalqı öz milli liderini həm də Arxadağ adlandırır. Aşqabaddan yarım saatlıq məsafədə, Kopetdağın düz ətəyində yeni salınan bu gözəl şəhər də elə onu böyük zəhmətlə inşa etdirən liderin adına uyğun olaraq Arxadağ adlandırılıb. Arxadağ şəhəri səhra içərisində yaşıllıqlara bürünmüş bir cənnət parçasına bənzəyir. Olduqca gözəl binalar, yamyaşıl parklar, inşa edilməkdə olan möhtəşəm bir məscidlə bərabər bu şəhərdə həm də möhtəşəm bir kitabxana inşa edilib! Yəni kitabxana məsciddən əvvəl tikilib.

Doğrudan da, ibadət etmədən öncə nə üçün və necə ibadət etməyin lazım olduğunu yalnız kitab oxumaqla öyrənmək olar. Çünki elə müqəddəs kitabımız da “Oxu” nidası ilə başlayır! Qardaş ölkədə kitaba və oxumağa verilən əhəmiyyət həqiqətlən də olduqca təqdirəlayiqdir. Tədbirlərimizdən birini də bu kitabxanada keçirdik. Eyni zamanda, Milli Kitabxanamızın direktoru, professor Kərim Tahirovun xüsusi olaraq bu kitabxana üçün gətirdiyi çoxsaylı kitabları Arxadağ Dövlət Kitabxanasına hədiyyə etdik.

## Milli geyimləri ilə səhra laləsinə bənzəyən türkmən qızları

Türkmənistanda milli irsə olan münasibət, sözün əsl mənasında, insanda heyranlıq yaradır. Milli naxışlarla bəzədilmiş rəngarəng geyimləri ilə səhranın ortasında açan çiçək vadisini xatırladır türkmən qızları. Türkmənistanda gender problemi yoxdur. Bütün elmi konfranslarda, ictimai-mədəni tədbirlərdə, idarəetmədə kişilərlə bərabər qadınlar da çox fəal iştirak edir. Hazırladıqları ləziz mətbəx nümunələrinə isə söz ola bilməz!

***Al-yaşıl bürünüb çıxar pərisi,***
***Kükrəyib bərq vurar ənbərin iysi.***
***Bəy, törə, ağsaqqal yurdun yiyəsi***
***Kürən tutar gözəl eli türkmənin.***

## Türkmənlər bizi doğma qardaş hesab edirlər

Türkmənistanda istənilən kitabxanada Nəsiminin, Füzulinin, Nizaminin türkmən dilində kitablarını görmək mümkündür. Məsələ misrası ilə başladım. Dedim ki, Nəsimi yazır:

***Ərəbi, farsı bilmənəm***
***Çün türkmən oğlu türkmənəm!***

Mən də deyirəm ki, rusu, ingilisi bilmənəm, çün mən də türkmən oğlu türkmənəm. Sözlərimi bitirər-bitirməz zaldan gurultulu alqışlar qopdu! Çünki mən həm rus dilində nitqə etiraz etmişdim, həm də ən əsası onların Nəsimini türkmən saymaqlarına bəraət verərək Nəsiminin öz şeiri ilə bunu təsdiq etmişdim! Məsələnin həqiqət tərəfi isə odur ki, birincisi, Səlcuqlulardan başlamış Qaraqoyunlu və Ağqoyunlu dövlətlərimizə qədər, tarix onları türkmən dövləti kimi təqdim edir. İkincisi, əgər Nəsimi, ya da orta əsr dövlətlərimiz bizi birləşdirirsə, onda bu ortaq dəyəri və ortaq mirası elə ortaq da qəbul etməliyik! Çünki belə yanaşma bizi daha da doğmalaşdırır və bu gün ehtiyac duyduğumuz müttəfiqlik üçün tarixi şüur kontekstində real zəmin yaradır.

## Ulu Nizamidən üzübəri gələn Mərv həsrəti

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərlərində Mərv şəhəri xüsusi coğrafi və mədəni mərkəz kimi təsvir olunur. Şair məşhur poemalarında bu qədim şəhərin adını çəkərək dövrün siyasi və ictimai hadisələrini canlandırır. “Sirlər xəzinəsi” poemasında Mərv şəhəri Sultan Səncərin hökmranlıq mərkəzi kimi təqdim olunur. Şair burada məşhur ədalət və dövlət idarəçiliyi mövzusuna toxunur. Elə biz də Mərvdən gələn tədbir iştirakçıları ilə doyunca Mərvdən, Dəndənəkan savaşından, Alp Arslanla, Sultan Səncərdən, Sultan Toğruldan və nəhayət, Azərbaycanda Səlcuqluların hakimiyyəti dövründən danışdıq.

Mən Səlcuqluların Azərbaycan hakimi olan Taparı xatırladım, Qızıl Arsandan söz açdım və Səlcuqluların davamı olaraq Naxçıvanı paytaxt edən Eldəgəzlər dövründə inşa edilmiş, bu gün də dimdik ayaqda olan, səlcuqlu memarlığının ən gözəl incilərindən biri olan Möminə Xatun türbəsindən bəhs etdim. Əcəmi Naxçıvanini qardaşlarımıza bir daha tanıtdım. Belə söhbətlər bizi daha da doğmalaşdırır, bəzən gözlərimiz yaşaracaq qədər kövrəldirdi. Bu zaman eyni millət olduğumuzu bir daha dərindən idrak edirdik. Məncə, elə mədəniyyət günlərinin keçirilməsində məqsədlərimizdən biri də bu idi.

***Qafil qalmaz, döyüş günü xar olmaz,***
***Qarğışa, nəzərə giriftar olmaz,***
***Bülbüldən ayrılıb solub saralmaz***
***Daim ənbər saçar gülü türkmənin.***

Qoy əbədi yaşasın, daim var olsun eli türkmənin!

## Azərbaycan və Türkmənistan bir millətin iki ulu yurdudur!

Türkmənistanda dörd günlük Azərbaycan mədəniyyəti günləri elə sürətlə keçdi ki, sanki cəmi dörd saat çəkdi. Ancaq bu qısa müddətə incəsənət xadimlərimiz, bir-birindən dəyərli müğənnilərimiz bir ömür boyu sürəcək qədər xatirələr və doğmalıq sığışdırdılar. Azərbaycan mədəniyyətini həm tarixi, həm də bugünkü reallıqlar kontekstində ən layiqli şəkildə qardaş xalqa təqdim edə bildilər. Onsuz da türkmən qardaşlarımız bizim musiqimizi, incəsənətimizi çox sevirlər.

Nəticədə, eyni mənəvi-estetik kodların daşıyıcısıyıq və bu belə də olmalıdır. Azərbaycanın xalq artisti və Türkmənistanın qızıl medal laureatı Gülyanaq xanım Məmmədova və Türkmənistanın Xalq artistinin birgə ifa etdikləri “Mən yarıma gəldim, mən sənə gəldim” mahnısı isə sözün əsl mənasında Azərbaycan və türkmən musiqisinin ortaq ahənginin və melodiyasının mükəmməl sintezi idi. Türkmən xoreoqraflarının ifa etdiyi xalq oyunu “Quştəpdi” rəqsi isə tam bir sufi ibadəti kimi idi. Elə sufi eşqi ilə də Türkmənistandan ayrıldıq. Ayrıldıq yenidən görüşmək üçün!

**(şeirlər Mahtumqulu Fəraqinindir)**

***Hikmət BABAOĞLU***

**Bakı-Aşqabad-Arxadağ-Bakı**

*Yeni kitablar*

# “İslamın müqəddəs mərkəzi – şəhərsalma və memarlıq”



**Bu günlərdə Milli Elmlər Akademiyasının (AMEA) Memarlıq və İncəsənət İnstitutunun memarlıq abidələrinin qorunması və bərpası problemləri şöbəsinin elmi işçisi Zərnaz İmanzadənin “İslamın müqəddəs mərkəzi – şəhərsalma və memarlıq” kitabının təqdimatı keçirilib.**



Mərasimdə çıxış edən müəllif bildirib ki, “Azərbaycan Nəşriyyatı” Məhdud Məsuliyyətli Cəmiyyətinin maliyyə dəstəyi ilə işıq üzü görən kitab İslam sivilizasiyasına, onun ənənələrinə, memarlıq və incəsənətinə artan böyük maraq nəzərə alınaraq yazılıb. Xüsusi qeydlər və mənbələrlə zənginləşdirilmiş bu fundamental araşdırma, mahiyyət etibarilə İslamın müqəddəs məkanlarına dair ensiklopedik vəsaitdir.



Oxucu kitabda İslamın müqəddəs abidələri haqqında onu maraqlandıran bir çox suallara dair faydalı məlumatlar əldə edə bilər. Bu tədqiqat işi elmi-praktiki, eyni zamanda, idealoji əhəmiyyətə malikdir. İslamın müqəddəs məkanlarının memarlıq və şəhərsalma sənətinə həsr olunmuş əsər dünya universitetlərinin memarlıq və dinşünaslıq fakültələrində İslam tarixi üzrə dərs vəsaiti kimi qiymətli mənbədir. Dünya müsəlmanlarının müqəddəs mərkəzi olan Məkkə şəhərinin, Kəbə və Məscid əl-Haramın memarlıq-planlaşma inkişafı tarixi ilə tanışlıq oxucuya İslam ənənəvi mədəni dəyərlərini daha dərindən dərk etməyə imkan verəcək.



**“Azərbaycan Nəşriyyatı” Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru Leyla Güləliyeva** "Şəhərsalma və Memarlıq İli" çərçivəsində nəşr olunan kitabın mövzusunun elmi baxımdan xüsusi önəm kəsb etdiyini, xalqımızın memarlıq irsinin öyrənilməsi və təbliğinə mühüm töhfə olduğunu bildirib: “Müəllif şəxsi müşahidələrini geniş tədqiqatlar, səyahətçilərin qeydləri, tarixi salnamələr və İslam mətnləri ilə birləşdirərək, şəhərin XXI əsrin dini turizm məkanı kimi çoxqatlı portretini yaradıb. Kitabda Məkkədə baş verən dəyişikliklər fonunda tarixi irsin itirilməsi və bu günümüzə qədər gəlib çatmış memarlıq abidələrinin bərpası problemləri öz əksini tapıb”.



**AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli** qeyd edib ki, ilk dəfə olaraq bir azərbaycanlı müəllif İslamın müqəddəs mərkəzi olan Kəbə haqqında sistemli, əyani materiallarla zəngin monoqrafik tədqiqat işi ərsəyə gətirib: “Zərnaz İmanzadə tədqiqat işində Məkkənin inkişaf tarixini, eyni zamanda, İslam sivilizasiyasının nümunəsi olan bu şəhərin memarlığının sənətkarlıq xüsusiyyətlərini şərh edib. Uzun müddət Səudiyyə Ərəbistanında yaşadığı dövrdə müəllif Məkkə şəhərinin, Kəbə və Məscid əl-Haramın memarlıq inkişafını hərtərəfli araşdırmış, mövzu ilə bağlı həm tarixi, həm də faktiki vizual sənədləri dərindən öyrənmişdir”.

**Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin müəllifin yeni kitabının çapdan çıxması münasibətilə göndərdiyi təbrik məktubu da diqqətə çatdırılıb.**

İctimai-siyasi xadim, professor Dilarə Seyidzadə, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova, Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə, Bakı Dövlət Universitetinin fəlsəfə kafedrasının müdiri, professor Rəbiyyət Aslanova təqdim edilən kitabın məzmun və fakt zənginliyi baxımından dəyərli əsər olduğunu bildiriblər.

Xatırladaq ki, tanınmış memar, Beynəlxalq Memarlıq Akademiyasının və AMEA-nın müxbir üzvü Zərnaz İmanzadə 1953-cü ildə Şəkidə anadan olub. Uzun illər Ərəb ölkələrində yaşayıb. Alimin “Diriiyyə – Açıq Səma Altında Muzey” kitabı Beynəlxalq Memarlıq Müsabiqəsində I dərəcəli diploma layiq görülüb. O, Azərbaycan memarlığının inkişafındakı xidmətlərinə görə Memarlar İttifaqının “Akademik Mikayıl Hüseynov” xatirə medalı ilə təltif edilib. Memar “Galateya” Moda Evinin təsisçilərindən biri, memarlıq və şəhərsalma mövzusunda 4 kitabın və 50-dən çox məqalənin müəllifidir.

***M.ƏLİYEVA***
***XQ***

# Silahlar yenə susdu – nə vaxtadək?

## *Savaşdan kövrək atəşkəs daha yaxşıdır*

**Müharibələr əksər hallarda gözlənildiyi kimi getmir, çox vaxt da gözlənilməz hadisələr baş verir. Hətta yaxşı planlaşdırılmış əməliyyat belə qəfil hadisələr, hərbi texnikanın sıradan çıxması, pis hava şəraiti üzündən, ya da sadəcə uğursuzluqlar nəticəsində pozula bilir. Lakin Prezident Donald Trampın fevralın 28-də İrana hücum qərarından sonra baş verən fəlakət gözlənilməz deyildi. Belə bir kampaniyanın təhlükələri yaxşı məlum idi və göz qabağında idi, çünki illərlə komanda-məntəqə təlimlərində və müharibə oyunlarında, hərbçilər on dəfələrlə bunu uduzmuşdular.**



O səbəbdən də İrana qarşı bu müharibə ən pessimist proqnozlardan belə daha pis nəticələndi. Tramp administrasiyasının "səyahət" adlandırdığı hərbi əməliyyatların başlamasından üç ay sonra "Epik qəzəb" əməliyyatının "taktiki uğur, lakin strateji uğursuzluq" olduğuna dair ilkin qiymətləndirmə isə indi həddindən artıq səxavətli görünür. Axı Amerika nə taktiki, nə də strateji məqsədlərinə çata bildi. ABŞ hakim İran rejimini yeni, sözəbaxan liderlərlə əvəz edə bilmədi. İranın yüksək zənginləşdirilmiş uranını ələ keçirə və nüvə proqramını ləğv etməyə nail olmadı. Daha pisi isə, əksər məlumatlara görə, böyük raket və dron ehtiyatları da daxil olmaqla, Tehranın öz hərbi potensialının çox hissəsini saxlaya bilməsidir. Nəhayət, müharibə yeni, üzücü bir problem yaratdı: bir vaxtlar dünya neftinin və mayeləşdirilmiş təbii qazın 20 faizinin daşındığı Hörmüz boğazı, faktiki olaraq, indi də bağlı qalır.

Bütün bunlarla yanaşı, danışıqlar davam etsə belə, müharibə hələ də bitməyib. Çünki ara-sıra qarşılıqlı raket və hava zərbələri kövrək atəşkəsi müharibə zolağına daha da yaxınlaşdırır, nəinki sülhə. Dünən Prezident Donald Trampın Tehranı Oman sahillərində ABŞ hərbi helikopterini vurmaqda günahlandırmasından bir neçə saat sonra ABŞ ordusu İrana hava hücumlarına başlayıb.

Doğrudur, ABŞ Mərkəzi Komandanlığı "İranın hava hücumundan müdafiə sistemlərinə, yerüstü idarəetmə qurğularına və Hörmüz boğazı yaxınlığındakı müşahidə radarlarına dəqiq idarə olunan sursatlarla" qırıcı təyyarələrdən zərbə endirdiyini söyləsə də, əməliyyatın başa çatdığını bildirir. Onlar bunu "regional sulardan keçən ABŞ qüvvələrinə və beynəlxalq ticarət gəmilərinə son hücumlara mütənasib cavab" adlandırıblar.

Bu hadisələr aprelin əvvəlində qüvvəyə minən və Trampın həftələrdir elan etdiyi sülh razılaşmasını təhlükə altına alan atəşkəs müqaviləsinin nə qədər kövrək olduğunu aydın göstərir. Bununla belə, ABŞ rəsmilərinin təmkinli və ölçülü-biçili ifadələri Vaşinqtonun tammiqyaslı hərbi əməliyyatları yeniləmək əvəzinə, qarşıdurmanı cilovlamağa çalışdığını da bəlli edir.

İranın Birgə Hərbi Komandanlığı isə, öz növbəsində, bəyan edib ki, "bölgədəki bir neçə Amerika bazasına" zərbə endirib. Dövlət xəbər agentliyi "IRIB News" İslam İnqilabı Keşikçiləri Korpusuna istinadən bildirir ki, çərşənbə günü səhər saatlarında Bəhreyndə ABŞ-ın 5-ci Donanma qüvvələrinə dronlarla zərbə endirilib. "Fars" və İran dövlət televiziyası isə ölkənin İordaniya və Küveytdəki ABŞ hərbi hədəflərinə də hücum edildiyini açıqlayıb.

İranın xarici işlər naziri Abbas Əraqçi özünün X platformasındakı səhifəsində ölkəsinin "heç bir hücumu və ya təhdidi cavabsız qoymayacağını" qeyd edib. Centcom isə ABŞ ordusunun "ayıq qaldığını və əsassız İran təcavüzünə qarşı müdafiəyə hazır olduğunu" bildirib.

"ABC News"un müxbiri Conatan Karl hava zərbələrinin endirildiyi elan edildiyi zaman Trampla telefonla danışdığını və prezidentin bu zərbələrin İran hərbçilərinin vurduğu helikopterə cavab olaraq endirildiyini bildirib. Tramp deyib: "Mən hesab edirəm ki, çox güclü, çox qətiyyətlə cavab verməliyik və məhz buna ehtiyac var".

İranın dövlətə məxsus "IRIB" agentliyi xəbər verib ki, Hörmüzqan əyalətinin Sirik şəhərində iki su anbarı zədələnib və bu bölgədə içməli su təchizatında fasilələrə səbəb olub.

Rəsmi mənbələr bildirirlər ki, ABŞ hava qüvvələrinə məxsus "Apaçı" helikopteri Hörmüz boğazı üzərində patrul xidməti zamanı vurulub və onun hər iki pilotu xilas edilib. İstintaq davam etdiyi üçün adının çəkilməsini istəməyən ABŞ rəsmilərindən biri bildirib ki, ilkin əlamətlərə görə, helikopter "Şahid" pilotsuz təyyarəsi ilə toqquşduqdan sonra qəzaya uğrayıb və indi Centcom qəzanın qəsdən olub-olmadığını qiymətləndirir.

İran helikopteri vurduğunu inkar etsə də, xarici işlər naziri Abbas Əraqçi "ərazimizə yaxın xarici qüvvələrin insan səhvi, qəzalar və ya çarpaz atəş səbəbindən daimi risk altında olduğunu" bildirib.

Gərginliyin artması fonunda neft qiymətləri yenidən yüksəlib. "Brent" markalı neftin qiyməti 1,3 faiz artaraq 1 barrel üçün 93 dollara çatıb. Lakin bazarlar nisbətən sabit qalıb, ABŞ fond indeksinin fyuçersləri 0,3 faiz azalıb.

Tramp dəfələrlə İsrail və İran arasında düşmənçiliklərin yenidən başlamasına və münaqişənin şiddətlənməsi ilə bağlı narahatlıqların artmasına baxmayaraq, son sülh razılaşmasının yaxın olduğunu bildirib. Hətta bazar ertəsi günü İran və İsrail hər iki tərəfin ballistik raket atışmasına səbəb olan düşmənçilikdən sonra Trampın təkidləri ilə zərbələri dayandırmaq barədə razılığa gəliblər.

Bütün bu hadisələrə baxmayaraq, ABŞ və İran arasında ciddi vasitəçilik səyləri davam edir, Pakistanın rəhbərlik etdiyi nümayəndələr hər iki tərəflə danışıqları davam etdirir və məlumatlı mənbələrə görə, bunların bu həftə də davam edəcəyi gözlənilir.

Doğrudur, Trampın diplomatik yanaşması danışıqlarda iştirak etməyən İsraili narahat edir və İranın "razılaşma"dan sonra da təhlükə yarada biləcəyindən ehtiyat edir. Bu səbəbdən İsrail Təhlükəsizlik Şurasının üzvü Orit Strok Qəzzadakı "HƏMAS" və Livandakı "Hizbullah" kimi qrupları nəzərdə tutaraq bildirir ki, "biz elə etməliyik İran bu qarşıdurmadan öz imkanlarını, eləcə də etimad göstərdiyi qüvvələrin imkanlarını əsla bərpa edə bilməyəcəyi şəkildə çıxsın". İsrailin ordu radiosuna verdiyi müsahibədə o, Tehranın sanksiyaların yumşaldılmasına nail ola bilməyəcəyinə ümid etdiyini bildirib.

Baş nazir Benyamin Netanyahu İsrailin hələlik İrana hücum etməkdən çəkinəcəyini, lakin növbəti hücuma dərhal cavab verəcəyini bildirib. Eyni zamanda, İsrail Livandakı İranpərəst "Hizbullah"a təzyiq göstərməyə davam edəcəyini də açıqlayıb və Sur şəhərinin sakinlərini mümkün əməliyyatdan əvvəl təxliyə etmələri barədə xəbərdar edərək, zərbələrin davam edə biləcəyini bildirib.

İran da İsrailə qarşı hərbi əməliyyatların başa çatdığını elan edib. Lakin "Fars" xəbər agentliyinin məlumatına görə, mərkəzi komandanlıq xəbərdarlıq edib ki, əgər İsrail hücumlarını, o cümlədən Livanın cənubuna zərbələr endirməyi davam etdirərsə, "əvvəlkindən daha sərt və daha sarsıdıcı hərəkətlərlə" qarşılaşacaq.

Bu arada Küveytin Asiyadakı emal zavodlarına neft satmaq təklifi, müharibənin başlanğıcından bəri ilk dəfədir ki, Tehranın Hörmüz boğazından keçən nəqliyyatı bağlamaq təhdidlərinə baxmayaraq, Fars körfəzindən enerji və gəmiçilik axınlarının tədricən bərpa olunduğunun yeni bir əlaməti təsiri bağışlayır. Ticarət gəmiləri, bəzilərinin transponderlərini söndürmüş vəziyyətdə üzməyə davam etmələrinə baxmayaraq, tədricən su yoluna qayıdırlar.

Digər potensial eskalasiya cəbhəsi Yəməndə, İran tərəfindən dəstəklənən Husilərin "Qırmızı dənizdə İsrail düşməni üçün dəniz naviqasiyasına tam və qeyd-şərtsiz qadağa" təhdidi ola bilər. Bazar ertəsi günü onlar İsrailə raket zərbəsi endirəcəyini də elan ediblər.

Beləliklə, müharibənin nəticələri acınacaqlı olaraq qalmaqdadır. Digər tərəfdən, hərbi uğursuzluğun xərcləri sürətlə artmaqdadır, əlbəttə, təkcə pul baxımından deyil. Pentaqon Konqresə aprel atəşkəsinə qədər müharibənin ilk 40 gününün 29 milyard dollara başa gəldiyini bildirib, lakin bu, çox güman ki, elə də real qiymətləndirmə deyil. Müdafiə qurumu bu qiymətləndirməyə nəyin daxil edildiyi barədə çox ehtiyatla danışır. Ən azı, bu qiymətləndirmədə nə ABŞ hərbi infrastrukturuna dəyən böyük ziyan, nə də münaqişə zamanı məhv edilmiş Amerika hərbi təyyarələrinin və digər avadanlıqların dəyişdirilməsinin tam dəyəri nəzərə alınır. Hərbi ekspertlər yekun xərcin müdafiə qurumunun ilkin qiymətləndirməsindən iki dəfə çox olmasını ehtimal edirlər.

Ən son qiymətləndirmələrə görə, münaqişə zamanı səkkiz ölkədəki ən azı 16 ABŞ hərbi obyektinə ciddi ziyan dəyib. Bu onu göstərir ki, bölgədəki ABŞ hərbi mövqelərinin əksəriyyəti ziyan görüb. Bir çox obyektlərdə zərər o qədər böyükdür ki, onlar hərbi əməliyyatlar üçün praktik olaraq istifadəyə yararsız hala düşmüşlər. Münaqişə yenidən başlasa, bu bazaların yenidən qurulması və regionda infrastrukturun gücləndirilməsinin dəyəri çox yüksək olar. Lakin, ümumi dəyəri qiymətləndirmək çətindir, çünki ABŞ hökuməti region haqqında ictimai peyk məlumatlarına çıxışı məhdudlaşdırmağa davam edir. İranın raketləri və dronları həmçinin Yaxın Şərqdəki onlarla ABŞ radarına, o cümlədən regional hava hücumundan müdafiə və erkən xəbərdarlıq sistemlərini dəstəkləyən qurğulara uğurlu hücumlar edib. Belə ki, "E-3 AWACS", dörd F-15 və yeddi tanker də daxil olmaqla qırx iki hərbi təyyarə ya zədələnib, ya da məhv edilib. Bu texnikanın dəyişdirilməsi on milyardlarla əlavə xərc tələb edəcək.

Uzunmüddətli hərbi hazırlığın xərclərini ölçmək çətindir və əlbəttə ki, onlar Pentaqonun qiymətləndirməsində nəzərə alınmır. Lakin bütün hallarda onlar yenə də nəzərə alınmalıdır. Müharibə səbəbindən döyüş texnikasının istismarı və şəxsi heyətin yorğunluğu ilə yanaşı, təyyarələrin və hava hücumundan müdafiə vasitələrinin itirilməsi, eləcə də hava hücumundan müdafiə raketlərinin və dəfetmə qurğularının, tükənməsi ABŞ-ın gələcək hərbi əməliyyatlara hazırlığına ciddi təsir göstərəcək. Bəzi hesablamalara görə, ABŞ 1 min "Tomahawk" raketi, "Patriot" və "THAAD" ehtiyatlarının, təxminən, 50 faizini, həmçinin PrSM və JASSM raketləri kimi qabaqcıl uzunmənzilli silahlarının əhəmiyyətli bir hissəsini istifadə edib.

Ekspertlər bildirirlər ki, hazırkı müharibənin necə bitməsindən asılı olmayaraq, ABŞ-ın Yaxın Şərqdə başqa bir hərbi avantürasının xərcləri çox böyük olacaq və geosiyasi nəticələr qarşısıalınmaz olacaq. Növbəti nəsil Amerika liderləri sərt reallıqla üzləşəcəklər. Onilliklərdir qərarlarını siyasi liderlərin Amerikanın nə etməli olduğu barədə fikirlərinə əsaslandıran ABŞ, Vaşinqtonun nə edə biləcəyini yenidən nəzərdən keçirməyə məcbur olacaq. Bu dəyişiklik ABŞ, Vaşinqtonun təhlükəsizlik zəmanətlərinə güvənən Amerika müttəfiqləri və naviqasiya azadlığı kimi qlobal təhlükəsizlik faydaları təmin etmək üçün Birləşmiş Ştatlara güvənən beynəlxalq ictimaiyyət üçün ciddi nəticələrə səbəb olacaq.

Politoloqların bir çox belə qənaətdədir ki, Amerika imperiya layihəsinin əbədi yox olması üçün uzun vaxt lazım olacaq, lakin bugündən etibarən ABŞ xərclərinin və öhdəliklərinin azalması qaçılmazdır. İyirmi il sonra dünya bu ana dönüş nöqtəsi kimi baxacaq: Amerika imperiyasının sonunun başlanğıcı.

ABŞ-ın digər sahələrdəki uğursuzluqları da olduqca aşkardır. ABŞ Hörmüz boğazını hərbi güclə aça bilmədi. Amma bir çoxları iddia edir ki, ABŞ eskalasiyanın yüksək risklərinə və manevr xərclərinə razı olsaydı, bunu edə bilərdi. Ələyə bənzəyən Amerikanın cavab blokadası, Asiyada müharibə baş verəcəyi təqdirdə, ABŞ-ın Malakka boğazına girişi bağlaya biləcəyini və ya Çin limanlarına embarqo qoyacağını iddia edənləri narahat etməli idi. Nəhayət, ABŞ quru qüvvələri İranın pilotsuz uçuş aparatlarının təhdidlərinə qarşı çıxmaqda, əsl mənada, uğursuz olublar və özlərinin etibarlı PUA qüvvələri ilə buna qarşı çıxa bilmirlər. Ukraynadakı münaqişəni müşahidə edən Amerika hərbi komandirləri, artıq Avropada quru müharibəsində NATO müttəfiqlərini dəstəkləməyi əhatə edəcək əməliyyatlar da daxil olmaqla, gələcək əməliyyatlara hazırlıq məqsədilə manevr müharibəsinə yanaşmalarını kökündən dəyişdirməli olacaqlarını etiraf ediblər.

Əsas nəticə budur ki, ABŞ hərbi gücü, sadəcə olaraq əvvəlki kimi uzağı əhatə edə bilmir və ya əvvəlki möhtəşəmliyə malik deyil. İran müharibəsinin dərsləri də o qədər ciddi deyil. Onlar ABŞ hərbi mövqeyinin hazırkı dayanıqsızlığının sistemli və strateji olduğunu açıb göstərirlər. Bu, sadəcə, vəsait və ya anbarlarda yerin olmaması məsələsi deyil. 1,5 trilyon dollarlıq müdafiə büdcəsi və hərbi-sənaye bazasına qoyulan investisiyalar bu problemləri həll edə bilməz. Görünür, ABŞ beynəlxalq öhdəliklərini yenidən nəzərdən keçirməyə və onları əhəmiyyətli dərəcədə azaltmağa məcbur olacaq.

Amma məqam hələ o məqam deyil. Çünki bu gün ABŞ-da xarici siyasət müzakirələri bilavasitə İranla müharibənin nəticələri ilə bağlıdır. Münaqişənin səbəblərini həll edən köklü bir razılaşma hələ imzalanmayıb, siyasətçilər artıq bundan sonra nələrin baş verəcəyini müzakirə etməlidirlər. Müharibə ABŞ hərbi gücünün kövrəkliyini və Amerikanın müasir dövrdə nələrə nail ola biləcəyinin açıq məhdudiyyətlərini üzə çıxardı.

"The American Conservative" nəşri yazır ki, "ABŞ xarici siyasətinin müharibədən sonra normal vəziyyətə qayıdacağı uydurmasını davam etdirmək əvəzinə, siyasətçilər reallığı qəbul etməlidirlər: ABŞ hərbi dominantlığı və Amerika imperiyası dövrü başa çatıb". Əlbəttə, bu, ABŞ üçün daha az rahat gələcəyə gətirib çıxaracaq, lakin bu ölkədə dəyişikliklər dövrü çoxdan çatıb və onun problemləri tamamilə həll ediləsi problemlərdir. Əgər bu indi həyata keçirilərsə, Amerika xərclərinin və öhdəliklərinin azaldılması ABŞ-ı və dünyanı daha yaxşı və zəngin edəcək.

***Hazırladı:***
***İlqar RÜSTƏMOV***
***XQ***

**Avropa İttifaqının son illər qarşısına qoyduğu ən mühüm strateji məqsədlərdən biri təhlükəsizlik və müdafiə sahəsində daha müstəqil və inteqrasiya olunmuş sistem formalaşdırmaqdır. Rusiya-Ukrayna müharibəsinin yaratdığı yeni hərbi-siyasi reallıq, Vaşinqtonun Avropa təhlükəsizliyinə yanaşmasının zaman-zaman fərqli xarakter alması və qlobal güc balansında baş verən dəyişikliklər Avropa dövlətlərini müdafiə imkanlarını gücləndirməyə sövq edib. Fəqət son günlər Fransa və Almaniya arasında yaranmış fikir ayrılıqları bu istiqamətdə irəliləyişin heç də asan olmayacağını nümayiş etdirir.**

# "Qoca qitə"nin strateji muxtariyyət arzusu niyə dalana dirənib?

## *Rusiya təhlükəsi artır, Avropa ölkələri isə ortaq dil tapa bilmirlər*



Avropanın ən ambisiyalı hərbi layihələrindən biri hesab edilən FCAS (Future Combat Air System – Gələcəyin Hava Döyüş Sistemi) proqramının dayandırılması barədə xəbərlər qitənin müdafiə strategiyası ilə bağlı ciddi suallar yaradıb. Fransa və Almaniya arasında uzun müddət davam edən texniki, sənaye və siyasi fikir ayrılıqlarının kulminasiya nöqtəsinə çatması layihənin gələcəyini sual altına salıb. Ekspertlər bu hadisəni Avropa müdafiə inteqrasiyasının üzləşdiyi struktur problemlərin göstəricisi kimi qiymətləndirirlər. FCAS proqramı ilk dəfə 2017-ci ildə Fransa və Almaniya tərəfindən təqdim edilmiş, daha sonra layihəyə İspaniya da qoşulmuşdu. Məqsəd hazırda istifadə olunan döyüş təyyarələrini əvəz edəcək yeni nəsil hava döyüş sistemi yaratmaq idi. Eyni zamanda, FCAS pilotsuz uçuş aparatları, süni intellektlə idarə olunan döyüş platformaları, peyk rabitə sistemləri, elektron müharibə vasitələri və vahid rəqəmsal komanda-idarəetmə şəbəkəsini özündə birləşdirən geniş müdafiə ekosistemi kimi nəzərdə tutulurdu. Başqa sözlə, proqram Avropanın XXI əsr müharibələrinə hazırlıq konsepsiyasının əsas sütunlarından biri hesab edilirdi. Layihənin strateji əhəmiyyəti ondan ibarət idi ki, Avropa dövlətləri ABŞ istehsalı olan hərbi texnologiyalardan və xüsusilə F-35 proqramından asılılığı azaltmaq istəyirdilər. FCAS məhz bu asılılığı minimuma endirərək Avropanın texnoloji və hərbi suverenliyini gücləndirməli idi. Buna görə də proqramın dayandırılması Avropa strateji muxtariyyəti ideyasına ciddi zərbə kimi başa düşülə bilər.

Sözsüz ki, siyasi amillər də məsələdə mühüm rol oynayır. Fransa və Almaniya uzun illər Avropa inteqrasiyasının aparıcı mühərrikləri hesab olunurlar. Aİ-də həyata keçirilən bir çox təşəbbüslərin arxasında məhz Paris və Berlin tandemi dayanıb. Lakin son dövrlər iki ölkə arasında enerji siyasəti, iqtisadiyyat, Çinlə münasibətlər, Ukraynaya dəstək mexanizmləri və müdafiə məsələləri üzrə fikir ayrılıqları kəskin xarakter almağa başlayıb. Əgər tərəflər kompromis əldə edə bilməsələr, vəziyyət Aİ-nin digər strateji proqramlarına da mənfi təsir göstərəcək.

Bəzi ekspertlərə görə, hazırkı böhran Fransa-Almaniya münasibətlərində etimad çatışmazlığının göstəricisidir. Müasir hərbi texnologiyaların inkişafı böyük maliyyə və siyasi məsuliyyət tələb etdiyindən tərəflər arasında tam etimad olmadan uğur qazanmaq çətin görünür. Belçikanın Baş naziri Bart De Vever də Fransa və Almaniyanın gələcəyin altıncı nəsil Avropa döyüş təyyarəsi layihəsi üzrə razılığa gələ bilməməsini sərt tənqid edib. O, yaranmış vəziyyəti vaxt itkisi, təkəbbür və Avropa üçün ciddi strateji nəticələr doğuran "tam axmaqlıq" kimi qiymətləndirib. Baş nazirin fikrincə, bu vəziyyət Aİ-nin uzunmüddətli müdafiə müstəqilliyini və çəkindirmə qabiliyyətini ciddi şəkildə zəiflədir.

Almaniyanın son illər müdafiə siyasətindəki kəskin dəyişikliklərin əsas səbəblərindən biri Rusiyadan qaynaqlanan təhlükə amilidir. Berlinin narahatlığı daha çox Rusiyanın gələcəkdə NATO-nun Şərq cinahına qarşı hərbi təzyiq imkanlarının artması ilə bağlıdır. Bu ilin aprelində Almaniya ilk dəfə genişmiqyaslı hərbi strategiya sənədi qəbul etdi. Həmin sənəddə Rusiya "Almaniya və Avro-Atlantik təhlükəsizliyi üçün ən böyük və birbaşa təhdid" kimi xarakterizə olundu. Almaniya Müdafiə Nazirliyi hesab edir ki, Moskva hərbi gücünü sürətlə bərpa edir və NATO ilə mümkün qarşıdurmaya hazırlaşır. Məhz buna görə Almaniya üç istiqamətdə hərəkət edir. Birincisi, Bundesverin genişləndirilməsi. Berlin Avropanın ən güclü konvensional ordusunu qurmağı hədəfləyir. İkincisi, milli HHM sisteminin qurulması. Almaniyanın təşəbbüsü ilə yaradılan European Sky Shield Initiative layihəsi Avropanı raket, dron və ballistik raket hücumlarından qorumağı nəzərdə tutur. Bu çərçivədə Almaniya İsrail istehsalı olan "Arrow-3", həmçinin "IRIS-T" və "Patriot" sistemlərini əldə edir. Üçüncüsü, müdafiə sənayesinin gücləndirilməsi. Paradoks ondadır ki, elə bu səbəbdən Fransa–Almaniya hərbi əməkdaşlığı böhran yaşayır.

Ümumən, FCAS layihəsinin dayandırılması göstərir ki, texnoloji potensial və maliyyə imkanları mövcud olsa belə, siyasi iradə və strateji uzlaşma olmadan böyük müdafiə layihələrinin həyata keçirilməsi mümkünsüzdür. Avropa müdafiə inteqrasiyasının gələcəyi məhz bu uzlaşmanın nə dərəcədə əldə olunacağından asılı olacaq.

Sonda Fransa və Almaniya arasında yaranmış fikir ayrılığına Avropanın gələcək təhlükəsizlik arxitekturasının hansı istiqamətdə formalaşacağını müəyyənləşdirə biləcək strateji sınaq kimi baxa bilərik. Çünki FCAS proqramının aqibəti Avropanın qlobal güc kimi ambisiyalarının gələcəyini müəyyən edə bilər.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Hüseyn SULTANLI,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin məsləhətçisi**

FCAS proqramının dayandırılması Avropa İttifaqının müdafiə və təhlükəsizlik sahəsində daha böyük muxtariyyət əldə etmək istiqamətində üzləşdiyi çətinliklərin növbəti təzahürüdür. Birgə döyüş təyyarəsinin hazırlanmasına dair razılaşmanın əsas tərkib hissəsi olan proqram 2017-ci ildə başladılmış, lakin layihənin inkişafı fransız və alman sənaye nümayəndələri arasında texniki icra məsələləri və ən əsası, prosesdə liderlik rolunun kimə məxsus olması ilə bağlı fikir ayrılıqları səbəbindən dayandı. Bu isə Almaniya-Fransa müdafiə və təhlükəsizlik tərəfdaşlığının mərkəzində daha dərin gərginliyin mövcudluğuna işarə edir.

Paradoksal olaraq, hər iki tərəf Avropanın strateji muxtariyyətinin gücləndirilməsinə sadiq olduqlarını bəyan etsə də, onların qısamüddətli prioritetləri və bu məqsədlərin həyata keçirilməsi strategiyaları uzlaşmır.

2022-ci ildə Ukraynada genişmiqyaslı müharibənin başlanması, eləcə də Rusiya təhlükəsi Almaniyanı müdafiə sektoruna yanaşmasını yenidən nəzərdən keçirməyə məcbur etdi və ölkə hərbi ambisiyalarını əhəmiyyətli dərəcədə artırdı. Almaniyanın müdafiə sənayesinin özünütəminetmə imkanlarını gücləndirmək və müdafiə xərclərinin artırılmasını institusional səviyyədə möhkəmləndirmək son illərdə atılmış əsas addımlar sırasındadır. Müdafiə sahəsində daha cəsarətli və qətiyyətli aktora çevrilən Almaniya bu transformasiya sayəsində hətta ən yaxın tərəfdaşları ilə apardığı danışıqlarda belə əlavə nüfuz və özünəinam qazanıb.

Bununla belə, prosesin regional inteqrasiya meyilləri hesabına baş verdiyi şübhəsizdir və FCAS ətrafında mübahisə Almaniyanın Fransa ilə strateji əhəmiyyət daşıyan hərbi münasibətlərində qüvvələr balansının dəyişdiyini nümayiş etdirir. Əgər əvvəllər Paris Avropanın müdafiə sektorunda inteqrasiyanı gücləndirməyə çalışan dominant və təsirli hərbi güc rolunu oynayırdısa, Almaniyanın həm konseptual, həm də praktiki baxımdan öz yanaşmasını yenidən qiymətləndirməsi bu dinamikanın davamını mümkünsüz edib.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 101 (31070) 11 iyun 2026-cı il, cümə axşamı






## İdman Akademiyasında görüş



**Azərbaycan İdman Akademiyasında Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Emi Karlonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Qonaqlar MediaLab və İdman Tibbi Tədqiqatları Laboratoriyasının fəaliyyəti ilə tanış olub. Nümayəndə heyətinə Akademiyada yaradılmış müasir tədris və elmi-tədqiqat infrastrukturu haqqında ətraflı məlumat verilib.

Görüşdə akademiyanın rektoru Fuad Hacıyev ASA-nın tarixi, elmi-tədris mühiti və beynəlxalq əməkdaşlıq istiqamətləri barədə danışaraq bildirib ki, tədris müəssisəsində ABŞ-ın aparıcı ali təhsil qurumları ilə akademik əlaqələrin genişləndirilməsində və uzunmüddətli tərəfdaşlığın qurulmasında maraqlıdır.

Emi Karlon isə elm və təhsil sahəsində əməkdaşlığın xalqlar arasında qarşılıqlı anlaşmanın və yaxın münasibətlərin möhkəmləndirilməsində mühüm rol oynadığını vurğulayıb.

ASA ilə ABŞ-ın nüfuzlu ali təhsil müəssisələri arasında əməkdaşlıq imkanları, eləcə də birgə layihə və tədbirlərin həyata keçirilməsi məsələləri müzakirə olunub. Tərəflər tələbə və müəllim mübadiləsinin təşkili, həmçinin beynəlxalq layihələrin birgə icrası istiqamətində fikir mübadiləsi aparıblar.

## Batumidə Dünya Kuboku




**5-28 iyun tarixlərində Gürcüstanın Batumi şəhərində 8,10 və 12 yaşlı şahmatçılar arasında Dünya Kuboku keçiriləcək.**

Azərbaycan Şahmat Federasiyasından verilən məlumata görə, yarışda ölkəmizi Ziya Qubatov, Nurlan Qənizadə, Səfa Hümmətov, Attila Orman, Aminə Amanzadə, Nurcan Tahirova, Mehriban Əhmədli və Sadəgül Əfəndi təmsil edəcəklər. Yeniyetmələr səfərə məşqçi Nicat Məmmədovun rəhbərliyi altında yollanacaq.

## Basketbolçularımızın Avropa mübarizəsinə hazırlığı



**Basketbol üzrə U16, U18 və U20 qız millilərimiz Minskdə keçirilən təlim-məşq toplanışını başa vurub.**

26 may – 4 iyun tarixlərini əhatə edən hazırlıq prosesi çərçivəsində komandalarımız Belarusun müxtəlif klubları və milli komandaları ilə bir sıra yoxlama oyunları keçirərək Avropa çempionatlarına hazırlıqlarını davam etdiriblər.

Komandamızın baş məşqçisi Evren Alkaya hazırlıqlarla bağlı fikirlərini XQ-yə bölüşüb:

- Toplanış bizim üçün çox faydalı oldu. Güclü rəqiblərlə qarşılaşaraq komandalarımızın hazırkı vəziyyətini qiymətləndirmək və beynəlxalq təcrübə qazanmaq imkanı əldə etdik. İnanıram ki, hazırlığın nəticələri qarşıdakı Avropa çempionatlarında özünü göstərəcək.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Dünya çempionatı – 2026*

# Dünya 39 gün futbolla nəfəs alacaq

## *DÇ-2026 fərqli olacaq: 3 ev sahibi, 48 komanda, 104 oyun*

**Bu gün Bakı vaxtı ilə saat 23:00-da Meksika - Cənubi Afrika oyunu ilə futbol üzrə sayca 23-cü dünya çempionatı start götürəcək. İyulun 19-dək davam edəcək mundial həm formatı, həm də coğrafiyası baxımından indiyədək görünməmiş yeniliklərlə yadda qalacaq.**

2026-cı il dünya çempionatı ilk dəfə 48 komandanın iştirakı ilə keçiriləcək ki, daha əvvəl həmin say 32-yə bərabər idi. FIFA hesab edir ki, bu genişlənmə həm rəqabəti artıracaq, həm də daha çox ölkəyə dünya futbolunun ən böyük səhnəsində çıxış etmək imkanı verəcək. Genişlənən iştirakçı sayı turnirin formatına da təsir edib. Artıq komandalar hərəsində 4 iştirakçı olmaqla 12 qrupda mübarizə aparacaqlar. Pley-off mərhələsinə qrup qalibləri və ikincilərlə yanaşı, üçüncü yeri tutan ən yaxşı səkkiz komanda da vəsiqə qazanacaq. Bunun nəticəsində mundialın proqramına yeni mərhələ - 1/16 final əlavə olunub.

Özbəkistan, İordaniya, Kabo Verde və Kürasao komandaları tarixlərində ilk dəfə dünya çempionatında iştirak edəcəklər. Xüsusilə Kürasaonun mundiala vəsiqə qazanması diqqət çəkir. Karib hövzəsində yerləşən bu ada dövləti dünya çempionatında çıxış edəcək ən kiçik əraziyə və ən az əhaliyə malik ölkə olacaq.

Bununla yanaşı, bəzi komandalar uzun fasilədən sonra mundiala qayıdırlar. Konqo DR və Haiti 1974-cü ildən, İraq 1986-cı ildən, Avstriya, Norveç və Şotlandiya isə 1998-ci ildən sonra yenidən dünya çempionatında mübarizə aparacaqlar. Türkiyə millisi də dünya üçüncüsü olduğu 2002-ci ildən bəri ilk dəfə mundialda iştirak edəcək.

Tarixdə ilk dəfə dünya çempionatı eyni vaxtda üç ölkədə - ABŞ, Kanada və Meksikada keçiriləcək. Meksika bununla da mundiala üçüncü dəfə ev sahibliyi edən ilk ölkə olacaq (daha əvvəl 1970 və 1986-cı illərdə). Kanada isə ilk dəfə mundialın təşkilatçısı olur.

Turnirin oyunları 16 şəhərdə keçiriləcək ki, onlardan da 11-i ABŞ-da, 3-ü Meksikada, 2-si isə Kanadada yerləşir. Mundial çərçivəsində ümumilikdə 104 qarşılaşma olacaq. Onların 78-i ABŞ-da baş tutacaq. Kanada və Meksika isə hərəyə 13 matça ev sahibliyi edəcəklər. Yarışın keçiriləcəyi stadionlar arasında yalnız biri daha əvvəl dünya çempionatı oyunlarına ev sahibliyi edib. Söhbət Mexikodakı əfsanəvi "Azteka" stadionundan gedir. Maraqlıdır ki, ABŞ-da təşkil edilmiş 1994-cü il dünya çempionatının stadionlarından heç biri bu dəfə istifadə olunmayacaq.

Mundial okeanın o tayında keçirildiyindən oyunların əksəriyyəti Bakı vaxtı ilə gecə və ya səhər saatlarında başlayacaq. Məsələn, Türkiyə millisinin Avstraliya ilə iyunun 14-də keçiriləcək oyunu saat 08:00-da, Paraqvayla iyunun 20-də baş tutacaq görüşü saat 07:00-da, ABŞ ilə iyunun 26-dakı qarşılaşması isə saat 06:00-da start götürəcək. Özbəkistan millisinin Kolumbiya ilə iyunun 18-dəki oyunu saat 06:00-da, Portuqaliya ilə iyunun 23-dəki matçı saat 21:00-da, Konqo DR ilə iyunun 28-dəki görüşü isə saat 03:30-da başlayacaq.

Əvvəlkilərdə olduğu kimi, bu mundialda bir çox yeni rekordlar qeydə alınacaq, əvvəlki nailiyyətlər təzələnəcək. Portuqaliya millisinin lideri Kriştiano Ronaldo altıncı cəhdində dünya çempionu olmaq arzusunu reallaşdırmağa çalışacaq. O, həmçinin altıncı mundialında da qol vurmaqla öz rekordunu daha da inkişaf etdirə bilər. Digər əfsanə Lionel Messi isə Argentina millisinin heyətində dünya çempionatlarındakı oyun sayını artıraraq rekordunu yeniləmək imkanı əldə edəcək: hazırda onun hesabında 26 oyun var.

Oyunçulardan söz düşmüşkən, Azərbaycan Premyer Liqasını təmsil edən futbolçu ilk dəfə dünya çempionatında çıxış edə bilər. "Turan Tovuz"un 34 yaşlı müdafiəçisi Roderik Miller Panama millisinin heyətində yer alıb. Qeyd edək ki, sovet dövründə belə xoşbəxtlik "Neftçi"nin iki futbolçusu - Anatoli Banişevski və Eduard Markarova nəsib olub: onlar SSRİ yığmasının heyətində 1966-cı il dünya çempionatında iştirak ediblər.

Şanslara gəlincə, dünyanın aparıcı idman statistika və analitika şirkətlərindən biri olan "Opta"nın hesablamalarına görə, İspaniya komandasının çempionluq ehtimalı daha yüksəkdir – 15,98 %. Bu reytinqdə ilk beşlikdə, həmçinin Fransa (12,88 %), İngiltərə (10,84 %), Argentina (10,05 %) və Portuqaliya (7,08 %) yer alıb. Onlardan sonra isə Braziliya (6,60 %), Almaniya (5,90 %), Niderland (3,87 %) və Norveç (3,47 %) gəlir.






Türkiyə millisinin çempionluq ehtimalı isə cəmi 1,10 faiz göstərilir. Bununla belə, futbol üzrə araşdırma və analitika mərkəzi "CIES Football Observatory"nin reytinqinə görə, dünyanın hazırda ən bahalı 10 futbolçusu arasında iki türkiyəli oyunçunun - Kenan Yıldız (133 milyon avro) və Arda Gülerin (124,8 milyon avro) də yer alması bu komanda ilə bağlı gələcəyə ümidlə baxmağa əsas verir.

Son illərdə nümayiş etdirdiyi sabit və yüksək səviyyəli oyun İspaniya millisini DÇ-2026-nın əsas favoritlərindən birinə çevirib. Komanda dünya çempionatından əvvəl ən nüfuzlu turnir olan AVRO-2024-ün qalibi olub. İspanlar həmin yarışda Xorvatiya (3:0), İtaliya (1:0), Almaniya, Fransa və İngiltərə (son üç rəqibi eyni hesabla – 2:1) kimi rəqibləri məğlub etməyi bacarıblar.

İspaniya millisi topa nəzarətə və qısa ötürmələrə əsaslanan oyun üslubu ilə seçilir. Məhz bu xüsusiyyət onu məğlub edilməsi ən çətin komandalardan birinə çevirib. Son üç ildə heç bir rəqib rəsmi oyunların əsas və ya əlavə vaxtında İspaniyaya qalib gələ bilməyib. Komanda bu müddətdə yalnız 2024-cü ildə yoldaşlıq görüşündə Kolumbiyaya (0:1) və ötən il UEFA Millətlər Liqasının finalında penaltilər seriyasında Portuqaliya (əsas və əlavə vaxt 2:2, pen. 3:5) uduzub.

Komandanın baş məşqçisi Luis de la Fuenteyə futbolçu kimi əsas millidə oynamaq qismət olmayıb. O, məşqçi kimi İspaniyanın U-19, U-21 və U-23 komandaları ilə uğur qazanaraq 2022-ci ildə əsas milliyə yüksəlib və onunla artıq Avropa çempionu tituluna sahib çıxıb.

İspaniya millisinin əsas üstünlüklərindən biri geniş və yüksəkkeyfiyyətli heyətidir. Komandanın onurğa sütununu böyük ölçüdə "Barselona"nın futbolçuları təşkil edir. Ardıcıl ikinci mövsüm İspaniya çempionu olan klubun səkkiz təmsilçisi millinin DÇ-2026 üçün heyətində yer alıb. Bunlar ehtiyat qapıçı Joan Qarsia, müdafiəçilər Erik Qarsia və Pau Kubarsi, yarımmüdafiəçilər Qavi və Pedri, hücumçular Ferran Torres, Dani Olmo və ötən il olduğu kimi, bu il də "Qızıl top" mükafatına əsas namizədlərdən biri olan 18 yaşlı Lamin Yamaldır.

Heyətdə İngiltərə çempionu "Arsenal"ın da üç futbolçusu yer alıb. Bunlar qapıçı David Raya, yarımmüdafiəçilər Mikel Merino və Martin Zubimendidir. Maraqlıdır ki, İspaniya millisinə bu dəfə "Real Madrid"dən heç kim çağırılmayıb.

Beləliklə, son illərin uğurlu nəticələri, uzunmüddətli məğlubedilməzlik seriyası, Luis de la Fuentenin rəhbərliyi altında formalaşmış sabit komanda modeli və güclü heyət İspaniyanı DÇ-2026-nın əsas favoritlərindən birinə çevirir və onun 2010-cu ildən sonra ikinci dəfə dünya çempionu olmaq ehtimalını artırır.

**DÇ-2026-da qrupların tərkibi (komandalar "Opta"nın reytinqinə uyğun sıralanıblar):**

**A qrupu:** Meksika, Cənubi Koreya, Çexiya, Cənubi Afrika

**B qrupu:** İsveçrə, Kanada, Bosniya və Herseqovina, Qətər

**C qrupu:** Braziliya, Mərakeş, Şotlandiya, Haiti

**D qrupu:** Türkiyə, ABŞ, Paraqvay, Avstraliya

**E qrupu:** Almaniya, Ekvador, Kot d'İvuar, Kürasao

**F qrupu:** Niderland, Yaponiya, İsveç, Tunis

**G qrupu:** Belçika, Misir, İran, Yeni Zelandiya

**H qrupu:** İspaniya, Uruqvay, Səudiyyə Ərəbistanı, Kabo Verde

**I qrupu:** Fransa, Norveç, Seneqal, İraq

**J qrupu:** Argentina, Avstriya, Əlcəzair, İordaniya

**K qrupu:** Portuqaliya, Kolumbiya, Konqo DR, Özbəkistan

**L qrupu:** İngiltərə, Xorvatiya, Qana, Panama.

*Rasim MÖVSÜMOV,*
*idman şərhçisi*

**HAVA**

# Aranda yağmursuz, dağlarda yağış və dolu…

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Şimal-şərq küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 18-21, gündüz 29-33 dərəcə isti olacaq. Atmosfer təzyiqi 760 millimetr civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 45-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüzdən bəzi dağlıq və dağətəyi rayonlarda fasilələrlə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısa müddətə intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək.

Havanın temperaturunun gecə 18-21, gündüz 28-33, dağlarda gecə 8-13, gündüz 17-22, bəzi yerlərdə 25-28 dərəcə isti olacağı ehtimal edilir.

*Q.ƏLİYEV*
*XQ*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3186
SİFARİŞ 727
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00